BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ
BAKU INTERNATIONAL MULTICULTURALISM CENTRE

Azərbaycan Milli Elmlər Akademiyası

Azərbaycan Yaradıcılıq Fondu

Multikulturalizm

Ədəbi-bədii, elmi-publisistik jurnal

2 (10) 2018

aprel-may-iyun

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi,
Azərbaycan Milli Elmlər Akademiyası
və Azərbaycan Yaradıcılıq Fondunun
birgə nəşri

BAKI
2018

Redaksiya heyəti

Aleksandr İşein
Allahşükür Paşazadə
Anar Rzayev
Aytən Mustafayeva
Aytən Qəhrəman
Azərpaşa Nemətov
Etibar Babayev
Etimad Başkeçid
Firdovsiyyə Əhmədova
İsa Həbibbəyli
Kamal Abdulla
Kamran İmanov
Qismət Rüstəmov
Lidiya Qranovskaya
Mehman Qaraxanoğlu
Milix Yevdayev
Natiq Rəsulzadə
Nəriman Qasımoğlu
Paşa Əlioğlu
Rəhilə Qeybullayeva
Rəşad Məcid
Robert Mobili
Sevda Sultanova
Sərdar Fərəcov

Beynəlxalq redaksiya şurası

Aleksandr Nesterov *(Rusiya)*
Aleksandr Qriç *(ABŞ)*
David Qotsiridze (*Gürcüstan)*
Didye Frankfurt *(Fransa)*
Eero Tarasti *(Finlandiya)*
İrma Ratiani (*Gürcüstan)*
Klaus Volf *(Almaniya)*
Maija Burima *(Latviya)*
Ramazan Qorxmaz *(Türkiyə)*
Sandro Teti *(İtaliya)*
Sudha Svarnakar *(Braziliya)*
Takayuki Yokota Murakami *(Yaponiya)*
Tereza Damasio *(Portuqaliya)*
Valeri Pines (ABŞ)
Vidas Kavalyauskas *(Litva)*
Yeva-Mariya Aux *(Almaniya)*

Baş redaktor
Fəxri Uğurlu

Baş redaktorun müavini
Tahir Kazımlı

Redaktorlar
Azər Qaraçənli
Sərraf Balaxan
Qismət Rüstəmov

Məsul katib
Taleh Eminoğlu

Texniki direktor
Fuad Cəfərov

Texniki redaktor
Əliş Mirzallı

Dizayner
Mətanət Qaraxanlı

Korrektor
Kəmalə Cəfərli

Üz qabığının 1-ci səhifəsi – Multikulturalizm monumenti (Kanada, Toronto, müəl. Fransisko Pirelli). Dörd oxşar abidə dünyanın müxtəlif yerlərində – Buffalo (CAR), Çançun (Çin), Sarayevo (Bosniya və Herseqovina), Sidney (Avstraliya) şəhərlərində yerləşir.

Üz qabığının 4-cü səhifəsi – Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə Gəncədə fəaliyyət göstərdiyi bina (Bina 1897-ci ildə tikilmişdir)

Redaksiyanın ünvanı:
Az1001, Bakı şəhəri, N.Rəfibəyli küç., 6
tel.: (+994 12) 492 33 29
e-mail: multikulturalizmjurnali@gmail.com
facebook: Multikulturalizm jurnalı

Jurnal ildə 4 dəfə nəşr olunur.
Qeydiyyat: 05/ƏN11-5-5946

Materiallardan istifadə edərkən jurnala istinad vacibdir.

© "Multikulturalizm" jurnalı, 2018

İÇİNDƏKİLƏR

RƏSMİ

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Sərəncamı..... 6

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ramazan bayramı münasibəti ilə Azərbaycan xalqına təbriki..... 7

Azərbaycan Xalq Cümhuriyyəti – 100..... 8

Qafqaz Müsəlmanları İdarəsində iftar mərasimi..... 16

AZƏRBAYCANÇILIQ

"HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI" – I Beynəlxalq elmi konfrans..... 24

ÇOXMƏDƏNİYYƏTLİLİK

Jalə QƏRİBOVA – Multikultural mühitdə özünüdərk..... 35

TARİXİMİZ, BUGÜNÜMÜZ

Alban Apostol kilsəsi: tarixi baxış – *dəyirmi masa (ikinci hissə)*..... 41

POLEMİKA

Umberto Eko ilə kardinal Karlo Martininin dialoqu *(ikinci hissə)*..... 51

AXUNDOV ZALI

Mahir N.QARAYEV – Vəsiyyət məqamları..... 57

Nəriman ƏBDÜLRƏHMANLI – Lələ (hekayə)..... 63

Арид ГУЛИЕВ – Стакан воды (этюд)..... 67

HÖTE ZALI

Xuan RULFO – Luvina (hekayə)..... 70

BEYNƏLMİLƏL

Büllurə ASLANQIZI – Yəhudi balalarını ölümdən qurtarmış qəhrəman: Həmzə Cümşüd oğlu Sadıqov..... 79

MM – MULTİKULTURALİZM MOZAİKASI 82

REGİON

"MULTİKULTURALİZM" təqdim edir:
Şirvan bölgəsinin rəngi 96



Azərbaycanda multikulturalizm dövlət siyasətidir. Eyni zamanda, bu, bizim həyat tərzimizdir. Tarixi dönəmdən və siyasi sistemdən asılı olmayaraq, xalqımız hər zaman istər ölkədə, istərsə də onun hüdudlarından kənarda multikulturalizmi fəal müdafiə və təşviq etmişdir.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

RƏSMİ

Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan xalqı öz təbiətindən gələn dərin insanpərvərlik və xoşməramlılıq duyğusu ilə uzun əsrlərdən bəri bütün digər xalqların dini-mənəvi dəyərlərinə daim ehtiramla yanaşmışdır. Ölkədə müxtəlif mədəniyyətlərə, dinlərə və dini cərəyanlara mənsub insanların heç bir maneəyə rast gəlmədən qarşılıqlı anlaşma şəraitində azad yaşamaları, eləcə də azsaylı xalqların öz etnik-mədəni dəyərlərini qorumaları və cəmiyyət həyatının istənilən sahəsində fəal iştirak etmələri üçün həmişə geniş imkanlar yaradılmışdır. Tolerantlıq səviyyəsinin və multikultural nailiyyətlərin göstəricisi olub gələcək inkişafı üçün də zəmin təşkil edən hazırkı milli-mədəni rəngarəngliyi Azərbaycanın ümumbəşəri dəyərlər xəzinəsinə misilsiz töhfələrindəndir.

Müstəqil Azərbaycan Respublikasının məhz xalqın həmin zəngin tarixi təcrübəsinə istinadən uğurla gerçəkləşdirdiyi dövlət–din münasibətləri konsepsiyasının doğruluğu və həyatiliyinin nəticəsidir ki, ölkədəki yüksək tolerantlıq mühiti dini icma və konfessiyaların birgə fəaliyyəti ilə bu gün də lazımınca qorunur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların dəstəklənməsi və fəaliyyətlərinin ahəngdarlığının təmin edilməsi məqsədi ilə **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi üçün Azərbaycan Respublikasının 2018-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 1,0 (bir) milyon manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 250,0 (iki yüz əlli) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 250,0 (iki yüz əlli) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 100,0 (yüz) min manat, Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturası dini qurumuna 100,0 (yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi Xristian dini icmasına 100,0 (yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 11 iyun 2018-ci il



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ramazan bayramı münasibəti ilə Azərbaycan xalqına təbriki

Hörmətli həmvətənlər!

Müqəddəs Ramazan bayramı münasibətilə sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

İlahi hikmətlər xəzinəsi "Qurani-Kərim" on bir ayın sultanı sayılan mübarək Ramazan ayında nazil olmuşdur. Müsəlmanlar bu ayda Uca Yaradan qarşısında vicdani borcunu yerinə yetirmək fürsəti əldə edir, mənəvi-ruhi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar.

Orucluq mərasimləri hər il cəmiyyətimizdə humanizmin, birlik və bərabərliyin təntənəsinə çevrilir. Bu mübarək ayda xalqımızın və dövlətimizin əmin-amanlığı və tərəqqisi naminə edilən bütün dua və diləklərlə həmrəy olduğumu bildirir, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş qəhrəman Vətən övladlarının xatirəsini minnətdarlıqla yad edirəm.

Əlamətdar haldır ki, builki Ramazan günləri müsəlman Şərqində ilk dünyəvi demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının 100 illik yubiley təntənələri ilə bir vaxta təsadüf edir. Müstəqil dövlətçiliyimizin bərpasından sonra ölkədə mütərəqqi islami dəyərlərin bərqərar edilməsi cəmiyyətimizin mənəvi-əxlaqi yüksəlişinə təkan vermiş, öz milli köklərinə daim sadiq qalan xalqımızın bütövlüyünü, vəhdətini və həmrəyliyini daha da gücləndirmişdir. Bu gün dövlət müstəqilliyimizin möhkəmləndirilməsi uğrunda Azərbaycanın oğul və qızlarının sarsılmaz mübarizə əzmi və yüksək vətənpərvərliyi tarixi ənənəyə və milli-mənəvi dəyərlərə bağlılığın bariz nümunəsidir.

Əziz bacı və qardaşlarım!

Könül xoşluğu ilə yola saldığımız Ramazan ayı artıq başa çatır. Bu əziz bayram günlərində bir daha etdiyiniz dua və niyyətlərin Ulu Tanrı dərgahında qəbul olunmasını arzu edir, ailələrinizə xoşbəxtlik, süfrələrinizə xeyir-bərəkət diləyirəm.

Ramazan bayramınız mübarək olsun!

İlham Əliyev,
Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, 13 iyun 2018-ci il

Azərbaycan Xalq Cümhuriyyəti – 100

2018-ci il may ayının 28-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın İstiqlaliyyət küçəsində ucaldılmış abidəni milli bayram – Respublika Günü münasibətilə ziyarət edib.



Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülüb. Dövlətimizin başçısı abidənin önünə əklil qoyub. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Həmin gün Heydər Əliyev Mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyi münasibətilə rəsmi qəbul təşkil olunub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva rəsmi qəbulda iştirak ediblər. Azərbaycanın Dövlət himni səsləndirilməndən sonra dövlətimizin başçısı rəsmi qəbulda nitq söyləyib.

PREZİDENT İLHAM ƏLİYEVİN NİTQİ

Hörmətli xanımlar və cənablar!

Mən sizi və bütün Azərbaycan xalqını Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi münasibətilə ürəkdən təbrik edirəm!

Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tarixi hadisədir. İlk dəfə olaraq müsəlman aləmində demokratik respublika yaradılmışdır. Biz haqlı olaraq fəxr edirik ki, bu respublikanı Azərbaycan xalqı yaradıbdır. Bu, bir daha onu göstərir ki, Azərbaycan xalqı böyük xalqdır, Azərbaycan xalqı azadlıqsevər, mütərəqqi xalqdır. Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının xatirəsinə böyük hörmətlə yanaşır. Bir neçə il bundan əvvəl mənim Sərəncamımla Bakının mərkəzində Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə abidə ucaldılmışdır. Xalq Cümhuriyyətinin qurucularının adları əbədiləşdirildi. Bu il isə Azərbaycanda "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan olunmuşdur və həm ölkəmizdə, həm də bir çox xarici ölkələrdə bu yubileyi qeyd edərək biz böyük tədbirlər keçirmişik, keçiririk və ilin sonuna qədər bu tədbirlər keçiriləcəkdir.

Bir daha demək istəyirəm ki, biz bu tarixi hadisə ilə haqlı olaraq fəxr edirik. Azərbaycan Xalq Cümhuriyyəti 23 ay ərzində fəaliyyət göstərmişdir. Ancaq bu müddət ərzində böyük işlər görə bilmişdir. Azərbaycanın dövlət bayrağı təsis edilmişdir, Azərbaycan vətəndaşlığı təsis edilmişdir, Milli Ordumuz yaradılmışdır. Gələn ay biz ordumuzun 100 illiyini qeyd edəcəyik. Azərbaycanın Milli Ordusu 1918-ci ilin sentyabrında Qafqaz İslam Ordusu ilə birlikdə Bakını erməni-bolşevik dəstələrindən, işğaldan azad etmişdir və bizim qədim tarixi şəhərimiz olan Bakını Azərbaycan xalqına qaytarmışdır. Xalq Cümhuriyyəti tərəfindən sərhəd dəstəsi yaradılmışdır. Gəncənin tarixi adı qaytarılmışdır. Qısa müddət ərzində 200-dən çox qanun qəbul edilmişdir. Əlbəttə ki, onların arasında qadınlara səsvermə hüququnun verilməsi qanunu xüsusi yer tutur. Bakı Dövlət Universiteti yaradılmışdır və bu, onu göstərir ki, Azərbaycan Xalq Cümhuriyyəti kadrların yetişdirilməsi işində, təhsilin inkişafında böyük işlər görmək əzmində idi. Azərbaycan dili – ana dili bütün təhsil müəssisələrində qəbul edilmişdir.

Bir sözlə, görülmüş işlər çox idi. Xalq Cümhuriyyətinin niyyəti ondan ibarət idi ki, güclü dövlət yaratsınlar və Azərbaycan xalqı azadlıq, əmin-amanlıq şəraitində yaşaya bilsin. Əfsuslar olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, 23 aydan sonra respublika süqut etdi. Bu, bizim böyük faciəmizdir. Mən tam əminəm ki, əgər 1920-ci ildə müstəqillik əldən verilməsəydi, bu gün Azərbaycan dünyanın ən zəngin və ən inkişaf etmiş ölkələrinin sırasında ola bilərdi. Çünki bizim təbii ehtiyatlarımız, coğrafi yerləşməyimiz imkan verirdi ki, bu təbii resurslardan biz səmərəli şəkildə istifadə edək. XIX əsrin ikinci yarısında – XX əsrin əvvəllərində dünya neft hasilatının böyük hissəsi məhz Azərbaycanda, Bakıda təmin edilmişdir.

Əfsuslar olsun ki, biz müstəqilliyi itirdik. Bu, bir daha onu göstərir ki, müstəqilliyi qoruyub saxlamaq onu əldə etməkdən daha çətin işdir. 1918-ci ildə qaldırılmış bayraq 1920-ci ildə endirildi və onu bir də o tarixdən 70 il sonra Naxçıvanda, Naxçıvanın Ali Məclisinin sessiyasında Ulu Öndər Heydər Əliyev qaldırmışdır. Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı dövlət bayrağı kimi Naxçıvan Ali Məclisinin sessiyasında qəbul edilmişdir.

XX əsrdə Azərbaycan iki dəfə müstəqilliyə qovuşmuşdur, ikinci dəfə 1991-ci ildə. Bu da tarixi şans idi və Sovet İttifaqının dağılması nəticəsində Azərbaycan ikinci dəfə müstəqil ölkə kimi yaşamağa başlamışdır. Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illəri ölkəmiz üçün faciəli, çox ağır illər kimi tarixdə qaldı. Əfsuslar olsun ki, Azərbaycan rəhbərliyində olan qüvvələr 1991-1993-cü illərdə ölkəmizi lazımi səviyyədə idarə edə bilməmişlər. Onların üzərinə düşən yüksək məsuliyyəti dərk etməmişlər və gənc müstəqil dövləti, demək olar ki, idarəolunmaz vəziyyətə salmışdılar. 1991-1993-cü illərdə Azərbaycanda yaşanan xoşagəlməz hadisələr, hallar ölkəmizin müstəqilliyini sual altına qoymuşdur. Xüsusilə 1992-ci ildə AXC-Müsavat cütlüyünün dövlət çevrilişindən, hakimiyyətin güc yolu ilə zəbt edilməsindən sonra vəziyyət daha da ağırlaşdı. Ölkəmizdə xaos, anarxiya, özbaşınalıq hökm sürürdü. AXC-Müsavat hakimiyyəti talançılıqla məşğul idi. Torpaqlarımız işğal altına düşmüşdür və bununla bağlı çoxsaylı qaçqınlar-köçkünlər yaranmışdır. AXC-Müsavat hakimiyyəti qardaş qanı axıtdı, vətəndaş müharibəsinə start verdi və bu, xalqımızın böyük faciəsi idi.

Bir sözlə, o illər bizim tariximizdə qara ləkədir, rüsvayçılıq illəridir. Azərbaycan xalqı cəmi bir il o antimilli hakimiyyətə dözə bildi və bir ildən sonra o hakimiyyəti tarixin arxivinə göndərdi. Azərbaycan xalqı öz liderinə – Heydər Əliyevə müraciət etmişdir, onu hakimiyyətə dəvət etmişdir və nə qədər müdrik xalq olduğunu bir daha sübut etmişdir. Heydər Əliyevin hakimiyyətə dəvət edilməsinin bir çox səbəbləri var idi. İlk növbədə onun Azərbaycanın rəhbəri kimi 1970-1980-ci illərin əvvəllərində gördüyü işlər, Azərbaycanın inkişafı, quruculuq və abadlıq işləri xalqın yaddaşında əziz xatirə kimi qalmışdır. Məhz onun rəhbərliyi ilə 1970-ci illərdə Azərbaycan sovet məkanında ən geridə qalmış yerdən ən qabaqcıl yerə yüksəlmişdir. Digər səbəblər ondan ibarətdir ki, Heydər Əliyev xalqımız üçün ən ağır məqamlarda daim xalqla birlikdə olmuşdur, böyük müdriklik, cəsarət göstərmişdir. Qanlı Yanvar faciəsindən dərhal sonra – 1990-cı il yanvarın 21-də Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gələrək sovet hakimiyyətini, Kommunist Partiyasını törətdiyi cinayətə görə pisləmişdir, tənqid etmişdir, o qanlı faciəni qınamışdır, Azərbaycan xalqının ağrılarını bütün dünyaya çatdırmışdır. O vaxt AXC-Müsavat təşkilatı, demək olar ki, qorxudan görünmürdü, gizlənmişdir, fərarilik etmişdir. Heydər Əliyev təkbaşına, özü də Sovet İttifaqının mərkəzində öz haqq səsini ucaltmış, xalqla həmrəyliyini göstərmiş və bu faciəni bütün dünyaya çatdırmışdır. Azərbaycan xalqı, əlbəttə ki, bu tarixi yaxşı bilir. Naxçıvanda fəaliyyət göstərdiyi dövrdə Ulu Öndər Naxçıvanı erməni işğalından qoruya bilmişdir, o da çox çətin vəzifə idi. Naxçıvan düşmənin əhatəsində idi və orada

özünümüdafiə qrupları təşkil edilmiş və düşmənə layiqli cavab verilmiş, düşmən yerinə oturdulmuşdur.

Qeyd etdiyim kimi, Azərbaycan Xalq Cümhuriyyətinin dövlət bayrağını ilk dəfə olaraq Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin sessiyasında dövlət bayrağı kimi məhz Heydər Əliyev təsdiq etmişdir. Sovet İttifaqının saxlanmasına dair referendumun Naxçıvanda keçirilməsinə imkan verməmişdir, baxmayaraq ki, Azərbaycanın bütün başqa yerlərində bu referendum keçirilmişdir. Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirmiş və "Sovet Sosialist" sözlərini oradan çıxarmışdır. Yəni, əlbəttə, xalq yaxşı bilirdi ki, Heydər Əliyev güclü liderdir, Vətənə bağlı olan insandır və məhz belə bir insan Azərbaycana rəhbərlik etməlidir.

1993-cü il tariximizdə dönüş nöqtəsi olmuşdur. Əslində, bizim müstəqil tariximiz o ildən başlamışdır. Çünki 1991-1993-cü illərdə müstəqillik formal, şərti xarakter daşıyırdı. Azərbaycan, demək olar ki, xaricdən idarə olunurdu. Biz hamımız bunu yaxşı bilirik. Ona görə Azərbaycan xalqı haqlı olaraq Heydər Əliyevi Azərbaycanın dövlət müstəqilliyinin banisi, Azərbaycan dövlətinin qurucusu kimi tanıyır və bu, tarixi həqiqətdir.

Bu çətin şəraitdə Heydər Əliyev Azərbaycanı o ağır vəziyyətdən çıxara bilmişdir, inkişaf yoluna qoya bilmişdir. 1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir. İqtisadi sahədə liberallaşma siyasəti aparılmağa başlamışdır və bazar iqtisadiyyatına keçid məhz Heydər Əliyevin təşəbbüsü ilə baş vermişdir.

Beynəlxalq təcridə son qoyulmuş, Azərbaycan dünyanın aparıcı ölkələri ilə konstruktiv münasibətlər qura bilmişdir. Qonşu dövlətlərlə münasibətlər normallaşdı. Çünki bu, bir absurd vəziyyət idi ki, 1993-cü ilə qədər Azərbaycan, demək olar, bütün qonşu dövlətlərlə çox gərgin münasibətlər şəraitində yaşayırdı. Qonşu dövlətlərlə, böyük dövlətlərlə münasibətlərin qurulması Heydər Əliyevin tarixi xidmətlərindən biridir. Ciddi iqtisadi islahatların nəticəsi olaraq Azərbaycana böyük sərmayə axını müşahidə edilməyə başlamışdır. "Əsrin kontraktı" imzalanmışdır ki, bu, iqtisadi müstəqilliyimizi şərtləndirən əsas amil olmuşdur. Hamımız yaxşı bilirik ki, iqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Ordu quruculuğunda böyük addımlar atılmışdır. Azərbaycanda nizami ordu yaradıldı. Bir sözlə, 1993-cü ildən başlayaraq Azərbaycan inkişaf yolu ilə inamla gedir və bu gün bu inkişaf davam edir.

2003-cü ildən sonra Azərbaycanın dinamik inkişafı təmin edilmişdir. Biz güclü, qüdrətli dövlət qura bilmişik. Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparan ölkədir. Bu gün dünya xəritəsində belə ölkələrin sayı o qədər də çox deyil. Xüsusilə biz ərazisi, əhalisi o qədər də böyük olmayan ölkələrə fikir versək görərik ki, müstəqil siyasət aparmaq iqtidarında olan ölkələr o qədər də çox deyil. Biz tam müstəqil siyasət aparırıq. Bizim siyasətimiz milli

maraqlar üzərində qurulubdur. Azərbaycan xalqının maraqları bizim siyasətimizin mənbəyidir, onun əsasıdır. Kənardan bizim siyasətimizə təsiretmə imkanları sıfıra bərabərdir. Bunu yaxın tarix göstərib. İndi deyə bilərəm ki, belə cəhdlər də yoxdur. Ona görə ki, biz prinsipial siyasət aparırıq. Bu siyasət Azərbaycan xalqı tərəfindən dəstəklənir və müdafiə olunur. Xalq-iqtidar vəhdəti bizim uğurlarımızın əsas səbəbidir.

Azərbaycan bu gün beynəlxalq arenada öz mövqelərini gücləndirir, beynəlxalq aləmdə çox böyük nüfuza malik olan bir ölkədir. Bizimlə əməkdaşlıq edən ölkələrin sayı getdikcə artır. Biz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik etmişik. Gələn il biz BMT-dən sonra ikinci böyük təşkilata – Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacağıq. Biz bütün digər aparıcı beynəlxalq təşkilatlarla çox sıx əməkdaşlıq edirik. Bəzi təşkilatların üzvüyük, bəzi təşkilatlarla əməkdaşlıq çərçivəsində fəaliyyət göstəririk. Dünya birliyi Azərbaycana böyük hörmətlə, böyük rəğbətlə yanaşır. Bu gün dünyanın siyasi xəritəsində Azərbaycanın yeri çox möhkəmdir.

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı son illər ərzində apardığımız işlər münaqişənin həlli üçün hüquqi bazanı daha da genişləndirmişdir. BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi və ATƏT-in qərarları, əlbəttə, bu hüquqi bazanın əsasını təşkil edir. Həmçinin 2003-cü ildən bu günə qədər digər beynəlxalq təşkilatlar oxşar qərar və qətnamələr qəbul etmişlər. Onların arasında Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Parlamenti, Avropa Şurası Parlament Assambleyası, GUAM, ECO və digər təşkilatlar var. Bu, münaqişənin həlli üçün hüquqi bazanın yaradılması deməkdir. Biz münaqişənin həlli üçün iqtisadi zəmin də yaratmışıq, güclü ordu formalaşdırmışıq. Görülən kompleks tədbirlər nəticəsində Azərbaycan bu məsələ ilə bağlı siyasi və diplomatik üstünlüyü tam təmin edibdir. Məhz bunun nəticəsidir ki, nə qədər dünya erməniliyi çalışsa da, heç bir dövlət qanunsuz Dağlıq Qarabağ rejimini tanımayıb.

Biz yaxşı bilirik ki, bu gün beynəlxalq hüququn normaları bir çox hallarda pozulur, işləmir. Güc amili ön plana çıxır və bu, reallıqdır. Ona görə dünya birliyinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi dəstəkləməsi böyük nailiyyətimizdir. Hesab edirəm ki, beynəlxalq hüququn normalarından başqa, burada güclü Azərbaycan amili dayanır. Biz güclü dövlət qura bilmişik. Bir daha demək istəyirəm ki, bizimlə əməkdaşlıq edən və etmək istəyən ölkələrin sayı artır. Bizə hörmət artır, bizim işimizə göstərilən rəğbət göz qabağındadır. Belə bir vəziyyətdə heç bir ölkə qanunsuz rejimlə heç bir əlaqə qura bilməz və biz buna heç vaxt imkan verməyəcəyik. Biz heç vaxt imkan verməyəcəyik ki, tarixi torpağımızda ikinci erməni dövləti yaradılsın. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllinin bir yolu var, o da Azərbaycanın beynəlxalq birlik tərəfindən tanınan ərazi bütövlüyünün bərpasıdır.

Biz güclü ordu yaratmışıq. 1918-ci ildə Azərbaycan Ordusunun yaradılması haqqında qərar veriləndə, yəqin ki, Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları heç təsəvvür edə bilməzdilər ki, bu gün Azərbaycan Ordusu dünya-

nın ən güclü 50 ordusu sırasında olacaq. Bizim ordumuzun həm maddi-texniki təchizatı, həm də döyüş qabiliyyəti ən yüksək səviyyədədir. Biz bunu döyüş meydanında sübut edə bilmişik. Azərbaycan Ordusu işğal altında olan torpaqların bir hissəsini iki il bundan əvvəl işğalçılardan azad etmişdir. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi. Azad edilmiş o torpaqlara Azərbaycan vətəndaşları qayıtmışlar. O torpaqlara həyat qayıtmışdır və bunu Azərbaycan dövləti etdi, Azərbaycan Ordusu etdi.

Güclü ordu müstəqilliyimizin əsasıdır, təhlükəsizliyimizin qarantıdır. Azərbaycanda təhlükəsizlik tam təmin edilibdir. Azərbaycan bu gün müstəqil ölkə kimi dünya miqyasında ən sabit ölkələrdən biridir. Biz güclü iqtisadiyyat yaratmışıq. Biz təbii resurslarımızdan çox böyük səmərə ilə istifadə etmişik və iqtisadi müstəqillik siyasi müstəqilliyimizin əsas amilidir. İqtisadi müstəqillik olmadan siyasi müstəqillikdən söhbət gedə bilməz. Güclü iqtisadi əsaslar gələcəkdə də imkan verəcək ki, Azərbaycan heç kimdən asılı olmayaraq uğurla inkişaf etsin.

Son 15 il ərzində iqtisadi inkişafımız dünya miqyasında rekord səviyyədədir – Azərbaycan iqtisadiyyatı 3,2 dəfə artmışdır və bu, dünya miqyasında analoqu olmayan inkişafdır. Biz böyük valyuta ehtiyatlarımızı yaratmışıq. Bizim valyuta ehtiyatlarımız ümumi daxili məhsulumuza bərabər səviyyədədir. Bizim xarici borcumuz o səviyyədədir ki, ehtiyatlarımız xarici borcumuzu 4-5 dəfə üstələyir. Yəni əgər dünyanın iqtisadi xəritəsinə baxsaq görərik ki, belə göstəricilər çox nadir hallarda baş verir. Bunu biz özümüz yaratmışıq, heç bir yerdən kömək, yardım almadan, düşünülmüş siyasət, atılan düzgün addımlar nəticəsində. Bu gün Azərbaycan iqtisadi cəhətdən tam müstəqil dövlətdir, heç kimdən asılı deyil və məhz buna görə də inamla öz müstəqil siyasətini aparır.

Bizim iqtisadi uğurlarımız mötəbər beynəlxalq iqtisadi qurumlar tərəfindən də yüksək qiymətləndirilir. Rəqabətqabiliyyətliliyə görə Azərbaycan dünya miqyasında 35-ci yerdədir, inkişafda olan ölkələr arasında inkişafa görə üçüncü yerdədir. Bunu biz demirik, bunu dünyanın birinci iqtisadi forumu olan Davos İqtisadi Forumu deyir.

Yəni bu güclü iqtisadiyyat imkan verir ki, biz Azərbaycanda istənilən sosial layihəni, infrastruktur layihələrini icra edək və edirik. Azərbaycan sosial dövlətdir. Sosial sahəyə ayrılan diqqət imkan verir ki, bir çox sosial problemlər öz həllini tapsın, o cümlədən sosial infrastrukturla bağlı olan layihələr. Son 15 il ərzində 3 mindən çox məktəb, 600-dən çox tibb ocağı, 40-dan çox olimpiya mərkəzi tikilib. Bütün bunların təməlində həm bizim siyasətimiz, həm də iqtisadi gücümüz dayanır. Biz təbii resurslarımızı – nefti insan kapitalına çevirmişik. Bu istiqamətdə işlər davam edir və davam edəcəkdir. Biz ölkəmizin müstəqilliyini gücləndirən güclü infrastruktur yaratmışıq. O infrastruktur ki, bundan sonra onilliklər ərzində Azərbaycan xalqına xidmət edəcək. Demək olar ki, bütün əsas infrastruktur layihələrini sıfırdan yaratmışıq.

Biz dənizləri neft-qaz kəmərləri ilə birləşdirdik. Tarixdə ilk dəfə olaraq Xəzər dənizi Qara dənizlə, Aralıq dənizi ilə neft kəmərləri vasitəsilə birləşdi.

Bizim təşəbbüsümüzlə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Supsa neft və qaz kəmərləri inşa edildi.

Enerji təhlükəsizliyi baxımından Azərbaycan nəinki regionda, dünya miqyasında önəmli ölkəyə çevrildi. Hazırda Cənub Qaz Dəhlizinin icrası ilə bağlı böyük işlər görülür və sabah Cənub Qaz Dəhlizinin rəsmi açılışı olacaqdır. Bu da böyük tarixi qələbəmizdir.

Biz nəqliyyat infrastrukturunu yaratmaqla qitələri birləşdirdik. Açıq dənizlərə çıxışı olmayan Azərbaycan bu gün dünyanın nəqliyyat mərkəzlərindən birinə çevrilir. Təşəbbüskarı olduğumuz Bakı-Tbilisi-Qars dəmir yolu, nəqliyyat infrastrukturu ilə bağlı digər layihələr, Xəzərin ən böyük limanı olan Ələt Limanının işə düşməsi, "Şimal-Cənub" nəqliyyat dəhlizinin yaradılması istiqamətində atılmış addımlar bir məqsədi güdür ki, Azərbaycanı dünyanın nəqliyyat mərkəzlərindən birinə çevirək. Bu istiqamətdə böyük işlər görüldü. Bu, müstəqilliyi gücləndirən amildir. Bu, qeyri-neft sektorunu inkişaf etdirən amildir. Biz bu məsələ ilə bağlı çox ciddi məşğuluq. Gec-tez bizim təbii resurslarımız tükənəcək. Baxmayaraq ki, "Azəri-Çıraq-Günəşli" kontraktının müddəti 2050-ci ilə qədər uzadıldı. Ən azı o vaxta qədər bu kontrakt qüvvədə olacaq. Mən tam əminəm ki, 2050-ci ildən sonra da kifayət qədər neft ehtiyatları "Azəri-Çıraq-Günəşli"də qalacaq.

O ki qaldı bizim təbii qaz resurslarımıza, bu resurslar ən azı 100 il bundan sonra bizə və bizdən bu əməkdaşlıq nəticəsində faydalanan ölkələrə kifayət edəcəkdir. Amma buna baxmayaraq, biz yenə də qabağa baxmalıyıq. Biz ölkəmizin uzunmüddətli, dayanıqlı inkişaf strategiyasını təmin etməliyik. Bu məsələ ilə bağlı bizim çox aydın fikirlərimiz, baxışlarımız var.

Hesab edirəm ki, müstəqil dövlət kimi Azərbaycan humanitar sahədə tarixi nailiyyətlərə imza atdı. Bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri kimi tanınır. O şəraitdə ki, bu yanaşmaya indi dünyada o qədər də isti münasibət göstərilmir. Ancaq buna baxmayaraq, biz öz yolumuzla gedirik. Tam əminik ki, biz düzgün yoldayıq. Çünki bizim nümunəmiz, bizim gördüyümüz işlər dinlərarası, millətlərarası dialoqun güclənməsinə gətirib çıxarır və nəticə etibarilə sabitliyə, təhlükəsizliyə xidmət göstərir.

Heç kim təsəvvür edə bilməzdi ki, Azərbaycan idman sahəsində dünyanın aparıcı ölkələrinin sırasında olacaqdır. Biz buna nail ola bilmişik. Sovet dövründə əgər bizim hansısa bir idmançımız Avropa, ya dünya çempionatında yüksək yer tuturdusa, biz bunu böyük bir tarixi hadisə kimi qəbul edirdik. Bu gün bizim idmançılarımız Avropa, dünya çempionatlarında, Olimpiya oyunlarında yüzlərlə medal qazanmışlar. Son Olimpiya oyunlarında medalların sayına görə Azərbaycan dünya miqyasında 14-cü yerdədir. Təsəvvür edin, 200-ə yaxın ölkənin iştirak etdiyi bu Oyunlarda 14-cü olmaq nə qədər böyük nailiyyətdir. Bu, nəyin nəticəsidir? Görülən işlərin, aparılan düzgün siyasətin, xalqımızın istedadının, xalqla iqtidar arasında birliyin nəticəsidir. Bu gün hansı sahəyə baxsan, inkişaf var, tərəqqi var və gələcək dinamik inkişaf üçün aydın baxışlar var. Bu gün müstəqil Azərbaycan hər bir Azərbaycan vətəndaşı üçün qürur mənbəyidir. Biz Azərbaycan Xalq Cümhuriyyətinin qurucularının arzularını

reallığa çevirdik. Biz elə bir dövlət qurduq ki, əminəm, hər bir Azərbaycan vətəndaşı, hər bir azərbaycanlı bu dövlətlə fəxr edir. Mən tam əminəm ki, əgər Azərbaycan Xalq Cümhuriyyətinin qurucuları bugünkü Azərbaycanı görə bilsəydilər, onlar da ölkəmizlə fəxr edərdilər.

Azərbaycanın zəngin təbii resursları vardır və baxmayaraq ki, onların böyük hissəsi tükənib, ancaq yenə də var. Azərbaycan o diyardır ki, dünyada ilk dəfə sənaye üsulu ilə neft 1846-cı ildə məhz Azərbaycanda hasil edilmişdir. O hadisəni əks etdirən abidə də qoyulub. O vaxt dünya neftinin böyük hissəsini onilliklər ərzində Azərbaycan təmin edirdi. Ancaq Azərbaycan xalqı bu təbii resurslardan faydalana bilibmi? Yox. Baxın, biz hansı vəziyyətdə idik. Biz bu gün Xalq Cümhuriyyətinin 100 illiyini qeyd edirik. Baxın, o vaxta qədər və o vaxt bizim ölkəmiz hansı vəziyyətdə idi. Yoxsulluq, səfalət, savadsızlıq, tamamilə dağılmış tarixi şəhərlərimiz. Nəyə görə? Çünki Azərbaycan müstəqil deyildi. Sovet dövründə, İkinci Dünya müharibəsi zamanı Azərbaycan nefti olmasaydı, Sovet İttifaqı faşizm üzərində Qələbəni əldə edə bilməzdi. Bunu hamı bilməlidir. Biz Qələbəyə həlledici töhfə vermişik. O vaxt Azərbaycan xalqı, Azərbaycan zəhmətkeşləri, neftçiləri, Azərbaycan nefti ümumittifaq büdcəsinə xidmət göstərirdi. Heydər Əliyev 1969-cu ildə Azərbaycanda rəhbərliyə gəlməyənə qədər Azərbaycan bütün bu sərvətlərə baxmayaraq, Sovet İttifaqında ən axırıncı yerdə idi. Nəyə görə? Çünki müstəqil deyildik. Taleyimiz əlimizdə deyildi.

1970-ci illərdə Heydər Əliyevin yorulmaz səyləri nəticəsində Azərbaycan çox böyük dərəcədə inkişaf etmişdir. Ancaq yenə də müstəqil deyildi. Müstəqilliyin ilk illərində xalqımızın başına gələn bəlalar, işğal, vətəndaş müharibəsi, AXC-Müsavat cütlüyünün yarıtmaz fəaliyyəti, demək olar ki, ölkəmizi məhv etmişdi. Ancaq biz dirçəldik. Nəyə görə? Məhz müstəqilliyə görə. Ona görə ki, bizim taleyimiz indi bizim əlimizdədir. Bizim gələcəyimiz etibarlı əllərdədir.

Bugünkü Azərbaycan bir daha göstərir ki, müstəqillik ən böyük sərvətimizdir. Bu, həqiqətən də belədir. Müstəqillik ən böyük sərvətimizdir, ən böyük nemətimizdir, ən böyük xoşbəxtliyimizdir! Azərbaycanın müstəqilliyi əbədidir!

Qafqaz Müsəlmanları İdarəsində iftar mərasimi

İyunun 6-da Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə müqəddəs Ramazan ayı münasibətilə öz iqamətgahında iftar süfrəsi açıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iftar mərasimində iştirak edib. İftar mərasimi "Qurani-Kərim"dən ayələrin və Ramazan duasının oxunması ilə başlayıb.



Mərasimi açan Şeyxülislam Allahşükür Paşazadə Prezident İlham Əliyevi bu ilin aprelində keçirilən prezident seçkilərində qalib gəlməsi münasibətilə Azərbaycan xalqı və dindarlar adından bir daha təbrik edib, ona ən xoş arzularını çatdırıb. Şeyx daha sonra deyib: "Biz Zati-alinizin qlobal ideyalarının təbliği məramı ilə dünyanın bir çox ölkələrində keçirdiyimiz beynəlxalq əhəmiyyətli tədbirlərdə müəllifi olduğunuz multikulturalizm və İslam həmrəyliyi ideyalarının qazandığı böyük dəstək və etimadın bilavasitə şahidi oluruq".

Şeyxülislam bildirib ki, bu gün Azərbaycan dünyada qlobal ideyalar mərkəzi kimi tanınır: "Zati-alinizin müəllifi olduğu Bakı prosesi bu gün daha böyük önəm kəsb edir. Təşəbbüskarı olduğunuz "İslam Həmrəyliyi İli"nin yekunlarına dair 40-dan artıq ölkənin, 8 beynəlxalq təşkilatın nümayəndələrinin iştirak etdiyi möhtəşəm Bakı konfransında Azərbaycanın nümunəvi rolu yüksək qiymətləndirildi. Zati-alinizin dəstəyi, dünyanın nüfuzlu müsəlman və qeyri-müsəlman dini liderlərinin xeyir-duaları ilə Qafqaz Müsəlmanları İdarəsi yanında daimi fəaliyyət göstərəcək Bakı Beynəlxalq Dinlər və Sivilizasiyalararası Əməkdaşlıq

Mərkəzinin yaradılması Sizin bəşəri ideyalarınızın aktuallığının parlaq təzahürüdür.

Möhtərəm cənab Prezident, elan etdiyiniz Multikulturalizm və İslam Həmrəyliyi illəri çərçivəsində biz Türkiyədə, İranda, İsveçdə, Rusiyada, Böyük Britaniyada, İspaniyada, Finlandiyada və Özbəkistanda keçirdiyimiz mötəbər beynəlxalq tədbirlərdə ölkəmizdəki dinlərarası dialoq və əməkdaşlığın nümunəvi modelini təqdim etmişik. Yeni yaranmış Mərkəzin xətti ilə bu il ərzində ölkəmizdə və bir sıra Avropa dövlətlərində, o cümlədən Almaniyada, İspaniyada mötəbər beynəlxalq tədbirlərin keçirilməsi istiqamətində hazırlıq işləri gedir.

Qafqaz Müsəlmanları İdarəsi olaraq ölkənin daxilində və xaricində Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Azərbaycan Milli Elmlər Akademiyası, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Milli Məclisin deputatları, ölkəmizdəki dini konfessiyaların rəhbərləri və ictimaiyyət nümayəndələri ilə birlikdə həyata keçirdiyimiz işlərlə Zati-alinizin ideyalarını, Azərbaycanın multikultural həyat tərzini dünya ictimaiyyətinin diqqətinə çatdırırıq. Zati-aliləri, Sizin din-dövlət münasibətlərinin inkişafına dair tövsiyələriniz, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə birgə əməkdaşlığımız bu gün öz bəhrəsini verməkdədir".

Şeyxülislam Allahşükür Paşazadə Qüdsə dair İstanbul Sammitində Azərbaycan Prezidenti İlham Əliyevin dünya müsəlmanlarının rəğbətini qazanmış qətiyyətli mövqeyindən, Azərbaycanda Xalq Cümhuriyyətinin yaranmasının 100 illiyinin dövlət səviyyəsində bayram edilməsindən də söz açıb: "Unutmayaq ki, Xalq Cümhuriyyətinin qaldırdığı üçrəngli bayrağı yenidən Azərbaycan üzərində – 2018-ci ildə İslam mədəniyyətinin paytaxtı seçilən Naxçıvanda – ucaldan məhz Ulu Öndərimiz Heydər Əliyev olub. Allah-təala Heydər Əliyevə, validəniz Zərifə xanıma və cəmi Vətən şəhidlərinə rəhmət eləsin. Bu mübarək günlərdə Sizə və dəyərli ailənizə səadət və yeni uğurlar diləyirəm".

Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein çıxışında Azərbaycanın çoxmillətli və buna görə də çoxkonfessiyalı dövlət olmasına diqqət çəkərək, bunu ölkəmizin daxili həyatının spesifikası adlandırıb. O xatırladıb ki, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu amili "Çoxmillətlilik bizim sərvətimizdir" kimi qiymətləndirirdi: "Çox hörmətli cənab Prezident, Siz əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş təməl üzərində hazırda "Multikulturalizmin Azərbaycan modeli" adlanan gözəl bir bina ucaltmısınız. Siz, milli mənsubiyyətindən və dini etiqadından asılı olmayaraq bütün vətəndaşların Prezidenti kimi, bütün dindar insanların ehtiyaclarına, onların mənəvi dəyərlərinə, o cümlədən məbədlərə, Allah evlərinə yüksək qayğı göstərirsiniz. Azərbaycanın dövlət siyasəti olan multikulturalizm qlobal səviyyədə ümumbəşəri dəyərləri müdafiə edir. Dünya dindarları bunu yüksək qiymətləndirirlər.

Zati-müqəddəsləri Patriarx Kirill bütün postsovet məkanında çoxkonfessiyalı və çoxmillətli cəmiyyətin, qarşılıqlı hörmət, mehriban qonşuluq və həmrəylik ənənələrinin qorunub saxlanması işində bu ideyaların əhəmiyyətini

xüsusi vurğulayır. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rus Pravoslav Kilsəsinin ali mükafatı – Müqəddəs Mələksima Knyaginya Olqa ordeni ilə təltif edilməsi bu cür səylərin yüksək qiymətləndirilməsinə nümunə oldu.



Biz Rus Pravoslav kilsəsi olaraq Zati-alinizin elan etdiyi "Multikulturalizm İli" və "İslam Həmrəyliyi İli" çərçivəsində dünyanın müxtəlif guşələrində keçirilən bütün beynəlxalq forumlarda, konfranslarda fəal iştirak etmişik və Azərbaycanın multikultural həyatının gerçəkliyini qürurla təqdim etmişik".

Azərbaycandakı Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev mənsub olduğu dini icma adından hamını salamlayıb və müqəddəs Ramazan bayramı münasibətilə səmimi qəlbdən təbrik edib: "Allah-təala bizim dövlətimizi, Vətənimizi qorusun. Möhtərəm Prezident, Siz bütün dünyaya bəyan etdiniz ki, dini və mədəni müxtəlifliyin harmoniyasına əsaslanan cəmiyyət yaratmaq mümkündür və o, yaşamağa qadirdir. Belə bir cəmiyyət Azərbaycan Respublikasıdır.



Azərbaycanda yəhudilər əsrlər boyu bu xalqla qardaşlaşmış, dinc və əmin-amanlıq şəraitində yaşamışlar. Biz də daima Azərbaycanın ictimai-siyasi həyatında fəal iştirak etmişik".



Katolik Kilsəsinin Azərbaycandakı yepiskopu Vladimir Fekete çıxışı zamanı deyib: "Çox şadam ki, bu il biz müqəddəs Ramazan ayı münasibətilə bir yerə toplaşmışıq. Bu müqəddəs ayda görüşümüz bizim dinlərarası əməkdaşlığımızın qənaətbəxş səviyyədə olduğunu təsdiq etmək üçün gözəl bir fürsətdir.

Hörmətli cənab Prezident, Siz, əsası Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən qoyulmuş müdrik dini tolerantlıq siyasətinin davam etdirilməsinin qarantısınız. Azərbaycan katolikləri adından Sizə dərin ehtiramımızı və minnətdarlığımızı bildirmək istəyirəm.

Zati-müqəddəsləri Papa Fransisk cənab Prezident İlham Əliyev tərəfindən "Multikulturalizm İli" elan edilmiş 2016-cı ildə Azərbaycanda səfərdə olarkən bütün dünyada multikulturalizm ideyalarının təbliğində Azərbaycanın rolunu yüksək qiymətləndirib. Papa Fransiskin həmin tarixi səfər zamanı söylədiyi "Biz hamımız qardaşıq" kəlamı bütün dünyaya bir ismarıc oldu ki, Azərbaycan ta qədimdən Şərq ilə Qərb arasında körpü rolu oynayır, multikulturalizm isə Azərbaycan xalqının ənənəvi həyat tərzidir".

Daha sonra Prezident İlham Əliyev mərasimdə nitq söyləyib. Dövlət başçısı bildirib: "Hər il olduğu kimi, biz bu il də mübarək Ramazan ayında iftar məclisində görüşürük. Bu gözəl ənənə yaşayır və yaşamalıdır. Bu, Azərbaycanda dövlət-din əlaqələrinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Dövlət-din münasibətlərinin formalaşmasının təşəbbüskarı Ulu Öndər Heydər Əliyev olmuşdur. O, hakimiyyətə gələnə qədər Azərbaycanda bu münasibətlər tənzimlənmirdi və böyük boşluq yaranmışdı. Biz keçən ay Ulu Öndərin anadan olmasının 95-ci ildönümünü qeyd edərkən, əziz xatirəsinə hörmətimizi ifadə edərkən, onun xalq qarşısında gördüyü böyük xidmətlər haqqında danışmışıq, onun fəaliyyətini yada salmışıq. Bu gün də şeyx həzrətlərinin təşkil etdiyi



iftar məclisində Ulu Öndərin dövlət-din münasibətlərinin tənzimlənməsində gördüyü işlər və oynadığı rol haqqında danışırıq və bu, təbiidir.

Dövlət-din münasibətlərinin inkişafı şeyx həzrətlərinin böyük əməyi sayəsində mümkün olmuşdur və bu gün bu əlaqələr nümunəvidir. Şeyx həzrətləri nəinki Azərbaycanda, eyni zamanda, Qafqazda, postsovet məkanında, Avropada, ümumiyyətlə, dünyada çox böyük hörmətə malik olan bir din xadimidir. Şeyx həzrətlərinin uğurlu fəaliyyəti Azərbaycanı dünyada öz milli dəyərlərinə sadiq, eyni zamanda, çox açıq, çox tolerant müasir dövlət kimi təqdim edir. Mən bilirəm ki, keçən il Azərbaycanda "İslam Həmrəyliyi İli" qeyd olunan zaman şeyx həzrətləri bir çox ölkələrdə Azərbaycan həqiqətləri haqqında beynəlxalq konfranslarda çıxış etmiş və ölkəmizin reallıqlarını dünya ictimaiyyətinə çatdırmışdır".

Prezident İlham Əliyev vurğulayıb ki, Azərbaycanda bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır: "Bugünkü iftar məclisimizdə səslənən fikirlər, ənənəvi dinlərin rəhbərlərinin çıxışları bir daha bunu göstərir. Azərbaycanda həm dövlət-din əlaqələri, həm də dinlərarası əlaqələr nümunəvi xarakter daşıyır. Bilirəm ki, bu məsələlərlə bağlı Azərbaycan modeli bu gün artıq dünyada bir çox yerlərdə öyrənilir. Bu, bizim uğurlu inkişafımız üçün lazımdır. Bu, dövlət siyasətimizin təzahürüdür. Eyni zamanda, bu, cəmiyyətimizin vəziyyətini, cəmiyyətdə mövcud olan ab-havanı əks etdirir".

Azərbaycanın dinlərarası, millətlərarası münasibətlərin qurulmasında dünyada nümunəvi ölkə kimi tanındığını bir daha vurğulayan dövlət başçısı deyib: "Biz dünyaya Azərbaycandan çox ciddi və müsbət siqnal göndəririk. Ölkəmizin uğurlu inkişafı üçün bu münasibətlərin yüksək səviyyədə olması çox önəmlidir. Bizim amalımız birdir, bizim niyyətimiz birdir. Biz istəyirik ki, ölkəmiz daha da güclənsin, daha da sürətlə inkişaf etsin. İstəyirik ki, Azərbaycan xalqı daha yaxşı yaşasın, rifah, sülh, əmin-amanlıq şəraitində yaşasın. Nəinki bunu istəyirik, öz praktiki addımlarımızla bunu təmin edirik".

Çıxışında Prezident İlham Əliyev Azərbaycanın müsəlman ölkələri ilə əlaqələrinə də toxunub, bildirib ki, Azərbaycan dünyada İslam mədəniyyətinin

təbliği işində çox fəal və uğurlu rol oynayır: "Biz dünyanın müxtəlif ölkələrində İslam mədəniyyətinin təqdimatı ilə bağlı bir çox tədbirlər keçirmişik, keçiririk və keçirəcəyik. Sərgilər, mədəni proqramlar, təqdimatlar, konfranslar – bütün bu addımlar bir məqsədi güdür ki, dünyaya İslam mədəniyyətini, İslam dəyərlərini olduğu kimi təqdim edək, bəzi hallarda İslam dini ilə bağlı təhrif edilmiş və yanlış fikirlərə qarşı öz səsimizi ucaldaq və real həqiqətləri dünyaya çatdıraq. Bizim bu fəaliyyətimiz bir daha onu göstərir ki, Azərbaycan həm İslam mədəniyyətinin təbliğinə, həm də İslam ölkələri arasındakı həmrəylik meyillərinə çox güclü töhfə verir.

İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanda dini məsələlərin həllinə çox yüksək qiymət verir. İslam Əməkdaşlıq Təşkilatı ölkəmizi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı daim dəstəkləyir. Azərbaycanın haqq səsi dəstəklənir və bu dəstəyə görə biz İslam Əməkdaşlıq Təşkilatına minnətdarıq".

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsindən söz açan Prezident İlham Əliyev bir daha diqqətə çatdırıb ki, bu münaqişə yalnız beynəlxalq norma və prinsiplər əsasında həll olunmalıdır: "Dağlıq Qarabağ bizim tarixi torpağımızdır, biz bunu, bu həqiqətləri bütün dünyaya çatdırırıq. Bir çox elmi əsərlər, kitablar nəşr edilib, bir çox tədbirlər keçirilib. Biz tarixi həqiqətləri çatdırmalıyıq və çatdırırıq. Dağlıq Qarabağın tarixən Azərbaycan xalqına məxsus olması artıq heç kimdə şübhə doğurmur. Hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir, bütün dünya Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Heç bir ölkə Dağlıq Qarabağda mövcud olan kriminal, qondarma rejimi tanımır və əminəm ki, tanımayacaq. Bu amillər, həm tarixi faktlar, həm beynəlxalq hüququn normaları, beynəlxalq təşkilatların qərar və qətnamələri nəinki bizim mövqeyimizi gücləndirir, eyni zamanda, münaqişənin həlli üçün əsas yaradır, hüquqi baza yaradır və biz yorulmaz fəaliyyətimiz nəticəsində buna nail olmuşuq. Əminəm ki, biz ardıcıl siyasət aparmaqla istədiyimizə nail olacağıq, ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyik. Buna mənim şübhəm yoxdur.

Mənim illər ərzində dediyim sözləri indi erməni xalqı deyir. Mən dünyanın ən ali kürsüsündən - BMT kürsüsündən Ermənistanın əvvəlki kriminal rejimini ifşa etmişəm. Onları öz adları ilə çağırmışam. Onları Xocalı soyqırımında ittiham etmişəm, hərbi cinayətlərdə ittiham etmişəm. Ermənistanın əvvəlki hakimiyyətini qaniçən, kriminal, quldur rejim adlandırmışam. Bütün bunlar həqiqətdir. Mən həqiqəti demişəm, indi bu həqiqəti erməni xalqı deyir. Nəhayət, indi erməni xalqı anlayıb ki, onlara 20 il ərzində kriminal xunta rejimi rəhbərlik edib. O kriminal xunta rejimi ki, ancaq öz maraqlarını güdür, o rejim ki, onun yarıtmaz və cinayətkar fəaliyyəti nəticəsində Ermənistan bu acınacaqlı vəziyyətə düşüb. Mən dəfələrlə demişdim ki, Ermənistanda iqtisadi böhran, demoqrafik böhran yaşanır, ölkə boşalır, hər il on minlərlə insan o ölkəni həmişəlik tərk edir, Ermənistanda inkişaf üçün heç bir perspektiv yoxdur. Demişəm ki, Azərbaycan Ermənistanı dalana çevirib, iqtisadi, siyasi, nəqliyyat dalanına çevirib. Nəyə görə? Ona görə ki, Ermənistan torpaqlarımızı işğal edibdir.

İndi bütün bunları erməni xalqı deyib və deyir. Bu, bir daha onu göstərir ki, bu münaqişədə Azərbaycan öz istədiyinə nail olacaq, həqiqəti, ədaləti bərpa edəcək. Ümid edirəm ki, Ermənistanın yeni rəhbərliyi əvvəlki hakimiyyətin səhvlərini təkrarlamayacaq və münaqişənin tezliklə həll olunması üçün ciddi işlər görəcək və imitasiya naminə yox, real danışıqlar prosesinə start veriləcək. Beləliklə, məsələ öz həllini tapa bilər və Qafqaza sülh gələ bilər. Biz bunu istəyirik, biz münaqişənin həllini tələb edirik, bizim buna haqqımız çatır. Ümid edirik ki, bu məsələ danışıqlar yolu ilə tezliklə öz həllini tapa bilər".

Azərbaycanda din dövlətdən ayrı olsa da, dövlətin dindarlara daim dəstək, dayaq olduğunu deyən Prezident İlham Əliyev ölkədə bütün tarixi məscidlərin dövlət tərəfindən əsaslı şəkildə bərpa edildiyini və bu prosesin davamlı xarakter daşıdığını qeyd edib.

Dövlət başçısı xatırladıb ki, bu il prezident seçkilərindən sonra onun getdiyi ilk yer məhz məscid olub: "Bu il Hacı Cavad məscidinin yeni binası tikildi və şeyx həzrətlərinin qeyd etdiyi kimi, prezident seçkilərindən sonra mənim getdiyim birinci yer məhz Hacı Cavad məscidinin yeni binasının açılışı olmuşdur və bu, təsadüfi deyil. Çünki mən oraya seçkilərdən əvvəl də, seçkilərdən bir ay sonra da gedə bilərdim. Məhz seçkilərdən sonra birinci tədbir – yenidən tikilmiş Hacı Cavab məscidinin açılışı, hesab edirəm ki, böyük məna daşıyır. Düşünürəm ki, dindarlar və bütün Azərbaycan vətəndaşları bunu çox gözəl başa düşür".

"Tarixi abidələrimiz, dini abidələrimiz bizim milli sərvətimizdir" deyən Prezident İlham Əliyev əlavə edib ki, bütün başqa dinlərin məbədləri də bizim üçün əzizdir, bizim sərvətimizdir: "Azərbaycanda bütün dinlərin tarixi-dini abidələri qorunur, bərpa edilir, tikilir. Bu, bir daha onu göstərir ki, Azərbaycanda dini siyasət çox düşünülmüş şəkildə aparılır və Azərbaycan xalqının maraqlarına cavab verir".

Çıxışında dövlət başçısı "İslam Həmrəyliyi İli" ərzində keçirilən tədbirlərə toxunub, onların arasında Şeyxülislam Allahşükür Paşazadənin təşkil etdiyi tədbirləri xüsusilə qeyd edib. Prezident İlham Əliyev bildirib ki, Azərbaycan dünya səviyyəsində, mötəbər səviyyədə keçirdiyi bu tədbirlərlə ümumbəşəri dəyərlərə çox böyük töhfə verir: "Mən hesab edirəm ki, bizim bu sahədəki nadir rolumuz böyük qiymətə layiqdir və yüksək qiymətləndirilir. Hesab edirəm ki, biz gələcəkdə bu istiqamətdə öz fəaliyyətimizi davam etdirməliyik. Konfransdan sonra şeyx həzrətləri ilə söhbət əsnasında belə qərara gəldik ki, bu kimi tədbirlər Azərbaycanda ənənəvi olaraq keçirilməlidir. "İslam Həmrəyliyi İli" artıq başa çatıb. Ancaq biz elə etməliyik ki, bu məsələ daim diqqət mərkəzində olsun. Bunu etmək üçün xüsusi tədbirlər planı hazırlanıb və icra ediləcək.

Təsadüfi deyil ki, bizim təşəbbüsümüzlə on il bundan əvvəl başlanan "Bakı Prosesi" dünyada yeganə genişmiqyaslı əməkdaşlıq formatıdır. Bu on il ərzində buna oxşar təşəbbüs heç kim tərəfindən irəli sürülməyib. "Bakı Prosesi" sırf Azərbaycanın təşəbbüsüdür. Bu il biz "Bakı Prosesi"nin on illiyini qeyd edəcəyik. Bu təşəbbüs BMT və digər mötəbər beynəlxalq təşkilatlar tərəfindən dəstəklənir. "Bakı Prosesi" artıq dünya gündəliyinin önəmli hissəsidir və bu

illər ərzində görün biz Azərbaycanda nə qədər böyük tədbirlər keçirmişik – dünya dini liderlərinin zirvə görüşü, BMT Sivilizasiyalar Alyansının Qlobal Forumu, Bakı Humanitar forumları, mədəniyyətlərarası dialoq forumları. Yəni bütün bunları biz ona görə edirik ki, buna böyük ehtiyac var. Biz istəyirik ki, nəinki Azərbaycanda, dünyada dinlərarası münasibətlər yüksək səviyyədə tənzimlənsin".

Azərbaycanı dünyada multikulturalizmin mərkəzi adlandıran Prezident İlham Əliyev deyib: "Bu gün Azərbaycanda dini, milli zəmində heç bir problem, heç bir anlaşılmazlıq yoxdur. Ancaq biz istəyirik ki, dünyada da bu olmasın və bundan sonra da öz töhfəmizi verməyə hazırıq. Bu gün dünyada Azərbaycan multikulturalizmin mərkəzi kimi artıq özünü təsdiqləyib. Bu, həm dövlət siyasətidir, həm cəmiyyətdən gələn sifarişdir. Bu, böyük sərvətdir, xüsusilə indiki zamanda. İndiki şəraitdə biz görürük ki, dünyanın müxtəlif yerlərində dini məzhəb zəminində qan tökülür, müharibələr alovlanır, böyük faciələr yaşanır. Biz, əlbəttə ki, bu sahədə gördüyümüz işləri daha yüksək səviyyəyə qaldırmalı və elə etməliyik ki, həm Azərbaycanda, həm yaşadığımız bölgədə vəziyyət müsbət istiqamətdə inkişaf etsin. Biz adada yaşamırıq, biz bu bölgədə yaşayırıq və yaşayacağıq. Ona görə də biz həm ölkə daxilində bu məsələləri daim diqqət mərkəzində saxlayırıq və hesab edirəm ki, həm də beynəlxalq təşəbbüslərlə bölgədə və dünyada dinlərarası münasibətlərin yüksək səviyyədə tənzimlənməsi işinə öz töhfəmizi veririk".

Prezident İlham Əliyev öz nitqində keçənilki iftar mərasimindən ötən dövr ərzində baş vermiş bir neçə önəmli hadisədən, o cümlədən, Bakı-Tbilisi-Qars dəmir yolunun, Xəzər dənizinin ən böyük ticarət limanının, Cənub Qaz Dəhlizinin açılışından söz açıb, yaxın zamanda Türkiyənin Əskişəhər şəhərində TANAP-ın rəsmi açılışının olacağını xatırladıb və vurğulayıb: "Yəni biz hər il böyük uğurlara imza ataraq ölkəmizi gücləndiririk və möhkəmləndiririk. Əminəm ki, bundan sonra da Azərbaycan inamla və uğurla inkişaf edəcək".

Mərasimin sonunda Şeyxülislam Allahşükür Paşazadə həm öz adından, həm də tədbirdə iştirak edən digər din xadimlərinin, dini konfessiya rəhbərlərinin adından Prezident İlham Əliyevə minnətdarlıq edib.

"HEYDƏR ƏLİYEV: MULTİKULTURALİZM VƏ TOLERANTLIQ İDEOLOGİYASI"

I Beynəlxalq elmi konfrans

Aprelin 9-da Azərbaycan Dillər Universitetinin Yeni Azərbaycan Partiyası və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin dəstəyi ilə təşkil etdiyi, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın açılış mərasimi keçirilib.



Açılış mərasimindən öncə Azərbaycan Dillər Universitetinin (ADU) rektoru akademik Kamal Abdullayev başda olmaqla universtitet rəhbərliyi, konfrans iştirakçıları və qonaqlar universitetin foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə əklil və tər güllər düzüblər. Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

ADU-nun rektoru akademik Kamal Abdullayev Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş konfransın açılış mərasimində qonaqları görməkdən məmnun olduğunu bildirib. Azərbaycanda multikulturalizm və tolerantlıq ideologiyasının dövlət siyasəti səviyyəsinə qalxdığını bildirən rektor respublikada bu sahədə aparılan siyasətin ölkə rəhbərinin digər ölkələrin də xalqlarına olan xoş məramını ortaya qoyduğunu deyib.



ADU-nun tarixində belə mötəbər tədbirin ilk dəfə keçirildiyini nəzərə çatdıran K.Abdullayev bu konfransın Heydər Əliyevin multikulturalizm sahəsində gördüyü işlərin təbliğ edilməsi məqsədilə təşkil olunduğunu bildirib. O, 2018-ci ilin 9 aprel–5 may tarixləri aralığında keçiriləcək konfransa dəstək verdikləri üçün Yeni Azərbaycan Partiyası (YAP) və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinə (BBMM) minnətdarlığını ifadə edib.

Rektor konfransın plenar və yekun iclaslarının ADU-da, bölmə iclaslarının isə Dillər Universiteti ilə yanaşı, müxtəlif ölkələrin müvafiq qabaqcıl universitetlərinin bazalarında keçiriləcəyini diqqətə çatdırıb və bildirib ki, həmin universitetlər "Azərbaycan multikulturalizmi" fənninin tədrisində maraqlıdır.

Sonda akademik K.Abdullayev tədbirin təşkilində zəhməti olan hər kəsə təşəkkür etməklə konfransın işinə uğurlar arzulayıb.

Bundan sonra ADU-nun tələbələri "Qaudeamus" tələbə himnini səsləndiriblər.

YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov, təhsil nazirinin müavini Firudin Qurbanov, AMEA-nın vitse-prezidenti akademik İsa Həbibbəyli, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri professor Etibar Nəcəfov, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Asif Əsgərov, Hindistanın Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri Sancay Rana Azərbaycanın multikulturalizm və tolerantlıq dəyərlərindən, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının digər millətlərlə birgə yaşayışının təmin edilməsi, millətlərarası münasibətlərin tənzimlənməsi yönündə oynadığı vacib roldan söz açıblar.

Açılış mərasiminin sonunda Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

* * *

B.N.Yeltsin adına Ural Federal Universitetində Ulu Öndər Heydər Əliyevin 95 illiyinə həsr olunmuş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "ADR – Şərqdə ilk demokratik respublikadır" mövzusunda bölmə iclası keçirilib.



Tədbirdə Azərbaycan Respublikasının Yekaterinburq şəhərindəki Baş konsulu İlqar İsgəndərov, Ural Federal Universitetinin Xarici regionşünaslıq kafedrasının və Azərbaycanşünaslıq Mərkəzinin müdiri professor Aleksandr Nesterov, ADU-nun Rusiyaşünaslıq Mərkəzinin müdiri Məmməd Əliyev və digər çıxışçılar əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulan, Prezident İlham Əliyev tərəfindən layiqincə davam etdirilən Azərbaycanın müasir multikulturalizm siyasəti, bu il 100 illiyi qeyd olunan Azərbaycan Xalq Cümhuriyyəti barədə konfrans iştirakçılarına ətraflı məlumat veriblər.

Sonda Ümummilli Lider Heydər Əliyevdən bəhs edən sənədli film nümayiş olunub.

* * *

Aprelin 12-də Kiyev Milli Linqvistik Universitetində Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr olunmuş I Beynəlxalq elmi konfransın "Azərbaycan-Ukrayna münasibətlərinin inkişafında Heydər Əliyevin rolu" mövzusunda bölmə iclası keçirilib.


İclasda universitetin rəhbərliyi, Azərbaycan Respublikasının Ukraynadakı fövqəladə və səlahiyyətli səfiri Azər Xudiyev, ADU rektorunun elm və təhsil məsələləri üzrə müşaviri dosent Seyfəl Həsənov, Təhsil fakültəsinin dekanı professor Fikrət Cahangirov iştirak edib.



Milli Linqvistik Universitetinin rektoru professor R.Vasko, universitetin tədris və beynəlxalq əlaqələr üzrə prorektoru İ.Seryakova, Şərqşünaslıq fakültəsinin dekanı S.Sorokin, Türkologiya kafedrasının müəllimi İ.Şıxızadə və başqaları öz çıxışlarında Heydər Əliyevin cəmiyyətdə multikulturalizmin möhkəmləndirilməsi və inkişaf etdirilməsi, onun dövlət siyasətinin tərkib hissəsinə çevrilməsi yönündə müstəsna xidmətlərindən danışıblar.

* * *

Aprelin 13-də Türkiyənin Ərzurum şəhərinin Atatürk Universitetində "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Heydər Əliyev və türk dünyası" mövzusunda bölmə iclası keçirilib.



İclasda çıxış edən Azərbaycanın Türkiyədəki fövqəladə və səlahiyyətli səfiri Xəzər İbrahim, Atatürk Universitetinin rektoru professor Ömər Çomaklı, Ərzurum bələdiyyəsinin sədri Mehmet Sekmen, Naxçıvan Universitetinin rektoru professor Saleh Məhərrəmov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər

Əliyev adına Akademiyasının rəis müavini Seymur Şeydayev, AMEA Folklor İnstitutunun direktoru akademik Muxtar İmanov, ADU-nun Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin dekanı dosent İbrahim Kazımbəyli, Ərzurum valisi Seyfəddin Əzizoğlu və digərləri Heydər Əliyevin Türkiyə-Azərbaycan münasibətlərinin möhkəmlənməsində müstəsna rol oynadığını vurğulayıblar.

* * *

Aprelin 16-da Türkiyənin Ərciyəs Universitetində "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Müasir Azərbaycan: sosial, siyasi və iqtisadi inkişaf" mövzusunda daha bir bölmə iclası keçirilib.

Universitetin rektoru professor Məhəmməd Güvən, ADU-nun Beynəlxalq münasibətlər və idarəetmə fakültəsinin dekanı dosent İbrahim Kazımbəyli, Ərciyəs Universitetinin professorları Mehmet Öcəl, Qafar Çaxmaqlı və başqaları mövzuya dair məruzələrlə çıxış ediblər.

***

Aprelin 16-da Rusiyanın A.S.Puşkin adına Dövlət Rus Dili İnstitutunda "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Sərhədlərin fövqündə: Rusiya və Azərbaycan – mədəniyyətlərarası dialoq təcrübəsi" mövzusunda bölmə iclası keçirilib.



İclasda institutun tədris-tərbiyə işləri üzrə prorektoru dosent E.Koltakova, ADU-nun Rusiyaşünaslıq Mərkəzinin müdiri professor Məmməd Əliyev, ADU-nun Xarici dillərin tədrisi metodikası kafedrasının müdiri professor Gülnar Hüseynzadə də daxil olmaqla on məruzəçi mövzu üzrə çıxış edib.

* * *

"Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfrans çərçivəsində aprelin 18-də Romada keçirilən tədbirdə İtaliya, Fransa, Moldova və Litvanın müxtəlif universitetlərinin və elmi-akademik dairələrinin nümayəndələri iştirak ediblər. Toplantıda Azərbaycanın İtaliyadakı səfiri Məmməd Əhmədzadə nitq söyləyib.



İtaliyanın Təhlükəsizlik və Azadlıq Fondunun prezidenti Feliçe Romano, professor Alessandro Fiqus, Kassino Universitetinin rektoru Covanni Betta, Link Kampus Universitetinin prezidenti Vinçenzo Skotti, KORE Universitetinin prezidenti Salerno Kataldo və BBMM-in İtaliya nümayəndəliyinin rəhbəri Sandro Teti Azərbaycanda multikulturalizm və tolerantlığın xüsusiyyətlərinə dair fikirlərini ifadə ediblər.

Tədbirdə Azərbaycandan getmiş alimlər, eləcə də İtaliyanın Genuya, Kataniya, Link Kampus, Romatre, Fransanın Nimes, Litvanın Klaypeda universitetlərinin, Moldovanın Beynəlxalq İdarəçilik İnstitutunun professorları multikulturalizmə aid məruzələrlə çıxış ediblər. Məruzələrdə Azərbaycanda mövcud olan yüksək tolerantlıq mühiti, multikultural ənənə və dəyərlərin qorunub saxlanması təqdir edilib, ölkəmizin multikulturalizm siyasətinin əsasları, bu sahədə mövcud hüquqi baza və əldə olunmuş nailiyyətlər haqqında geniş məlumat verilib.

* * *

"Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfrans çərçivəsində aprelin 20-də Moskva Pedaqoji Universitetinin (MPU) Samara filialında "Şərq-Qərb: XXI əsrdə mədəniyyətlərin dialoqu" mövzusunda elmi-praktik konfrans keçirilib. Filialın direktoru,

Samara Quberniya Dumasının deputatı Qalina Kozlovskaya bu cür elmi tədbirlərin əhəmiyyətini vurğulayaraq konfrans iştirakçılarına uğurlar arzulayıb.



Plenar iclasda ADU-nun Rusiyaşünaslıq Mərkəzinin direktoru professor Məmməd Əliyev, MPU Samara filialının direktor müavini Elçin Həşimov, Rusiya Dövlət Ədalət Məhkəməsi Universitetinin müəllimi İqor İvanişko, MPU Samara filialının dosenti Elina Çuykova və başqaları Azərbaycanda dini tolerantlıq və multikulturalizm, Azərbaycan-Rusiya münasibətləri, Heydər Əliyev və mədəni müxtəliflik ideyası, Şərq dillərinin tədrisi və digər mövzularda məruzələrlə çıxış ediblər.

Konfrans çərçivəsində "Prezident İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının təqdimatı olub.

* * *

Aprelin 21-də İ.Cavaxişvili adına Tbilisi Dövlət Universitetində "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Azərbaycan-Gürcüstan münasibətlərinin təşəkküründə Heydər Əliyevin rolu" mövzusunda bölmə iclası keçirilib. Tədbirdən öncə konfrans iştirakçıları Heydər Əliyev adına parkda Ulu Öndərin büstü önünə əklil qoyublar.

Tbilisi Dövlət Universitetinin Multikulturalizm Mərkəzinin rəhbəri professor David Qotsiridze, Azərbaycanın Gürcüstandakı səfiri Dursun Həsənov çıxış edərək Heydər Əliyevin iki ölkə arasında münasibətlərin möhkəmləndirilməsində əvəzsiz xidmətlərindən danışıblar. Tbilisi Dövlət Universitetinin professorları Kaxaber Loriya, Vasili Katsarava, Mariam Mancqaladze, Georgi Kvikadze, Ş.Rustaveli adına Batumi Dövlət Universitetinin professoru Revaz

Diasamidze və başqaları öz çıxışlarında Azərbaycan-Gürcüstan münasibətlərinin qurulmasında və inkişafında Heydər Əliyevin gördüyü işlərdən bəhs ediblər.

* * *

Aprelin 22-də Çinin Huzhou Universitetində "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Bir qurşaq – bir yol: multikulturalizmin öyrənilməsi" mövzusunda bölmə iclası keçirilib.



İclasda ADU-nun nümayəndə heyəti, Huzhou Universitetinin professor-müəllim və tələbə heyəti, Mədəniyyətlərarası Dialoq Araşdırmaları Mərkəzinin əməkdaşları və Çinin Azərbaycan Respublikasındakı səfirliyinin nümayəndələri iştirak edib.

Bölmə iclası öz işinə görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən sənədli filmin nümayişi ilə başlayıb. AMEA-nın Şərqşünaslıq İnstitutunun elmi işçisi professor Solmaz Rüstəmova-Tohidi, ADU-nun nəzdində fəaliyyət göstərən Konfutsi İnstitutunun direktoru professor Rafiq Abbasov, Huzhou Universitetinin Ali Təhsil Tədqiqatları Mərkəzinin direktoru professor Yan Denke, Huzhou Universitetinin Beynəlxalq Kollecinin direktoru professor Zhu Din Avropa və Asiya ölkələrinin gəncləri arasında əməkdaşlığın qurulmasına, tolerantlığın və qarşılıqlı anlaşmanın təbliği sahəsində səylərin birləşdirilməsinə yönəlmiş cəhdlərin əhəmiyyətini vurğulayıb, Azərbaycanın Şərqlə Qərb arasında yalnız coğrafi deyil, həm də mədəniyyət körpüsü olduğunu diqqətə çatdırıblar.

* * *

Aprelin 25-də Minsk Dövlət Linqvistika Universitetində "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Heydər Əliyev və Azərbaycan-Belarus münasibətləri" mövzusunda bölmə iclası keçirilib.



Universitetin rektoru professor Natalya Baranova Azərbaycan-Belarus əlaqələrinin inkişafında Heydər Əliyevin mühüm xidmətləri olduğunu vurğulayıb.

ADU-nun Rusiyaşünaslıq Mərkəzinin müdiri professor Məmməd Əliyev, Şərq dilləri kafedrasının əməkdaşı Əbdülhəmid Ömər Məhəmməd, Belarus Milli Texniki Universitetinin dosenti Yelena Bulıqo, Belarus Dövlət Universitetinin dosenti Aleksey Kolik məruzələrlə çıxış ediblər.

* * *



Aprelin 26-da Serbiyanın Belqrad Universitetində "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Multikulturalizmin Azərbaycan təcrübəsi" mövzusunda bölmə iclası keçirilib.

Tədbirdə Azərbaycan Respublikasının Serbiyadakı fövqəladə və səlahiyyətli səfiri Eldar Həsənov, ADU-nun prorektoru professor Əfqan Abdullayev, BDU-nun Dünya ədəbiyyatı kafedrasının müdiri professor Cəlil Nağıyev, Azərbaycan Dövlət Nəşriyyatının Baş redaktoru Əlövsət Ağalarov, Belqrad Universitetinin rektoru doktor Vladimir Bumbaşireviç, Filologiya fakültəsinin dekanı Lyilyana Markoviç, Serbiya parlamentinin Azərbaycanla dostluq qrupunun üzvü, Serbiya Kral Akademiyası Şurasının üzvü Lyubişa Stoymiroviç, deputatlar Miliya Miletiç və Marko Parezanoviç, Serbiya Respublikası Xarici İşlər nazirinin müavini Tamara Rastovaç Siamaşvili iştirak ediblər.

* * *

Mayın 3-də Almaniyada Azərbaycan Dillər Universitetinin, Auqsburq Universitetinin və Azərbaycanın Almaniyadakı səfirliyinin təşkilatçılığı ilə "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Azərbaycan və Almaniya multikulturalizmi" mövzusunda bölmə iclası keçirilib.

BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq, mövcud multikultural modelləri tədqiq və təşviq etmək istiqamətində Mərkəzin gördüyü işlər barədə məlumat verib. Qeyd edib ki, Azərbaycan Prezidentinin multikulturalizm istiqamətində göstərişlərinin icrası onun 2016-cı ildə elan etdiyi "Multikulturalizm İli" başa çatdıqdan sonra da davam edir.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini Gündüz İsmayılov, Mainz Universitetinin professoru Hendrix Busoten, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakıdakı Avropa Yəhudiləri dini icmasının rəhbəri Aleksandr Şarovski, Rus Pravoslav kilsəsinin Bakı Yeparxiyasının nümayəndəsi Elnur Əfəndiyev (Mifodi), Alban Udi Xristian dini icmasının sədri Robert Mobili, Protestant icmasının rəhbəri Vera Nesterova və ADU-nun professoru Aynur Sabitova tədbirdə məruzələrlə çıxış ediblər.

* * *

Mayın 4-də Azərbaycan Dillər Universitetində (ADU) "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın "Heydər Əliyev siyasəti: multikulturalizm və tolerantlıq ideyaları" mövzusunda sonuncu bölmə iclası keçirilib.

Açılış nitqi ilə çıxış edən ADU-nun rektoru, AMEA-nın həqiqi üzvü, Əməkdar Elm Xadimi Kamal Abdullayev tədbir iştirakçılarını salamlayaraq bildirib ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan multikulturalizmi sahəsində gördüyü işlərin təbliğ edilməsi, Ulu Öndərin nəcib siyasətinin daha dərindən öyrənilməsi məqsədilə təşkil olunmuş beynəlxalq elmi konfransın xarici ölkələrdəki bölmə iclasları da çox yüksək səviyyədə keçirilib.

Sonra ADU rektorunun elm və təhsil məsələləri üzrə müşaviri dosent Seyfəl Həsənov Bakı bölməsinin işi haqqında məlumat verib. Qeyd edib ki, iclas öz işini üç əsas bölmə üzrə aparacaq: "Bölmə iclasına ümumilikdə 113 te-

zis təqdim olunub, bunlardan 9-u xarici universitetlərin nümayəndələrinə məxsusdur. Konfransın materiallarından ibarət elektron kitab hazırlamağı planlaşdırmışıq, tezisləri həmin kitaba daxil edəcəyik".

* * *



Mayın 5-də Azərbaycan Dillər Universitetində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 95 illiyinə həsr edilmiş "Heydər Əliyev: multikulturalizm və tolerantlıq ideologiyası" mövzusunda I Beynəlxalq elmi konfransın bağlanış mərasimi keçirilib.

ADU rektoru, BBMM Himayəçilər Şurasının sədri akademik Kamal Abdullayev tədbir iştirakçılarını salamlayaraq yekun nitqi söyləyib.

Mərasimdə Azərbaycan Respublikasının Mədəniyyət naziri Əbülfəs Qarayev, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov, YAP İcra katibinin müavini, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı Azərbaycanın multikulturalizm və tolerantlıq dəyərləri, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqının digər millətlərlə birgə yaşayışının təmin edilməsi, millətlərarası münasibətlərin tənzimlənməsi yönündə gördüyü işlərdən söz açıblar.



Jalə QƏRİBOVA
Filologiya üzrə fəlsəfə doktoru, dosent

Multikultural mühitdə özünüdərk

(Makedoniya səfərindən aldığımız təəssürat əsasında)

Həyat tərzlərinin toplusu yox, toplumun həyat tərzi

Dünyada yalnız bir dildə danışan cəmiyyət yoxdur. Monolinqval toplum reallığa söykənməyən qurama anlayışdır, onun nəzəriyyədən kənar mövcudluğunu təsəvvür etmək mümkün deyil. Mədəniyyəti yaşadan başlıca amillərdən biri dildir, süquta uğrayan dil daşıdığı mədəniyyəti də ölümə məhkum edir. Lakin hər bir multilinqval toplum da multikultural cəmiyyət anlamına gəlməz. Fikrimizcə, multikulturalizmin ən çox yayılmış "müxtəlif mədəniyyətlərin harmonik şəkildə birgə yaşadığı mühit" tərifi də yetərsizdir, multikulturalizm belə bir mühitin də sərhədlərini aşan məfhumdur.

Multikultural cəmiyyət bir insanın başqa birinin ayrı dildə danışmasından qıcıqlanmadığı, bir dinə mənsub adamın başqa dinə mənsub olandan hansı xüsusiyyətlərinə görə fərqləndiyini qabartmadığı, bir kəsin başqa birisinin həyat tərzinə, geyiminə, ənənəsinə kəc baxmadığı bir cəmiyyətdir. Multikulturalizm – toplumun həyat tərzidir, fərqli mədəniyyətlərin, dillərin, həyat tərzlərinin toplusu deyil. Multikulturalizm çoxmədəniyyətli cəmiyyətin içindən yetişən, onun hüceyrələrindən intişar tapan təbii və davamlı prosesdir. Gizli niyyətli siyasət (istər daxili, istər ixrac edilmiş olsun), siyasiləşmiş din və alverçi media qarışmayana qədər multikulturalizm öz mövcudluğunu bu cür də davam etdirir: kimsə kimsənin hansı millətdən olduğunu, hansı dildə danışdığını, hansı mədəniyyətdən gəldiyini sorğulamır, qarşısındakını "bizdən olan" və "bizdən olmayan" kateqoriyalarına ayırmır.

Rəngbərəng Makedoniya

Makedoniya və ya rəsmi adıyla deyilsə, Keçmiş Yuqoslaviya Respublikası Makedoniya multikulturalizmin dərin köklərinin olduğu bir ölkədir. Bu

köklər öncə Osmanlı İmperiyasının millətləri və etnk qrupları assimilyasiyadan qoruyan mədəni müxtəliflik siyasətindən, sonra Yosip Broz Titonun Yuqoslaviya Sosialist Federativ Respublikası çərçivəsində müxtəlif xalqların birliyinə dayanan federasiya yaratmaq strategiyasından qaynaqlanır. Çoxluq təşkil edən yerli slavyanlardan (2002-ci ilin statistikasına görə – 64.18%) başqa Makedoniyada albanlar (25.17%), türklər (3.85%), romanlar (2.66%), serblər (1.78%) və digər etnik qruplar (vlahlar, bolqarlar, boşnaklar və s.) da yaşayır. Tarixən bu etnik qruplar multikultural mühitdə qaynayıb-qarışsalar da, assimilyasiyaya uğramadan ana dillərini qoruyub saxlayıblar. 1994-cü ilin statistikasına baxsaq, etnik qruplarla bu qrupu təmsil edən dilin ana dili hesab edilməsi arasında, demək tam uyğunluq olduğunu görərik: makedoniyalı slavyanlar – 66.5% və makedon dilini ana dili hesab edənlər – 66.5%; albanlar – 22.3% və alban dilini ana dili hesab edənlər – 22.3%; türklər – 4% və türk dilini ana dili hesab edənlər – 3.3% və s.

Makedoniyalılar multikulturalizmi bu günədək yaşada bildikləri ilə öyünürlər. Bunu həm elm adamlarının, həm əsnafın, həm də digər kəsimləri təmsil edən insanların dediklərindən anlamaq mümkündür. Son dövrlərdə Makedoniya bir sıra siyasi sınaqlardan keçib, üstəlik, iqtidarda bir-birini əvəz etmiş müxtəlif siyasi qüvvələrin multikulturalizmə münasibəti də eyni olmayıb. Bu gün hökumətdə təmsil olunan Makedoniya Sosial Demokrat Birliyi (SDSM) dil və mədəniyyət müxtəlifliyinə tolerant yanaşsa da, onun sələfi olmuş Makedoniya Daxili İnqilabi Təşkilatı – Makedoniya Milli Birliyinin Demokratik Partiyası (VMRO-DPMNE) multikulturalizmi ölkənin suverenliyinə təhlükə sayır və seçim kampaniyası zamanı ikidilliliyə qarşı açıq-aşkar şüarlar irəli sürürdü. Yerli sakinlərin dediyinə görə, VMRO-DPMNE vətəndaşları SDSM-in hər kəsi alban dilində danışmağa məcbur edəcəyi ilə qorxudaraq, onları bu partiyaya səs verməməyə çağırırdılar. Bu siyasi təlatümlər insanlararası münasibətlərə müəyyən təsir göstərsə də, bütövlükdə cəmiyyətin multikultural mahiyyətinə xələl gətirə bilməyib. Ancaq ölkədəki multikultural mühitin risklərdən tam sığortalandığını da söyləmək olmaz. Makedoniya cəmiyyətinin qabaqcıl nümayəndələri bu riskləri görür və doğru dəyərləndirməyə çalışırlar.

Burada tanıdığım universitet professoru bir xanımın dediyinə görə, onun məktəbli olduğu illərdə heç kəs başqasının hansı millətdən olduğunu sorğulamazmış, bu sual kimsənin ağlına belə gəlməzmiş. Sonrakı illərdə milli məsələnin siyasi partiyaların gündəminə gətirilməsiylə insanlar bir-birinin milli və dini mənsubiyyəti haqqında düşünməyə başlayıblar. Xanım professor uşaqlıqda qonşu olduqları Fatimə xalanı məmnunluqla xatırlayır: o vaxtlar bu qadının Makedoniya dilində danışdığına diqqət yetirməzmişlər. Yalnız son zamanlar onun ağlına gəlib ki, "tyotka Fatima", yəqin, türk imiş. "Bəs, görəsən, qadın niyə türkcə yox, Makedoniya dilində danışırdı" sualı da onun beynində yalnız bundan sonra yaranıb. Bu sualı valideynlərinə verən həmkarım öyrənib ki, sən demə, "tyotka Fatima" müsəlmanlığı qəbul etmiş Makedoniya slavyanlarından olub.

Bu kimi suallar üzərində baş sındırmasını xanım professor milli həmrəyliyə siyasətin müdaxiləsi ilə izah edir: "Yalnız milli məsələ siyasi diskursun əsas mövzularından birinə çevriləndən sonra biz insanların milli mənsubiyyəti haqqında düşünməyə başladıq. Əvvəllər bunun fərqinə varmazdıq".

Təbii ki, bütün bunlar çoxdilliliyi və çoxmədəniyyətliliyi içindən zədələyən faktorlardır.

Haqqında danışdığım həmkarım çoxluğu təmsil edən millətin nümayəndəsidir – Makedoniya slavyanıdır. O, iştirakçısı olduğum konfransda makedoniyalı türklərin ləhcə özəllikləri mövzusunda məruzə ilə çıxış edirdi. Nə üçün bu mövzunu seçdiyini soruşanda xanım professor türk dilini çox sevdiyini, onun estetikasına valeh olduğunu və ifadə baxımından çox zəngin bu dili öyrənməyin faydalı olduğunu vurğuladı. Üstəlik, həmkarım multilinqval bir mühitdə böyüdüyünü, türkcəni uşaqlıqdan öyrəndiyini və çox dil bilməyi böyük sərvət saydığını deməyi də unutmadı.

Burada diqqətçəkən məqamlardan biri də etnik çoxluq nümayəndələrinin azlıqların dilini öyrənməyə həvəs göstərməsidir. Hər saat rast gəlinən hal deyil, ancaq Makedoniya buna nail ola bilib. Doğrudur, türk dili keçmiş imperiyanın dilidir, məlumdur ki, imperiya dilləri toplumun repertuarından asanlıqla çıxmır. Bununla belə, Balkan yarımadasının Osmanlı İmperiyasının tərkibindən çıxmasından xeyli zaman keçdiyini də unutmamalıyıq.

Çarşı multikulturalizmi

Türklərin Üsküp adlandırdığı Skopyenin Osmanlı dövründən qalma tarixi irsi – türk çarşısı multikultural mühitin bir nümunəsidir. Əsnafın yorulmadan çalışdığı çarşının tarixi küçələri boyunca əksəriyyəti albanlara, türklərə, Bosniya müsəlmanlarına məxsus kiçik dükanlar, çayxanalar, gümüş emalatxanaları, restoranlar, paxlava köşkləri sıra ilə düzülüb. Çarşıda Osmanlı dövründən qalma qonaq evləri (hanlar) də diqqəti cəlb edir. Hanların istifadəsiz qaldığını görəndə onların nədən bərpa olunub muzey kimi yerli əhaliyə və turistlərə təqdim edilmədiyini düşündüm.

Çarşıda çayxana və dükan sahibi olan, serb, makedon, türk, alban və rus dillərində sərbəst danışan bir yerli türklə rastlaşdıq. Bir sinif bitirməmiş bu adamın dediyinə görə, bildiyi dilləri çarşıda dolana-dolana öyrənib: "Tito zamanında məktəbə getdin-getmədin, hər kəsin rusca bilməsi tələb olunurdu, – o deyir. – Alban dilini bilməyimin səbəbi də xanımımın alban olmasıdır".

Sonrakı müşahidələrim çarşıda alban olmayanların da əksərən albanca bildiyini göstərdi. Öz növbəsində albanların da türkcə anlayıb-danışdıqlarının şahidi oldum. Burada dillərarası keçid çox təbii şəkildə baş verir: istər albanlar, istərsə də türklər situasiyadan asılı olaraq rahatlıqla bir dildən o biri dilə keçir, heç özləri də bunun fərqində olmurlar.

Sahibi alban olan gümüş dükanında bir bəzək əşyası bəyəndim. Bank kartı ilə alış-veriş etmədiklərinə görə nağd pul çıxarmaq üçün dükandan aralandım. Geri dönəndə bəzək əşyasının piştaxta üzərində sahibsiz buraxıldığını gö-

rüb təəccübləndim. Beş dəqiqə keçmiş dükan yiyəsi gəldi. Nədən qapını açıq qoyub çıxdığını soruşanda güldü: "Bu çarşıda insanlar həmişə bir-birinə etibar eləyib, – dedi, – burada işarası qapı bağlamağa ehtiyac yoxdur".

Bir paxlava köşkünün pəncərəsinə vurulmuş yazı da diqqətimi çəkdi: "türk paxlavası Angela Merkel". Köşkün sahibi Dostana Mustafçedən nədən paxlavaya Almaniya kanslerinin adını verdiyini soruşdum (Sonradan bu paxlava köşkünün turistlər arasında çox məşhur olduğunu öyrəndim, haqqında qəzetlərdə dərc edilmiş yazıları oxudum. Lakin 2015-ci ildə yayımlanmış bu yazıların çapından artıq 2 il keçmişdi və bu zaman kəsimində Türkiyə ilə Almaniya arasında siyasi müstəvidə bəzi anlaşılmazlıqlar, münaqişələr də yaşanmışdı). Üstəlik, "türk paxlavası Angela Merkel" sözləri Türkiyə Prezidenti Ərdoğanın şəklinin altından yazılmışdı. Bu da məndə bəzi şübhələr yaratmışdı.



Ancaq Dostana Mustafçenin cavabı şübhələrimi dağıtdı:

– Merkel gözəl insandır, çox ağıllı rəhbərdir. Baxın, öz xalqı üçün nə yaxşı işlər görür! Merkeli biz ailəlikcə sevirik.

Bu zaman Dostananın həyat yoldaşı da söhbətə qarışdı:

– Bir ara paxlava yaxşı satılmırdı. Düşündüm, paxlavaya Angela Merkelin adını verək. Bilirsiz, biz bu paxlavanı çox keyfiyyətli alman kərə yağıyla bişiririk, amma müştərilər bunu bilmirdilər. Düşündüm, Merkelin adı paxlavada alman yağından istifadə edildiyinə bir işarə olar, məhsul daha çox satılar. Elə də oldu: satış birə-yüz artdı, indi də o qaydada davam edir.

– Amma Ərdoğanın şəklinin altında Angela Merkelin adı bir az...

Dostana Mustafçe fikrimi göydə tutdu:

– Anladım. Elə şeylərə fikir vermə, onlar siyasətçidirlər. Bütün bunlar oyundur, siyasətçilər belə oyunlar oynamağa, bəzən üzdə düşmən kimi davran-

mağa məcburdurlar. Əminəm ki, Ərdoğanla Merkel ürəklərində bir-biriylə dostdurlar, eyni istiqamətdə hərəkət edirlər, hətta siyasətlərini də bir-biriylə razılaşdırırlar. Amma bunlardan heç kimin xəbəri yoxdur. Odur ki, biz onların hər ikisini sevirik, çünki ikisi də bir-birinə bənzəyir...

Mədəniyyətlər nəsillər qovuşağında

Makedoniyaya zənginləşmə mənbəyi kimi baxan ölkələr çoxdur. Ucuz işçi qüvvəsi, yerli əhaliyə o qədər də faydası olmayan, amma sahiblərinə külli miqdarda sərvət gətirən biznes layihələri maraqlı iqtisadi gücləri bu ölkəyə cəlb etməkdədir. Hərçənd bunların arasında Makedoniya üçün sərfəli layihələr də ola bilər. Amma hansı layihənin ölkəyə faydalı, hansının zərərli olduğuna makedoniyalılarmı, yoxsa əcnəbi siyasətçilər və investorlarmı qərar verəcək? Yaxud da, Makedoniya toplumunun özünün vermədiyi bir qərar onlar üçün nə qədər ədalətli olacaq? Nəhayət, ölkədəki siyasi gərginlik liderlərə Makedoniya toplumunun bu kimi məsələlərə dair düzgün qərar çıxarmaq potensialını inkişaf etdirmək imkanı verirmi? Suallar ayrıca təhlil tələb etsə də, bu gün Makedoniyanın xarici investorların maraq dairəsində olduğu aşkardır.

Belə bir şəraitdə investorlar, yəqin ki, öz mövqelərini möhkəmlətmək məqsədilə toplumu onlara bağlayacaq siyasi ideologiyaların da ölkəyə idxal edilməsi üzərində düşünəcəklər. Bu zaman həssaslığı şübhə doğurmayan kimlik və dil məsələlərindən də yan keçilməyəcək. Makedoniyanın multikultural təməllərini məhz belə bir ekspansiya siyasəti sarsıda bilər. Toplumun öz içindən cücərməyən, xalqa öz liderləri tərəfindən aşılanmayan, kənardan sırınan ideologiyaların destruktiv nəticələrinə dair nümunələr çoxdur.

Makedoniyalı həmkarım oğluna Pasxa bayramında məktəbə aparıb paylaması üçün boyanmış yumurtalar verməsini və bu kontekstdə oğlu ilə arasında olan söhbəti xatırlayır: "Adətimizə görə, Pasxa bayramında hər kəs yumurta boyayıb bir-biriylə dəyişdirir. Oğluma da boyanmış yumurtaları bunun üçün vermişdim. O, məktəbdən evə qayıdanda soruşdum: "Necə oldu, yumurtaları dəyişdinmi?" Oğlum cavab verdi: "Yox, ana, sinifdəkilərin çoxu türkdür. Onlar yumurta boyamırlar, paxlava bişirirlər". Həmin anda xatırladım ki, bizim məktəbli olduğumuz vaxtlarda heç kəs başqalarını "yumurta boyayan", ya "paxlava bişirən" kimi qisimlərə ayırmazdı. Kimsə bunun fərqinə varmaz, bunu başqasının milli atributu kimi qabartmazdı. Buna baxmayaraq, bizim yumurta boyama adətimiz də, türklərin paxlava bişirmə ənənəsi də əsrlərdən bəri öz varlığını qoruyub saxlayıb. İndi isə milli kimlik üzərində oyunlar qurulur. İnsanlar artıq kim olduqlarını bağıra-bağıra bəyan edirlər, çünki bundan ötrü sərfəli stimullar formalaşdırılıb. Məsələn, bəlli bir təqaüdü qazanmaq üçün mütləq türk olmalısan. Yaxud hansısa bir işə qəbul olunmaq üçün türk yox, alban yox, məhz makedoniyalı slavyan olmağın lazımdır. Doğrudur, bu şərtlər rəsmən heç bir yerdə yazılmayıb, fəqət reallıqda belədir.

Demirəm ki, insanlar əvvəl kimliklərini, hansı kökdən gəldiklərini, hansı dilə, hansı dinə mənsub olduqlarını bilmirdilər. Bilirdilər, ancaq bunun üzərində

məqsədli şəkildə durmurdlar, bunu qabartmırdılar, bunu gündəlik söyləmə çevirmirdilər. Heç kəs də başqasının dilinə, dininə, adətinə, milli mənsubiyyətinə yuxarıdan aşağı baxmırdı. Hansı dildə danışmağa gəlincə, bunu lokal şərait müəyyənləşdirirdi. Bir bölgədə, məsələn, türklər sıx yaşayırdısa, orada etnik çoxluğa mənsub adamlar da türkcə danışmağı bacarırdılar. Bu da xoş qarşılanırdı, heç kəs özünə "mən niyə öz yerimdə başqa dildə danışmalıyam" kimi suallar vermirdi. Heç kəsdə milli kimliyini itirmək qorxusu yaranmırdı..."

Bakıya döndüyüm gün məni aeroporta aparan taksi sürücüsünün dedikləri də həmkarımın narahatlığının əsassız olmadığını göstərdi. Makedoniya slavyanlarından olan sürücünün yerli albanların qarasınca işlətdiyi sözlər bu ölkədə yaşayan etnik qruplar arasında münasibətlərin get-gedə gərginləşdiyinə şübhə yeri qoymurdu: "Onların həyat tərzi bizimkinə uyğun gəlmir. Bərabər yaşamağımız, demək olar, mümkün deyil. Onlar "Böyük Albaniya" xülyasına düşüblər. Buyursunlar, Albaniyaya köçsünlər, burada onları heç kəs saxlamır..."

Xalqın və cəmiyyətin öz məhsulu

Hər xalqın tarixində multikulturalizmə münasibətin enib-qalxan dövrləri ola bilər. Hər bir dövlətin də bu baxımdan inkişaf və tənəzzül mərhələlərindən keçməsi təbiidir. Dərin demokratiya ənənələrinə sahib bir dövlətin beynəlxalq əməkdaşlıqda nisbətən gənc dövlətlərə multikulturalizm siyasəti ilə bağlı səmimi tövsiyələr verməsi, yaxud konstruktiv tənqid yönləndirməsi də anlaşılandır. Demokratiya yoluyla gedən dövlətlər belə bir fikir və təcrübə mübadiləsinə hər zaman açıq olub. Lakin bu halda multikulturalizmin ümumi çərçivəsi və əsas prinsipləri müzakirə mövzusu ola bilər.

Hər hansı cəmiyyətdə multikulturalizm siyasətinin məxsusi çalarlarını və tətbiq mexanizmini o toplumun nümayəndələrindən yaxşı hiss edən olmaz. Təbii ki, multikulturalizm siyasətinin arzulanan səviyyədə olmaması bu siyasətə yenidən baxılmasını, təhsil və mədəniyyət sahəsində multikulturalizmə daha geniş yer verilməsini, toplumun daha multikultural olmasına təkan verən xüsusi dövlət proqramlarının işlənib hazırlanmasını gündəmə gətirə bilər. Lakin bütün bunlar dövlətin, xalqın və cəmiyyətin öz məhsulu olmalıdır. Üstəlik bu, ticari, dini və hərbi məqsədlərdən arındırılmış səmimi bir ideologiya olmalıdır. Əslində buna ideologiya da yox, dəyərlər sistemi demək daha düzgün olardı. Çünki fərqli olanı qəbul etmək və səndən olmayanla birgə yaşamaq bacarığı insanlara bir ideoloji paket çərçivəsində aşılanası qabiliyyət deyil. Fərqliliyə açıq tolerant cəmiyyət bu məziyyətləri əsrlər boyunca yaşam qanunları və insanlıq dəyərləri əsasında (məhz özü) formalaşdırır. Və yalnız bu zaman tolerantlıq, çoxmədəniyyətlilik toplumun dəyərinə çevrilə bilir. Dəyərlər sistemindən, yaşam tərzindən qaynaqlanan çoxmədəniyyətlilik isə daha davamlı, daha səbatlı, ən başlıcası, daha səmimidir.

Alban Apostol kilsəsi: tarixi baxış

Dəyirmi masa

Giriş sözü

Azərbaycan tarixinin qədim dövr və erkən orta əsrlər mədəniyyətinin daşıyıcısı Alban Apostol kilsəsi Qafqazın ən qədim kilsələrindəndir. Erkən orta əsrlərdən başlayaraq Alban kilsələri Azərbaycan torpaqlarını sıx şəbəkə ilə örtmüşdü. V əsrin əvvəllərindən etibarən xristian dünyasında yaranmış yeni təlimlər xristian kilsəsini bir sıra məzhəblərə bölmüşdü. V əsrin sonuna qədər xalkidonçuluq mövqeyindən çıxış edən Alban Apostol kilsəsi Sasani şahənşahlarının bölgədə apardığı konfessional siyasətə uyğunlaşmaq məcburiyyəti qarşısında diofizitlikdən[*] – İsa peyğəmbərin ikili təbiətini qəbul etmək mövqeyindən uzaqlaşmış, bir əsrdən çox məzhəblərarası mübarizə aparmış, VII əsrin sonlarında bölgədə yaranmış sosial-siyasi şərait üzündən monofizitliyə[**] keçməyə vadar olunmuşdu.

VIII əsrin əvvəllərində Ərəb xilafətinin hökmranlığından qurtulmaq yolunu Bizans imperiyasında görən Alban Apostol kilsəsi yenidən diofizitliyə qayıtmaq istəyəndə ermənigriqorian kilsəsinin məkri ilə üzləşdi. Belə ki, IV əsrin sonlarından etibarən yeni "vətən" axtarışında olan ermənigriqorian kilsəsi Ərəb xilafətinin konfessional siyasətinin konturlarını öz maraqları ilə uzlaşdırmağı əsas götürür və katolikos İlya 704-cü ildə Alban kilsəsində baş verən proseslər haqda xəlifə Əbd-əl-Malikə məktub yazır, Alban katolikosu Nerses Bakuru xilafətə xəyanətdə suçlayır. Nəticədə Alban Apostol kilsəsi özünün avtokefallığını itirir.

*Sonrakı dövrdə bir tərəfdən ermənigriqorian kilsəsi, o biri tərəfdən gürcü pravoslav kilsəsi ilə mübarizə aparan Alban Apostol kilsəsi XIII əsrin ortalarında avtokefallığını bərpa edir, Qanzasar monastırı[***] Alban Apostol avtokefal kilsəsinin iqamətgahına çevrilir. Məbəd Mehranilər sülaləsinin nümayəndəsi, Aşağı Xaçın hakimlərindən olan knyaz Həsən Cəlalın[1***] əmriylə 1216-1238-ci illərdə inşa edilir.*

Orta əsrlərdən etibarən mifik "erməni məsələsi"ni, "Böyük Ermənistan" ideyasını gündəmə gətirən ermənigriqorian kilsəsi XVIII əsrdən başlayaraq davamlı saxtalaşdırma istiqaməti götürməklə Romanovlar Rusiyasını aldadır, pravoslav məzhəbə aid

[*] **Diofizitlik** və ya pravoslavlıq xristianlığın istiqamətlərindən biri olub IV əsrdə meydana gəlmişdir. Diofizitlərə görə, İsa peyğəmbər ikili təbiətə malikdir: ilahi və insani. Üç üqnumu - Tanrının üçlü əsasını qəbul edir: Tanrı-Ata, Tanrı-Oğul (İsa peyğəmbər) və Tanrı-Müqəddəs Ruh.

[**] **Monofizitlik –** V əsrdə yaranmışdır. Yunanca мono – bir, fizio – təbiət deməkdir. İsa peyğəmbərin tək təbiətini – ilahiliyini qəbul edir, bununla da diofizitlərdən fərqlənir.

[***] **Qanzasar monastırı** – hazırda Dağlıq Qarabağda, Ağdərə rayonunun Vəngli kəndində yerləşən Qanzasar monastır kompleksi orta əsr Alban memarlığının incisidir.

[1]*** **Həsən Cəlal –** Mehranilərdən olan Qriqor Hammamın nəslindəndir, 1261-ci ildə Hülaku xanın dövründə monqollar tərəfindən öldürülmüşdür.

olduğunu bildirirdi. XIX əsrin birinci otuzilliyində Azərbaycanın şimal torpaqlarını işğal edən və bölgədə xristianlaşdırma siyasəti yürüdən Rusiya imperiyası "erməni kartı"na üstünlük verərək Alban Apostol kilsəsini ermənigriqorian kilsəsinin idarəçiliyinə verməyi qərara aldı. Bu zaman Şərq kilsələrinin qəbul etdiyi apostol qanunlar sisteminin qaydalarını (57 kanonun 1-ci bəndi: Patriarxal kilsələrin əsasını qoymaq, bərpa etmək, dəyişmək, ləğv etmək kilsənin səlahiyyəti daxilindədir – red.) *nəzərə alan imperator I Nikolayın 11 mart 1836-cı il tarixli fərmanını rəhbər tutan senat 10 aprel 1836-cı il tarixli əsasnamə ilə Şirvan və Qarabağ yeparxiyalarını ermənigriqorian kilsəsinin idarəçiliyinə verdi, bununla da ermənilərin Alban Apostol kilsəsinə iddialarının gerçəkləşməsi üçün şərait yarandı. Nəticədə ermənigriqorian kilsəsi ermənilərə aid olmayan tarixi Azərbaycan torpaqlarında – Qarabağ və Şirvan ərazisində "erməni məsələsi"ni reallaşdırmaq məqsədilə Albanudiləri assimilyasiyaya məruz qoydu və onların bir hissəsi qriqorianlaşdı.*

Bununla yanaşı, ermənigriqorian kilsəsi Rusiya hakim dairələrinin icazəsi ilə 1909-1910-cu illərdə Alban Apostol kilsəsinin arxivlərini məhv edərək Azərbaycanın tarixi irsinə böyük zərbə vurdu. Əzəli torpaqlarımıza iddia etməyi qarşısına məqsəd qoyan və ermənigriqorian kilsəsinin göstərişi əsasında bu alqoritmlə hərəkət edən erməni təbliğatı XX əsrin əvvəllərində "Dağlıq Qarabağ" adlı problem uydurmaqla Azərbaycanın köklü maddi-mədəni irsi olan alban mədəniyyətinə yiyələnmək kursu götürdü. Odur ki, bu gün Alban Apostol kilsəsinin de-fakto və de-yure bərpası bu irsə, yəni Azərbaycan tarixinə kənardan sahib çıxmaqistəyən qüvvələrin qarşısını alar, Azərbaycan tarixinin reallıqlarını açıb göstərər və Azərbaycan multikulturalizminin çoxçalarlığını dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırar.

Hörmətli oxucu, sizə təqdim etdiyimiz bu dəyirmi masa ətrafında toplaşmış elm adamları, ictimai xadimlər məhz bu kimi məsələlərə aydınlıq gətirmək üçün bir araya toplaşıblar. Masa ətrafında gedən müzakirələrin mətnini qısa ixtisarla nəzərinizə çatdırırıq. İnanırıq ki, burada aparılan elmi-tarixi diskussiyada səslənmiş fikirlər Azərbaycan tarixi ilə bağlı sizin də rastlaşdığınız qaranlıq məqamlara işıq salacaq.

İkinci hissə



Təvəkkül Əliyev *(tarix üzrə fəlsəfə doktoru)*:

– Söhbətimizin mövzusu xristian kilsəsi ilə bağlı olduğu üçün mən kilsənin atributlarından olan xaçlar haqqında məlumat vermək istərdim. Xaç işarəsinin tarixi bizim düşündüyümüzdən də qədimdir. Bu simvoldan ilk sivil xalqlar sırasına aid olan qədim misirlilər geniş istifadə ediblər. Misir ənənəsinə görə, həyatın və tanrıların rəmzi sayılan xaçın yuxarısı halqa şəklində olurdu. Babilistanda xaç göy tanrısı Anunun rəmzi idi. Assuriyada isə günəş tanrısı Aşşurun atributlarından olan xaçın üstünə günəşi simvolizə edən halqa ilə yanaşı aypara təsviri də həkk olunurdu.


Azərbaycanın qədim qayaüstü təsvirlərində (Qobustan, Gəmiqaya) də xaçşəkilli işarələrə rast gəlinir. Bunların arasında xaç, yaxud svastika ilə dörd yerə bölünən

dairələr var ki, bu da günəş şüalarının dünyanın dörd tərəfinə yayılmasını əks etdirir. Tarixi Azərbaycan torpaqları olan Göyəm (Geqam) dağlarındakı bir qayaüstü rəsmdə dörd yerə bölünmüş dairə və hər bölmədə bir insan təsvir olunub. Bu təsvirdəki insanlar dünyanın dörd tərəfini qoruyan tanrıları simvolizə edir. Hindistan Respublikasının gerbində hələ miladdan öncə III əsrdə, hökmdar Aşokanın dövründə yaradılmış xaçşəkilli monumental abidənin – dünyanın dörd bir yanına baxan şirlərin əks olunduğunu nəzərə alsaq, xaç işarəsinin yayılma miqyasını təsəvvür edə bilərik.





Gəmiqaya təsvirləri – Azərbaycan Respublikası ərazisində, Naxçıvan MR-in Ordubad rayonunun Nəsirvaz kəndində açıq səma altında muzeydir (xronoloji çərçivəsinə görə Tunc və Dəmir dövrlərini əhatə edir)

Əcdadlarımız uzaq keçmişdə müxtəlif ibtidai dini inanclara tapınıblar, oda sitayiş ediblər, ona qoruyucu, təmizləyici müqəddəs bir qüvvə kimi baxıblar. Bununla belə, xaç işarələri qədim Azərbaycan torpaqlarında da yayılmışdı, arxeoloji tapıntılar bu həqiqəti sübuta yetirir. Naxçıvanda I Kültəpə və Qızılburun abidələrindən (m.ö. IV-II minilliklər) tapılmış saxsı qablar üzərində də xaç rəsmləri var. Şəmkirin Qaracəmirli kəndində m.ö. XVI-XV əsrlərə aid günəş və svastika təsvirli saxsı qab aşkar edilib. Qarabağda Borsunlu kurqanından tapılan m.ö. XIII-XII əsrlərə aid saxsı qabların səthi müxtəlif xaç təsvirləri ilə bəzədilib. Sarıçoban (m.ö. XII-XI əsrlər) kurqanındakı qəbrin isə xaç şəklində qazıldığı müəyyən edilib. Son qneolit dövrünə aid Türkmənistan abidələrində, məsələn, Geoksür keramikası üzərində xaç işarələrinin təkamülünü izləmək olur.



Gəmiqaya daşları üzərində xaç işarələri





Qobustan. Böyükdaşın aşağı terrasında və Yazılıtəpədə haçaşəkilli təsvirlər

Xaç şəkilləri Azərbaycanın qədim sənət nümunələrində də əksini tapıb. Xalça, tikmə və digər maddi mədəniyyət nümunələri üzərində geniş yayılan naxışlardan biri də xaçşəkilli toxumalardır. Belə naxışlar qədim türk xalqlarının inancları ilə bağlıdır. Xristianlıqdan 5-6 min il əvvəl də mövcud olmuş xaçşəkilli işarələr qədim insanların dini-mifoloji görüşlərini əks etdirir. Bəzi xalılarda xaçşəkilli rəsmlər insanı və heyvanı xatırladan simvollardan ibarətdir. Gəmiqayada da insanabənzər xaç rəsmləri qeydə alınıb. Sibir xalqlarının, o cümlədən yakutların xalq sənətində rast gəlinən xaç işarələri qoruyucu funksiya daşıyır. Xalılarda xaç rəsmləri bəzən haçalandırılaraq qoç buynuzuna bənzədilir.

Beləliklə, göstərilən faktlar, arxeoloji materiallar bir daha sübut edir ki, xaç işarəsi xristianlığa qədər də dünya xalqları arasında, o cümlədən Azərbaycanda yayılmışdı.

Azərbaycan tarixinin antik və erkən orta əsrlər mərhələsində xaç işarəsinin yeri haqqında nə demək olar? Məlumdur ki, xristianlıq rəmzi kimi alban abidələrində də xaç işarəsi geniş yayılmışdı. Albaniyanın xristian dövrü abidələrində aparılan arxeoloji qazıntılar zamanı müxtəlif üslublu xaçlara rast gəlinir.

XX əsrin ortalarında tədqiq olunmuş Mingəçevir abidələrində alban xaçlarının bütün növlərinə təsadüf edilir. Burada VIII əsrə aid edilən təkcə bir məbəddən (IV məbəd) 30-dan artıq xaçşəkilli əşya toplanıb. Onlardan biri tuncdan, qalanları isə dəmirdəndir. Qədim Mingəçevirin tədqiqatçılarından olan R.Vahidov bu xaçları təyinatına görə üç qrupa ayırıb: əldə tutulan, digər əşyaların üzərinə sancılan və boyundan asılan xaçlar. Quruluşuna görə isə Mingəçevir xaçları 4 qrupa bölünür:

1.Yan qolları çəp olan xaçlar;

2. Haçaşəkilli və itiuclu qolları olan xaçlar;

3. Haça ucları dairəvi düyməcikli xaçlar;

4. Düz uclu və uzun dəstəkli xaçlar.

Azərbaycan ərazisində indi də aparılan qazıntılar zamanı xaç təsvirli daşlara çox rast gəlinir. Bunun da kökləri qədim Azərbaycan dövləti olan Albaniyada xristianlığın dövlət dini səviyyəsinə qalxması, sonrakı yüzilliklərdə bu dinin təsirinin güclənməsi ilə bağlıdır. Bir qayda olaraq belə daşları ədəbiyyatda "xaçkar" adlandırırlar. Əslində isə bu ifadə "haçadaş" mənasını verir və onun belə adlandırılması daha düzgün olardı. Qarabağda alban tayfalarına məxsus haça təsvirli qədim daşlara IX əsrin ortalarından etibarən rast gə-



Günəş və svastika təsvirli saxsı qab. M.ö. XVI-XV əsrlər (Şəmkir, Qaracəmirli)

linir. Sonrakı dövrdə də belə qəbirüstü abidələr Qarabağda geniş yayılmışdı. Bu abidələr Azərbaycan xalqına məxsus qiymətli tapıntılar kimi həmişə diqqət mərkəzində olub.

Hamıya məlumdur ki, XXI əsrin astanasında erməni silahlı qüvvələri tərəfindən işğal olunan Qarabağ torpaqları abidələrimizlə birgə vandalların total hücumlarına tuş gəldi, məscid, məqbərə və qəbiristanlıqlar dağıdıldı, xristian dövrü abidələrimiz isə saxtalaşdırılmaya məruz qaldı. Son illər işğal olunmuş Ağdamda "erməni izi" axtaran H.Petrosyan deyir ki, sovet dövründə Qarabağdakı xaçkarları öyrənmək arzusunda olub, lakin elmi rəhbəri akademik B.Arakelyan onu bu fikrindən çəkindirib, deyib ki, bu yolla elmi karyera qazana bilməyəcəksən, çünki səni oraya – Qarabağa buraxmayacaqlar. Əlbəttə, B.Arakelyanın həyatda olmadığını nəzərə alsaq, onun adından çox şey




Erkən orta əsrlər alban məbədindən tapılan şamdanlar
Mingəçevir (Azərbaycan Milli Tarix Muzeyi)

danışmaq olar. Lakin Ermənistanda H.Petrosyanın yalan danışdığını, erməni tədqiqatçılarına nəinki Qarabağda, Azərbaycanın digər bölgələrində də araşdırma aparmaq üçün heç bir qadağa qoyulmadığını bilənlər az deyil. Onlara yaxşı bəllidir ki, monoetnik Ermənistandan fərqli olaraq, Azərbaycan tarixən tolerantlığı ilə seçilib, bu ölkədə müxtəlif xalqların bərabərhüquqlu yaşayışı üçün həmişə şərait olub. Qarabağda alman (E.Resler, Y.Qummel), rus (A.A.İvanovski, İ.İ.Meşşaninov, A.A.İyessen və b.), azərbaycanlı (İ.Cəfərzadə, İ.Nərimanov, R.Göyüşov, H.Cəfərov və b.) tədqiqatçılarla yanaşı, erməni alimləri də uzun illər araşdırmalar aparıblar. XX əsrin 20-30-cu illərində S.Ter-Avetisyan, 30-40-cı illərində L.P.Taşçyan, 70-80-ci illərində O.A.Danielyan bilavasitə Dağlıq Qarabağ Muxtar Vilayətində ardıcıl arxeoloji qazıntı işləri aparıblar, hətta ekspedisiya və dəstə rəhbəri kimi də fəaliyyət göstəriblər. Heç kəs onlara Dağlıq Qarabağda tədqiqat aparmağı qadağan etməmişdi.

Maraqlıdır, vaxtilə yüz minlərlə azərbaycanlının yaşadığı Ermənistan deyilən məkanda, görəsən, bircə nəfər soydaşımız oranın Tarix, Arxeologiya və Etnoqrafiya institutlarında özünə yer tuta, doğma kəndindəki, el-obasındakı abidələrlə açıq şəkildə maraqlana bilərdimi? Petrosyan kimi yalançı erməni alimlərinin məntiqinə görə, harada xaçkar varsa, ora erməni yaşayış məskəni olub. Hələ tələbə ikən xaçkarlardan diplom işi

yazan bu "tədqiqatçı" doktor olandan sonra da özünün ilkin məntiqindən kənara çıxa bilməyib. Onun hələ Qobustandakı Mezolit və Tunc dövrlərinə aid xaç işarəli daşlardan xəbəri yoxdur.

Qafqaz Albaniyasının xristianlıq tarixi Azərbaycan alimləri tərəfindən əsaslı şəkildə tədqiq olunub, bu istiqamətdə araşdırmalar indi də davam etdirilir. Burada professor R.Göyüşovun tədqiqatları xüsusi qeyd olunmalıdır. Uzun illər Qarabağın antik və orta əsr abidələrini öyrənmiş R.Göyüşov alban xaçlarının ümumi təsnifatını tərtib edərək onları üç qrupa ayırıb: 1. Qolları eyni ölçülü xaçlar; 2. Qollarının ucları qoşa dairəvi düyməciklə tamamlanan xaçlar; 3. Qollarının ucları üç ləçəklə tamamlanan xaçlar. Bütövlükdə Azərbaycan ərazisində aşkar olunmuş xaç nümunələrinin geniş təhlili isə tədqiqatçı-arxeoloq M.Xəlilov tərəfindən verilib. Çıxışımın sonunda apardığım tədqiqatlardan aldığım nəticələrə söykənərək bildirmək istəyirəm ki, xaç işarələrini hər hansı bir xalqın tarixinə bağlamaq düzgün olmaz. Çünki bu astral rəmz dünya xalqları tərəfindən qəbul edilən bir atributdur. Xaç işarələri bəşəri rəmzdir, müasir dövrdə isə xristianlığın rəmzidir və ona etinasızlıq göstərmək olmaz. Azərbaycan tarixində xristianlıq böyük bir mərhələdir, odur ki, biz bunu qiymətləndirməliyik. Azərbaycan multikultural bir ölkə kimi bu bəşəri rəmzə tolerantlığını nümayiş etdirməlidir.



Mesopotamiyada Aşşurun günəş, səma və ay tanrısının rəmzləri



Mübariz Xəlilov ***(tarix üzrə fəlsəfə doktoru):***

– Mən çıxışçılara diqqətlə qulaq asdım, Fəridə xanımın çıxışını da maraqla dinlədim. Fəridə xanım məzhəb məsələsinə tamamilə düzgün olaraq toxundu. "Qafqaz Albaniyasında xristianlıq" adlı tədqiqat əsərində də o, xristianlıq məsələsini gündəmə gətirərək göstərir ki, VI-VII əsrlərdə Qafqaz Albaniyasında diofizitlik üstünlük təşkil edib. Lakin bu gün Fəridə xanım başqa bir rakursdan çıxış etdi və söylədi ki, Alban Apostol kilsəsi özünün bütün mərhələlərində monofizitliyin tərəfdarı olub. Düşünürəm ki, gələcək tədqiqatlarında Fəridə xanım mövqeyini dəyişməsinin səbəbini izah edəcək.

Xatırlatmaq istərdim ki, katolikos Abbasın dövründə, 551-ci ildə Dvində kilsə məclisi çağırılmışdı. Dvin kilsə məclisindən katolikos Abbasa məktub göndərilmişdi – bu fakt göstərir ki, katolikos Abbas Dvin məclisində iştirak etməyib. Bəs bunun səbəbi nə idi? Dvin məclisi katolikos Abbasa məktub göndərərək təklif edir ki, o, İsa Məsihin ilahi və insani təbiətinin vahidliyini qəbul eləsin. Demək, katolikos Abbas monofizit olmayıb və məhz diofizit mövqedə durduğuna görə kilsə məclisi onu monofizitliyi qəbul etməyə çağırıb. Əgər katolikos Abbas Dvinə getməyibsə, deməli, bu təklifdən

boyun qaçırıb.

Katolikos Abbas uzun müddət – 44 il Alban Apostol kilsəsinə rəhbərlik edib. Bu kilsənin ondan sonrakı katolikosu Viro da mənbələrdə xalkidonçu adlandırılır. Daha sonra Cavanşir öz hakimiyyəti dövründə dəfələrlə Bizansa müraciət edir ki, Bizans onu təbəəliyə götürsün. Bu da onu göstərir ki, çox güman, Alban Apostol kilsəsi o dövrdə də diofizitlik mövqeyində qalırmış.

Qafqaz Albaniyasında diofizitlik Nerses Bakurun katolikosluğuna qədər davam edib, lakin onun kilsəyə rəhbərlik etdiyi dövrdə ərəb xilafətinin bölgədə apardığı dini siyasətin tələbləri qarşısında Nerses Bakur monofizitliyə keçməyə məcbur olmuşdu. Doğrudur, Bizansa verilən vergiləri yüngülləşdirmək məqsədilə katolikos Nerses yenidən diofizitliyə qayıtmışdı.

Sonralar – X əsrin ortalarında, İşhaninin dövründə məzhəb məsələsi Alban Apostol kilsəsinin gündəminə yenidən gəldi. İşhaninin anası gürcü şahzadəsi Dinar idi, anasının təsiri ilə o, Alban Apostol kilsəsini diofizitliyə qaytardı və 10 ildən artıq bir müddətdə Alban Apostol kilsəsi diofizit kilsə olaraq qaldı. Bu faktlar bir daha sübut edir ki, alban kilsəsi öz mövcudluğu boyunca yalnız monofizit mövqedən çıxış edən kilsə olmayıb.



Robert Mobili ***(Alban Udi Xristian dini icmasının sədri – Azərbaycan):***

– Mən Alban Apostol kilsəsinin tarixi ilə bağlı paralellər aparmaq istəyirəm: tarixi reallıq və hazırkı reallıq. Tarixi reallıq odur ki, həqiqətən alban kilsəsi apostol kilsəsi olub, avtokefal olub. Bu kilsənin katolikosat xətti olub, liturgiyası, ehkamları olub. Bu reallıqları heç kim dana bilməz. Alban Apostol kilsəsinin özünəməxsus xristian rəmzləri olub, V-VI əsrlərdə alban əlifbası ilə yazılmış "Bibliya"sı olub. Bütün bunlar tarixdə təsdiqlənmiş faktlardır. Bu kilsə 1836-cı ilə qədər mitropolitlik səviyyəsində fəaliyyət göstərib və kilsə tarixinin bu son dövrü ilə bağlı maraqlı cəhət ondan ibarətdir ki, Rusiya Senatının təsdiq etdiyi 10 aprel 1836-cı il tarixli əsasnamənin heç bir bəndində Alban Apostol kilsəsinin ermənigriqorian kilsəsinə verildiyi göstərilməyib. Həmin sənədin 13-cü səhifəsində çox maraqlı bir məqam diqqəti çəkir. Orada deyilir: "Tatev mitropolitliyi Eçmiədzinə verilsin". Yəni, I Nikolay Qarabağ torpaqlarında yerləşən Tatev monastırını bilavasitə ermənigriqorian kilsəsinə tabe edir, faktiki olaraq onu ləğv eləyir. Əvəzində Qarabağ yeparxiyası yaranır.

Bir məqama da diqqətinizi çəkmək istəyirəm ki, Çar Rusiyasına aid bütün sənədlərdə erməni kilsəsi "ermənigriqorian kilsəsi" adlandırılıb, lakin 1999-cu ildən ermənilər bu kilsəni "ermənіapostol kilsəsi" elan etdilər, yəni bu gün də tarixi davamlı şəkildə saxtalaşdırmaqdadırlar. Bizsə bu gün Alban Apostol kilsəsini bərpa etməklə tarixi gerçəkliyi dirçəltmək istəyirik. Bunun üçün bizim güclü bazamız olmalıdır. Bu gün alban kilsəsinin davamçıları, dini varisləri var – onlar udilərdir. Azərbaycan dövləti Qafqaz Albaniyasının varisidir və bu, danılmaz həqiqətdir. Erkən orta əsrlərdə Albaniya əhalisinin bir qismi Alban Apostol kilsəsinə tapınıb. Əhalinin əksər hissəsi isə xristianlığaqədərki etiqad və inanclarını qoruyub saxlayıb, sonrakı mərhələlərdə islam dinini qəbul edib. Tarixin keşməkeşli gedişatı boyu öz dini inancını qoruyub saxlamış udiləri bu gün Alban Apostol kilsəsinin varisləri hesab etmək olar. Hazırda udilərin sayı 10.000-dən çoxdur.

Alban Apostol kilsəsi yeganə Şərq kilsəsidir ki, bərpa olunmayıb. Hətta ermənilər öz kitablarında yazırdılar ki, alban kilsəsi olub, lakin erməni kilsəsinin tərkibində. Fikrimcə, ilk addım kimi bu kilsəni mitropolitlik şəklində yaratmaq mümkündür. Hətta bu işə keşiş səviyyəsində başlamaq lazımdır ki, kilsədə ibadət getsin və kilsənin bərpa olunduğu elan edilsin. Hazırda ruhaniləri olsa da, kilsə hələ ki muzey mərhələsini yaşayır.

Alban Apostol kilsəsini bərpa etmək üçün hansı addımları atmaq olar? İlk növbədə kilsələr bərpa olunmalıydı ki, bunu etmişik, artıq bir neçə kilsə bərpa olunub. Lakin bu mədəni irsin bərpası üzrə işlər davamlı şəkildə görülməlidir. Daha sonra ictimai rəy formalaşdırılmalıdır, maariflənmə işləri genişlənməlidir. Rayonlarda insanlar bilməlidirlər ki, bu mədəniyyət ermənilərin deyil, bizim özümüzündür. Üçüncüsü, Azərbaycan Respublikasında fəaliyyət göstərən bir dini mərkəzimiz olmalıdır. Yəni burada həm kilsə, həm seminariya olmalıdır ki, ilkin dini təhsil almaq istəyənlər başqa ölkələrə getməsinlər. İndiki zamanda dini mərkəz kimi Nicin seçilməsi, fikrimcə, daha məqsədəuyğundur; Nicdəki multikultural mühit, tolerantlıq səviyyəsi də buna imkan verir. Üstəlik, udilərin kompakt şəkildə yaşadığı bu məkanda kilsə də var. Bu istiqamətdə artıq müəyyən addımlar atmışıq. Biz Qüdsdə xaç suyuna salınmışıq.

İkinci addım icma üzvlərinin təhsili ilə bağlıdır. Biz daha çox Şərq kilsələrində təhsilə üstünlük veririk. Əsas odur ki, dindarlar ibadət edə bilsinlər, kilsə o zaman fəal olur. Yaranmış şəraitdə biz Alban Apostol kilsəsinin dirçəlişini elan edə bilərik. Lakin burada əsas məsələ xeyir-duadır, yəni əlqoyma (adqoyma) prosesi. Bilirsiz ki, 1836-cı ildən sonra bu proses qırılıb. Buna qayıtmağın yolu Şərq kilsələrindən keçir, çünki Alban Apostol kilsəsi özü də Şərq kilsəsi olub. Fikrimcə, bizə ən yaxını Suriya kilsəsidir. Bu proses boyunca biz tələsməməli, kilsə qanunlarını rəhbər tutmalıyıq. Alban Apostol kilsəsini qanun çərçivəsində bərpa etməliyik. Nəzərinizə çatdırım ki, son 10 ildə bu istiqamətdə müəyyən işlər görülüb, dini kitablar, liturgiya udi dilinə tərcümə olunub. Bununla belə, dini rütbəmiz olmadığından biz ibadət apara bilmirik. Yalnız vəftiz (xaç suyuna salınma) ayinini yerinə yetirə bilirik, buna səlahiyyətimiz var.

Bu masa ətrafına toplaşanların əksəriyyəti albanşünas olduğundan sizdən xahiş edirəm: alimlərimiz bizdən köməyini əsirgəməsin. Problemlə bağlı elmi-tədqiqat mərkəzləri təşkil olunmalıdır. YUNESKO-da xaçkarlar məsələsi gündəliyə salınanda yalnız bizim icma auditoriyaya tarixi həqiqətləri çatdırmağa çalışırdı. 17 beynəlxalq təşkilat orada ermənilərin mövqeyini müdafiə edirdi. Bizə bu mövzuda Azərbaycanın sözünü beynəlxalq arenada deyə biləsi mütəxəssislər lazımdır. Qrabar dilini bilən tədqiqatçılar lazımdır. Qədim mənbələr oxunmalıdır, Alban Apostol kilsəsinin tarixinə aydınlıq gətirilməlidir. Biz bilməliyik ki, bu, Azərbaycanın qədim mədəni irsidir. Qonşular bu irsə sahib çıxmaqla torpaqlarımıza qarşı iddialarını əsaslandırmaq istəyirlər, Qarabağın tarixini saxtalaşdırırlar.

Fəridə Məmmədova ***(tarix elmləri doktoru, AMEA-nın müxbir üzvü):***

– Mənim fikrimcə, Robert Mobilinin təklifinin reallaşmasına – mənbələri oxuya bilən mütəxəssislərin hazırlanmasına çox vaxt gedəcək. Nəzərə alsaq ki, Qafqaz Albaniyasını öyrənən mütəxəssislərimiz var və onlar öz araşdırmaları ilə sözlərini deyiblər, üstəlik, mən özüm də qrabar dilini bilirəm, belə mütəxəssislərin hazırlanmasına elə böyük ehtiyac yoxdur.



Artyom Kuranov ***(filologiya üzrə fəlsəfə doktoru, Moskva şəhərindəki "Udi icması"nın nümayəndəsi – Rusiya):***

– Mən Robert Mobilinin fikrini müdafiə etmək baxımından yox, sadəcə reallıqdan çıxış etmək istəyirəm. Fəridə xanım, siz bilirsiz ki, hər hansı problemin öyrənilməsində mənbələrin rolu danılmazdır. Gerçəkliyi öyrənmək istəyiriksə, mənbələr orijinaldan, yəni yazıldığı dildə oxunmalıdır, tərcümədə yox. Robert Mobili də bunu nəzərdə tutur. Erməni mənbələrini orijinaldan oxumaq daha məqsədəuyğundur, çünki mütəxəssislər bu mənbələri oxuyarkən bir sıra ilkin informasiyaların yoxa çıxdığına şahid olurlar. Bu da ondan irəli gəlir ki, erməni mütəxəssislər tərcümə zamanı mənbəni ya öz maraqlarına uyğun şəkildə şərh edir, ya da bəzi parçaları ümumiyyətlə tərcüməyə salmır, onları bilərəkdən məhv edirlər. Məqsəd də budur ki, hansısa xalqın, ya dinin tarixində vakuum yaransın. Alban Apostol kilsəsinə münasibətdə biz bunu görürük. Bu yolla ermənilər öz maraqlarına, məqsədlərinə uyğun qondarma tarix yazırlar.

Bu bir faktdır ki, azərbaycanlılar Qafqaz Albaniyası əhalisinin xələfləridir. Azərbaycanda alban tarixinə ciddi diqqət yetirilməsi olduqca təqdirəlayiq haldır. Məsələnin ən mühüm cəhəti budur ki, Azərbaycanda tarixin öyrənilməsi obyektiv mövqedən aparılır, tarixi proseslər təhrif olunmur, tarixi faktlarla manipulyasiya edilmir və ciddi elmi yanaşma sərgilənir. Son illər bu mövzu ilə bağlı keçirilən müxtəlif elmi konfranslarda iştirak etmişəm, Azərbaycan albanşünaslarının çıxışlarını dinləmişəm. Bunu xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan alimlərinin tədqiqatları elmi faktlara söykənir, onlar tarixin təhrif olunmasına, faktlarla manipulyasiyaya əsla yol vermirlər. Bunun da nəticəsində Azərbaycan alimləri Qafqaz Albaniyası tarixinin obyektiv mənzərəsini yarada biliblər. Sonda mən bizə göstərilən diqqət və qayğıya görə bütün udilər adından Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə öz minnətdarlığımı bildirirəm.



Qafqaz Albaniyasına aid abidələr



Abuzər Ələkbərov ***(tarix üzrə fəlsəfə doktoru):***

– Mənim fikrimcə, Qafqaz Albaniyasında xristianlıq məsələsi çoxşaxəli mövzudur. Xristianlığın burada yayılması, həvarilər dövrü, daha sonra dövlət dininə çevrilməsi, ərəb Xilafəti dövründəki durumu, 704-cü il hadisəsi, 1836-cı ilə qədər baş verənlər – bütün bunlar Azərbaycan tarixinin öyrənilməsi vacib mühüm məsələlərindəndir. Bu problemi araşdırarkən onun siyasi aspektini də nəzərə almaq lazımdır. Atropatena zərdüştilik vasitəsilə Sasanilərə bağlı idisə, Qafqaz Albaniyası dini-ideoloji baxımdan Sasanilərdən uzaq olduğuna görə siyasi baxımdan da ondan qopmağa çalışırdı. Düşünürəm ki, bu kimi məsələləri daha geniş auditoriyada müzakirəyə çıxarmağın zamanı gəlib çatıb. Bu müzakirələr sonradan öz yerini maariflənməyə verməlidir ki, problemin öyrənilməsinin yeni mərhələsinə adlaya bilək.

Təvəkkül müəllim söylədi ki, xaçların izahını vermək, onların etimologiyasını öyrənməklə bağlı işlərə yüz il öncə başlanıb. Bir sıra antropoloq, etnoqraf, tarixçi və arxeoloq bu məsələni araşdırıb. Məşhur fransız tədqiqatçısı Jorj Dümezil ötən əsrin 40-cı illərində nəşr etdirdiyi "Qafqaz albanları və azərbaycanlıların etnik-mədəni əlaqələri" adlı tədqiqat işində xaçkarlar haqda maraqlı məlumat verir.

Alim bu sözü udi dilində "ay" mənası verən "xaş" sözü ilə əlaqələndirir. Daha sonra K.V.Trever öz tədqiqatlarında bu ideyanı inkişaf etdirib, digər görkəmli sovet alimləri – Z.İ.Yampolski və başqaları da bu məsələyə diqqət yönəldiblər. Onların araşdırmaları belə bir həqiqətə işıq salır ki, xaç yalnız xristianlıqla bağlı bir rəmz deyil, bu simvol xristianlığa qədər də mövcud olub. Qafqaz Albaniyası tarixinə dair arxeoloji tapıntılar da bu fikri təsdiqləyir.



Xudavəng monastır kompleksi (VI-XII əsrlər), Kəlbəcər rayonu, Azərbaycan Respublikası.

İki fikir dünyası qarşı-qarşıya

Umberto Eko ilə kardinal Karlo Martininin dialoqu

(İkinci hissə)



Dünya 2000-ci ilə adlamaq ərəfəsindəykən İtaliyanın "La Correra de la Serra" qəzeti məşhur alim-yazıçı Umberto Ekoya və məşhur din xadimi, ilahiyyatçı alim kardinal Karlo Martiniyə bir müzakirə silsiləsində iştirakı təklif edir. Tərəflər təklifi məmnuniyyətlə qəbul edirlər, nəticədə dövrümüzün ən maraqlı, ən dərin fəlsəfi məktublaşmalarından biri ortaya çıxır. Qərb fikir dünyasında böyük rezonans doğurmuş bu məktublaşma ən həssas mövzulara yeni yanaşmaları ilə diqqəti çəkib.

Umberto Ekodan kardinal Martiniyə

İnsan həyatı nə vaxt başlayır?

Dəyərli Karlo Maria Martini!

Razılaşdırdığımız proqrama əsasən yazışmalarımıza davam etmək zamanı gəldi. Bu fikir mübadiləsinin əsas məqsədi inanc sahibi olmayan sıravi insanlarla katoliklər arasında ortaq nöqtələri tapmaqdır (Oxuculara sizin bu yazışmalara kilsə mənsubu kimi yox, inanclı və mədəni bir insan kimi qatıldığınızı yenidən xatırlatmaq istəyirəm). Mənə yenə də maraqlıdır ki, mübahisələrimizi ortaq inanclarımızla məhdudlaşdırmaq məcburiyyətindəyik, ya yox? Görəsən, birbirimizdən edam cəzası, ya da soyqırımı haqqında nə düşündüyümüzü soruşmağın faydası varmı? Məncə, bu cür suallar bu mövzularda eyni fikirdə olduğumuzu müəyyənləşdirməkdən başqa bir işə yaramayacaq. Ona görə də yazışmaları-

mızın həqiqətən məhsuldar olması üçün razılığa gəlinməmiş mövzulardan danışmaq daha yerinə düşər. Amma bu da kifayət deyil. İnancsız bir insan Müqəddəs Ruha inanmasa da, katolik inanc daşıyıcısıdır. Amma bu vəziyyət də – illah da fərqli inanca sahib insanlar arasında – anlaşılmazlıq olduğunu göstərmir. Əslində, problem anlaşılmazlıqlardan siyasi və sosial fikir ayrılıqlarına çevrilə biləcək bəzi dərin toqquşmaların ortaya çıxmasındadır.

Bu cür mübahisəli məsələlərdən biri də abort və yaşamaq haqqı ilə bağlıdır.

Bu kontekstdə problemi həll etmək üçün əvvəlcə opponentlər durduqları yeri göstərməli və qeyri-müəyyən ifadələrdən qaçmalıdırlar. Sual verən şəxs həm öz baxış bucağını ortaya qoymalı, həm də opponentindən nə gözlədiyini açıqlamalıdır. Buna görə də əvvəlcə deməliyəm: indiyə qədər heç bir qadın məndən hamilə qaldığına görə ona abort etdirməyə icazə verməyimi istəməyib. Əgər belə bir şey olsaydı, onu bu qərardan daşındırmaq üçün əlimdən gələni edərdim. Bir uşağın doğulması möhtəşəm hadisə, hamımızın qəbul etməli olduğumuz bir möcüzədir. Düşünməyin ki, öz etik fikirlərimi (sahib olduğum hisləri) insanlara zorla qəbul etdirməyə çalışıram. Qətiyyən! Nə sizin, nə də mənim bildiyim elə anlar var ki, o anlarda qadının öz bədəni, duyğuları və gələcəyi ilə bağlı qərar verməyə haqqı çatdığını düşünürəm (Buna görə də ehtimallarımı söyləməkdən çəkinirəm).

Digər tərəfdən, hər insanın yaşamaq haqqı var. İnsana başqasını, hətta özünü (özünümüdafiə söhbətinə girməyəcəyəm) öldürməyə icazə vermiriksə, kiminsə başlayan bir həyatı bitirməsinə də icazə verə bilmərik.

İkincisi, deməli olduğum başqa bir şey də var: sizdən öz düşüncələrinizi, ya da kilsənin təlimlərini dilə gətirməyinizi istəmək etik olmaz. Bunun əvəzinə, sizi aktual doktrina haqqında düşüncələrinizi bildirməyə dəvət edirəm. "Həyat bayrağı" dalğalananda insan həyəcanlanır, xüsusilə də inancsızların ruhu (ateist fikirləri nə qədər "dərin" olur-olsun) hərəkətə gəlir, çünki heç bir metafizikaya inanmayan bu insanlar üçün Həyat fikri, Həyatın dərki böyük önəm daşıyır və bəlkə də ehtimali bir etika sisteminin yeganə mənbəyini təşkil edir. Buna baxmayaraq, bu, çox da qeyri-müəyyən, fərqli və ya indiki məntiqçilərin təbirincə, "çılğın" vəziyyət sayılmır. Antik yunanların da dediyi kimi, həyat zəka simptomlarının yox, hissi simptomların, hətta təbiət ruhunun meydana çıxmasıyla başlayır. Məsələn, indinin özündə Təbiət Ananın – dağların, vulkanların həyatı olduğuna inanan "radikal ekoloqistlər" var. Bu ekoloqistlər iddia edirlər ki, təhdid altına düşmüş planetin yaşaması üçün insan irqi məhv olmalıdır. Heyvanların həyatını qorumaq üçün bitkilərin həyatını fəda edən vegetarianlar və havadakı gözəgörünməz mikroorqanizmləri udub öldürməmək üçün ağzını yumub gəzən şərqli sofistlər var.

Bu yaxınlarda keçirilən bir konfransda afrikalı antropoloq Harris Memel-Fote Qərb dünyasının ortaq düşüncəsini "cosmophagic" sözüylə ifadə etmişdi (çox gözəl termindir: biz həmişə kainatı tükətmək istəmişik). Artıq bir qərar vermək vaxtıdır (bəzi ölkələrdə müzakirələrə də başlayıblar): insan həyatda qalmaq üçün təbiətə nə dərəcədə müdaxilə edə bilər və təbiətin yaşaması üçün nələri etməlidir? Bu iki məqam çox vacibdir. Bu cür müzakirələrin aparılmasına

səbəb odur ki, ortaq qaydalar yoxdur və onları müəyyənləşdirmək lazımdır. Məncə, bəzi ifrat yanaşmaları çıxmaq şərtilə biz daima həyata hörmət anlayışından danışırıq (Və bu müzakirələr adətən ağıldan çox, hislərimizdən dəstək alır).

Bir donuzun öldürüldüyünü görəndə çoxumuzun tükü biz-biz olur, amma donuz ətini məmnuniyyətlə yeyirik. Parkda gəzəndə çalışıram tırtılları əzməyim, amma iş milçəklərə gələndə tərəddüd etmirəm. Balarıları ilə eşşəkarılarını bir tutmuram (hər ikisi təhdid yaratsa da, birincinin mənə faydası var, ikincinin yox). Deyə bilərsiniz ki, biz bitkilərin və insanların həyatını dərk eləyəndə seçim edir, insan həyatını başqa cür dəyərləndiririk. Bu məsələ teoloqların və filosofların beynini əsrlərdir məşğul edir. Əgər təsadüfən əhliləşdirilmiş, ya da geni dəyişdirilmiş bir meymun çıxıb kompüterdə məntiqli cümlələr yazsa, danışsa, hislərini ifadə etsə, riyazi məsələləri həll eləsə, məntiqə uyğun normal reaksiyalar versə, görən, onu təxminən insan kimi qəbul edərdikmi? Görəsən, o meymuna mədəni haqlar verərdikmi? Belə bir şey olardımı, axı o düşünə bilir, sevə bilir. Sevə bilən hər varlığın insan olması isə vacib deyil, çünki heyvanların da öz balalarını sevdiyini bilirik.

İnsan həyatı nə vaxt başlayır? Görəsən, varlığın yalnız öz mədəni mühiti onu bəşəriyyətə qazandırandan, ona danışmaq və düşünmək qabiliyyəti verəndən sonra insana çevrildiyini (Akvinalı Fomaya görə, bunlar, yəni xarici təsirlər bizim düşünməyimizə yardım edən, insanı insan eləyən faktorlardan biridir), yeni doğulan bir insanın isə çağa olduğuna görə öldürülə biləcəyini müdafiə edən bir inancsız varmı? (Spartalıların adətlərinə əhəmiyyət verməyin).

Deyəsən, yoxdur. Hamı yeni doğulmuş uşağın insan olmaq yolunda irəlilədiyini bilir. Bəs yaxşı, bu nöqtədən geriyə nə qədər gedə bilərik? Əgər həyat və insanlıq toxumda (hətta genetik strukturumuzda) varsa, spermanın boş yerə xərclənməsi cinayət deyilmi? Amma bunu nə şeytana uymuş bir gənci günahdan arındıran xoşməramlı keşiş, nə də Müqəddəs Kitab deyir. "Əhdi-ətiq"in birinci kitabında Qabilin günahı müqəddəs bir lənətlə cəzalandırılır və Habil həyatvermə vəzifəsinə laqeyd yanaşdığı üçün öldürülür. Digər tərəfdən, sizin də yaxşı bildiyiniz kimi, kilsə Tertullianın ruhun (və əzəli günahın) döllə birgə bədənə keçdiyini müdafiə edən tradusionizm konsepsiyasını qəbul etməyib. Akvinalı Foma bu konsepsiyanı mənəvi tradusionizm şəklində qəbul etmişdi. Amma zaman ötdükcə qəbul edilən təlim kreasionizm oldu. Kreasionizm təliminə görə, Tanrı ruhu birbaşa hamiləlik dövründə dölə verir.

Akvinalı Foma bunun səbəblərini və necə baş verdiyini detalları ilə açıqlayıb, dölün bütün mərhələləri haqqında şərhlər yazıb, yalnız həmin mərhələləri keçəndən sonra dölün ruhu qəbul etməyə hazır olduğunu deyib (Mövzumuzla əlaqədar onun "Summa Contra Gentilles"dəki təsirli düşüncələrini bir müddət əvvəl yenidən oxudum). "İnsanlaşma"nın hamiləliyin hansı mərhələsində baş verdiyi söhbətinə keçməyəcəyəm. Demək istəyirəm ki, xristian inancının təməl sualı belədir: hələ ana bətninə bağlı bir həyat forması, torpağın altındakı toxum kimi işığa çıxmağı arzulayan bir varlıq nə vaxt düşünə bilən bir heyvan, bir öləri məxluq sayıla bilər? İnancsızlar da eyni sualla qarşı-qarşıyadır, insan həmişə bu ehtimaldan doğulur. Mən bioloq deyiləm (teoloq da deyiləm) və bu başlanğıc

mərhələnin vaxtı barədə fikir yürüdə bilmərəm, hətta belə bir aralıq mərhələnin olub-olmadığına da əmin deyiləm. Heç bir fəlakət nəzəriyyəsi bizə bir qırılma nöqtəsinin, ani bir partlayış anının olub-olmadığını deyə bilməz. Bəlkə də bildiyimiz eləcə yeni doğulmuş uşağın bir prosesin nəticəsi olmasından ibarətdir. Bundan o yana keçə bilmirik. Ona görə də həmin prosesin getdiyi dövrdə ona müdaxilə etməyə haqqımızın olub-olmadığı və ya hansı mərhələdən sonra müdaxilə etməyə haqqımızın çatmadığı barədə suallara cavab vermək mümkün deyil. Deməli, abort qərarı əsla verilməməlidir. Yoxsa ana öz vicdanı və insani hisləriylə üz-üzə qala bilər.

Dediyim kimi, sizdən rəsmi bir bəyanat gözləmirəm. Mən sizdən daha çox insan cəmiyyətinin bir parçası kimi kimliyimizi müəyyənləşdirən və əsrlərdən bəri müzakirə olunan teoloji bir mövzuyla bağlı şərh istəyirəm. Artıq teologiya özünü Aristotel fizikasıyla yox, təcrübəyə əsaslanan modern elmin konkretliyi ilə (və qeyri-müəyyənliklərilə!) ölçdüyü üçün, maraqlıdır, görəsən, bu teoloji mübahisənin indiki dövrdə yeri nədir? Bu cür suallar özüylə birgə təkcə abort məsələsini gətirmir. Gen mühəndisliyinin və bioetikanın indiki zamanda həm inananlar, həm də inancsızlar arasında hərarətlə müzakirə edildiyini siz də bilirsiniz. Modern bir teoloq klassik kreasionizm təlimi ilə müqayisə edəndə bu müzakirənin harasında dayanır?

Həyatın nə olduğu və haradan başladığı sualı bizi çox maraqlandırır. Əmin ola bilərsiniz: bunlar əxlaqi, intellektual və hissi baxımdan mənim üçün də çox ağır suallardır.

Kardinal Martinidən Umberto Ekoya

İnsan həyatı Tanrı həyatının bir hissəsidir

Dəyərli Umberto Eko!

Razıyam ki, yazışmalarımızın məqsədi inancsızlar və katoliklər arasında ortaq müzakirə müstəvisi yaratmaq, razılıq əldə olunmayan mövzulara, xüsusilə də siyasi və sosial toqquşmalara gətirə biləcək dərin anlaşılmazlıqlara işıq salmaqdır. Qızğın müzakirələrin altında yatan anlaşılmazlıqlarımızı dəyərləndirmək cəsarətini göstərə bildikcə Sizinlə həmfikirəm. Bu cəsarəti göstərə bilsək, həqiqi fərqliliklərimizi ortaya çıxarmaq daha asan olacaq. Təhlilə varanda səmimi olmalı, hər şeyi aydınlaşdırmaq istəyilə irəliləməliyik. Buna görə də Həyatla bağlı açıqlamanızı çox bəyəndim: "Bir uşağın doğulması möhtəşəm hadisə, hamımızın qəbul etməli olduğumuz bir möcüzədir".

Bu nöqtədən hərəkət etdikdə Həyat məsələsinin (mən də, Sizin kimi, bu sözün baş hərfini böyük yazıram), xüsusilə abortla bağlı qanunların ciddi müzakirə mövzusu olduğu aydınlaşır. Və məhz bu məqamda bəzi qeyri-müəyyənliklər ortaya çıxır. İnsan həyatından danışmaq, insan həyatını etik baxış bucağı ilə qorumağa çalışmaq ayrı şeydir, mədəni və siyasi haqlar baxımından hansı qanunun bu dəyərləri lazımi şəkildə qoruya biləcəyini götür-qoy etmək başqa şey.

Sizin "Həyat bayrağı dalğalananda insan ruhunu hərəkətə gətirir" ifadəniz də bir az qarışıqdır. Ümid edirəm ki, bayraqların böyük idealların simvolu olduğu, amma bu böyük idealların içindəki mürəkkəb problemləri çözmək baxımından çox da effektiv olmadığı haqda düşüncəmə şərik çıxacaqsınız. Buna görə də diqqətlə, səbirlə və həssaslıqla düşünmək lazımdır. Sərhədlər həmişə təhlükəlidir. Uşaq vaxtı gəzdiyim Vale d'Aosta sərhədindəki dağları xatırlayıram. Baxıb düşünürdüm: iki dövlət arasında sərhəd haradadır? Bu sərhədi necə çəkmək olar axı? Amma yenə də dövlətlər vardı və sərhədlər çox dəqiq müəyyənləşmişdi.

Yanlış anlaşılmağa üçüncü səbəb isə Həyat kəlməsinin geniş mənasıdır – "analoji" istifadəsi (sxolastlar kəskinliklə bu sözü seçərdilər; bu işarəni vuranda qətiyyən narahatlıq hiss etmirəm, çünki "Summa Contra Gentiles"in bəzi hissələrini təzədən oxuduğunuzu demisiniz) və "insan həyatı" terminin məhdud istifadəsi arasındakı məna xaosudur. Yerin üstündəki və torpağın altındakı hər canlı məxluq, eyni zamanda nəfəs alıb-verən və daim hərəkətdə olan "Təbiət Ana" da birinci təyinə aiddir. Milanda cümə axşamları oxuduğumuz Genesisin birinci hissəsinin mövzusu olan Ambrosian dini nəğməsi belədir:

Dördüncü gün Tanrının sulardan
Gətirdiyi bütün həyatlar:
Dənizdəki soxulcanlar və balıqlar,
Havada uçan quşlar.

Hər nə qədər mənası mədəni, hətta dini fərqliliklərə yol açsa da, Həyat kəlməsinin geniş istifadəsindən danışmayacağam. Bu müzakirədəki əsas etik mövzu "insan həyatı"dır.

Bu məqamda bir açıqlamaya ehtiyac duyuram. Katoliklər arasında insan həyatının ən böyük dəyər olduğu ilə bağlı yanlış bir inanc var. Əslində bu qənaət Müqəddəs Kitabın bizə dediyi ilə uyuşmur: "Bədəni öldürüb ruhu öldürə bilməyənlərdən qorxmayın" (Mattanın müjdəsi, 10:28). Müqəddəs Kitabda böyük dəyər daşıyan həyat fiziki yox, ruhani həyatdır. "İncil"də bu anlayışlar yerinə "bios" və "psyche", insana verilən ruhani həyat üçün isə "zoe" sözündən istifadə olunur. Bu üç termin "Əhdi-cədid"də aydın şəkildə təyin edilib və əvvəlki iki termin üçüncüyə bağlıdır. "Ruhunu (psyche) sevən onu zay edər. Bu dünyada ruhunu (psyche) heçə sayan isə onu əbədi həyat (zoe) üçün saxlar" (Yəhyanın müjdəsi, 12:25). Deməli, "Həyat" deyəndə əvvəlcə Tanrının özü olan ali və müzakirəsiz Həyatı və Mövcudluğu nəzərdə tutmalıyıq. Bu, İsanın özünə aid etdiyi Həyatdır. İsa peyğəmbər "Yol da, həqiqət də, həyat da Mənəm" (Yəhyanın müjdəsi, 14:6) deməklə hər qadını və kişini bu Həyatı sürməyə çağırır. Bu dünyada ən böyük dəyər ruhani həyat sürən insandır.

Xristianlıq cismani həyatın dəyərini belə başa düşür: Tanrı həyatına qovuşmalı olan insan həyatı. Xristianlar üçün ilk insanlaşma simptomlarından sonra insan həyatına hörmət etmək daxildən gələn bir hiss deyil, daha çox konkret bir məsuliyyətin yerinə yetirilməsidir. Bu məsuliyyətin kökündə insanlara yax-

şılıq etmək, ya da insani dəyərləri qorumaq düşüncəsindən çox müqəddəs çağırışa verilən cavab durur.

Digər tərəfdən, "Hamı yeni doğulmuş uşağın insan olmaq yolunda irəlilədiyini bilir" fikrinizə tamamilə şərikəm. Amma "bu nöqtədən nə qədər geri gedə bilərik?" İnsan olmağa "keçid" nə vaxtdan başlanır? Fomanın həyatın inkişafıyla bağlı incə təsbitlərini də çox düzgün şərh etdiniz. Mən nə filosofam, nə də bioloq. Bu cür suallarla əlləşmək istəmirəm. Amma hamımız bilirik ki, bu gün insanın inkişaf dinamikasını daha yaxşı başa düşürük və genetik xüsusiyyətlərin inkişafın bir mərhələsində müəyyənləşdiyindən ən azı nəzəri baxımdan xəbərdarıq. Hamiləlik nəticəsində yeni bir varlıq doğulur. Burada "yeni" onu əmələ gətirmək üçün birləşən iki elementdən çox fərqli, başqa bir şey mənasını verir. Bu inkişaf prosesinin axırında "hamımızın qəbul etməli olduğumuz təbii bir möcüzə" – uşaq dünyaya gəlir. Əvvəldən haqqında danışdığımız varlıq, bax, budur. Kimliyin davamlılığı həmişə mövcuddur.

Bütün bu elmi, fəlsəfi mövzulardan kənarda əsas məsələ Tanrının adıyla xitab etdiyi bu varlığın başlanğıcdan böyük bir hörmətə layiq olmasıdır. Burada yaşamaq haqqından heç danışmayacağam, çünki bu, süni bir müzakirə kimi görünə bilər. Möhtəşəm və fərdi bir sevginin məhsulu olan həqiqi məsuliyyət hissindən, "özgəsinə" qarşı bəslənən məsuliyyətdən danışırıq. Bu şəxs sevilən və şəfqət bəslənən bir varlıqdır. Sevgi və şəfqət tələbatının hər hansı səbəbdən ödənməməsi ağrılı nəticələr verə, dərin yaralar vura bilər. Biz bu ağrıların, yaraların yaranmaması üçün mümkün hər şeyin edilməli olduğuna inanırıq. Bu cür yaralar çox, çox çətin sağalır. Yaraların ağrısını isə dünyanın ən məsum və küsəyən varlığının əmanət edildiyi qadınlar çəkməli olacaq.

Əgər bu, insani və etik problemdirsə, təbii şəkildə mədəni problem də budur ki, belə məsələləri həll etmək üçün cəmiyyətə və insanlara necə yardım olunmalıdır. Görəsən, vicdanı qarşısında hesabat verməyə dayanmış insanlara necə kömək etmək olar?

Məktubunuzu belə bitirmisiniz: "Həyatın nə olduğu və haradan başladığı sualı bizi çox maraqlandırır". Tamamilə razıyam – ən azından "həyatın nə olduğu" mövzusunda. "Haradan" başladığı sirr olaraq qalsa da, "nə olduğu" həyatın üzərinə qoyulan dəyərlərdən bəllidir. Ən dəyərli şeylər isə özüylə bərabər dərin hörmət də gətirir.

Tərcümə etdi: Qismət

Poeziya guşəsi



Mahir N.Qarayev

Şair, tərcüməçi, publisist Mahir Niyazi oğlu Qarayev 1958-ci ilin 17 iyulunda doğulub. 1975-ci ildə Göyçay şəhər 1 saylı orta ümumtəhsil məktəbini, 1985-ci ildə Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Azərbaycan Milli Elmlər Akademiyasının "Türkologiya" elmi-kütləvi dərgisində, "Elm" və "Tarix" qəzetlərində işləyib, Milli Məclisin orqanı olan "Azərbaycan" qəzetində çalışıb. 1994-96-cı illərdə "Yol" ədəbi qəzetinin redaktoru olub, daha sonra üç il Mədəniyyət Nazirliyinin mətbuat xidmətinin rəhbəri vəzifəsində çalışıb. 2014-cü ildən Nazirlər Kabineti yanında Tərcümə Mərkəzinin dil üzrə mütəxəssisidir. 1994-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. "Tənhalıq" (2008) və "Poetik silsilələr toplusu" (2011) adlı iki kitabın müəllifidir. Onlarla dünya şair və yazıçısının əsərlərini dilimizə tərcümə edib.

VƏSİYYƏT MƏQAMLARI

SİLSİLƏSİNDƏN

Birinci məqam

Sevgi sevgiylə
Dərd dərdlə unudulur...[1]

Oğlum! Balam!
Mənə qalmayan, məndən qalan!
Ölən kimi,
üzlərdən-gözlərdən çəkilən kimi
unut, unutdur məni!

[1] Epiqraflar Vaqif Bayatlıdandır

Mən ömrüm uzunu
ha çalışdım-vuruşdum –
unutdurammadım özümü...
Neylədim –
üzlərdən çəkiləmmədim,
Neylədim –
gözlərdən yayınammadım;
Keçəmmədim
üz vuranın üzündən,
Qaçammadım
göz qoyanın gözündən...
Sinəmə dağ çəkdilər,
divan tutdular mənə
hara qaçsam haxlayıb,
üzümdən göz çəkməyib, gözümdən getməyənlər;
Boğazıma çökdülər,
qan uddurdular mənə
qulağını şəkləyib,
qanıma yerikləyib məni unutmayanlar...
Hamıdan çıx heyfimi!
Hamıdan al qanımı!
Ölən kimi,
qonur gözlərimə qara torpaqlar tökülən kimi
unut, unutdur məni!
Unutdur –
unutmayanlara qan uddur!!!
Məni söz öldürdü,
bir şair sözü –
məni göz tutmazdı, söz məni tutdu!
Bir gül qoxusutək,
əcəl yuxusutək tez məni tutdu!
Bir qəfil ox kimi çıxdı yayından,
göydə durna kimi düz məni tutdu!
Gözüm açıq qaldı –
çətin bağlana...
ağzımda son sözüm qaldı yarımçıq!
Neyləmək?!
Neyləmək?! Neyləmək daha?!
Üzümə oxşayan qərib üzünlə,
Gözümə oxşayan qonur gözünlə,
səsinlə-sözünlə,
dərdlə-hüznlə unutdur məni;
İnsan insanla,
dərd dərdlə unudulduğu kimi,

Musa İsayla,
İsa Məhəmmədlə unudulduğu kimi –
özünlə,
özünlə unutdur məni...

İkinci məqam

Qonur gözlərimə
qara torpaqlar tökülməmiş
unutdular məni, unutdular...

Şair dostum! Qatil dostum!
Gözün aydın olsun, sözün mübarək!
Elə sözünlə də
sonuma çıxdın,
daha deyiləsi sözüm qalmadı;
Yetirdim –
bircə yol yoluna çıxdım,
İtirdin –
yolunda izim qalmadı...
Di buyur,
sözündən itir məni də –
unut və unutdur xatirəmi də!
Unut şah şeirinin
qəfil yaddan çıxan misrası kimi;
Unutmaq feilinin
hamıdan peşəkar ustası kimi!
Unut məni –
qonur gözlü şairim,
qara maskalı qatilim!
Müstəntiq
ala gözlərini ağartsa da,
qara gözlərini bərəltsə də,
durna kimi çığırtsa da,
zurna kimi mələtsə də;
Lap hirslənib
kirpiyinlə od götürtsə,
kəlbətinlə dırnağını çıxartsa da;
Yüz hiyləylə səni şoka,
şeir yazan barmağını toka salsa belə –
yadına düşməsin adım...
Amandı!!!
Adımı yazmadığın
o son şeiri də yandır,

külünü ver küləklərə –
fələklər də duymasın;
Gecələr qaranlığa üz tutub,
dua pıçıldayanda
adımın bircə hərfini də işlətmə –
mələklər də duymasın...

Üçüncü məqam

Ən gözəl xatirə də
ən acı göz yaşıtək udulur –
udulur, unudulur...

Dənizlər giləsi!
Sular sonası!
Qağayı səsindən diksinən mələk!
Daha neyləmək?!
Unutmaq çətindir...
Döz, unut məni!
Amma unutmağı sona saxlama,
sonra unudarsan, yadından çıxar –
yadından çıxmamış tez unut məni...
Neyləmək?!
Neyləmək?! Neyləmək daha?!
Çox – sənə zor gələr, çox-çox unutma,
Özünü zorlama, az unut məni!
Acı göz yaşına nə gərək daha?!
Gözünü korlama, sus, unut məni!
Qara təbaşirlə, bəyaz kömürlə
qismətə yazılan hər nə ki vardı –
hamısı pozuldu, bitdi ömürlə...
Mənli xatirələr bir içim sudu,
bir udum havadı...
İç!..
Ud!..
Unut sən!..
Unutma,
hamısı zəli kimidir –
yaxandan əl çəkməz yaxa tanıtsan,
yuxundan əl çəkməz gözünü yumsan...
Üzdən unutmağın ağrısı çoxdur,
dibindən-kökündən kəs, unut məni.

Ən pisi odur ki, yaxşısı yoxdur –
yaxşısı budur ki, pis unut məni...
Hər necə
unutsan, fərq etməz mənə,
istər kirimişcə, istər qəzəblə –
özün bax: ya o cür, ya bu cür unut;
Hər gecə
yüz dəfə say birdən minə,
qatla barmağını min bir hesabla –
sübhəcən ya tək-tək, ya cüt-cüt unut!
Axşam çətin olsa, səhəri gözlə –
bir az küs, bir az da...
bez, unut məni;
Qəfil alınmasa, özünü üzmə –
unut asta-asta...
gec unut məni!
Neyləmək?!
Neyləmək?! Neyləmək daha?!
Bir kimsə duymadan
qumunu sevdiyin dəniz taparsan,
adımı yazarsan boz qumun üstə –
köpüklü dalğalar yuyub aparsın...
Gəlib yenə yazarsan,
yenə yuyar dalğalar;
...hər dəfə sən yazarsan,
hər dəfə dalğalar yuyar...

Dördüncü məqam

Hamı səni unudanda
bu dünyada ölümlər gerçək olur...

Ay nuru!
Gün işığı!
Dəcəl, qaragöz qızım!
Mən öləndə yatmışdın,
oyatmağa qıymadım...

Yuxudan duran kimi
yeddi dil bilən barmaqlarınla
pozarsan adımı bütün lentlərdən,
bütün ekranlardan, internetlərdən.

Qırğı barmaqların qırılanacan,
düymələr ilişib dirənənəcən –
basarsan, cızarsan, qaralayarsan
hər nəyim vardısa ta dünənəcən!

Künc-bucağa göz yetirib,
bircə-bircə dənləyərsən quş kimi
orda-burda düşüb qalan,
hardasa ilişib qalan
gözdən qaçan hər sözümü, sətrimi.

Qırıb-çatmaqdısa – qırıb çatarsan,
cırıb-atmaqdısa – cırıb atarsan;
dartıb qopararsan hafizələrdən,
bütün yaddaşlardan vurub atarsan!

Xülasə,
bir nəfəs, bir səs, bir hənir,
bir varaq, bir sətir, bir söz qalmasın;
Elə yox edərsən varlıqdan məni –
məndən bu dünyada bir iz qalmasın!

Sonra da ya cənnət,
ya cəhənnəm saytına girərsən –
ikisindən birində olasıyam.

Ayrı harda olacam ki?!

Ya mələklərin açılan qucağında,
ya qır qazanlarının çatılan ocağında
taparsan məni.

Tez də silib atarsan məni,
süpürüb atarsan o dünyadan da!

Elə uzaqlarda itirərsən ki –
azıb çatılması da mümkün olmasın;
Elə dərinlərdə batırarsan ki –
qazıb tapılması da mümkün olmasın!..

Ən dərin arxeoloji qazıntılar belə
rast gəlməsin bircə sümüyümə də;
Yaşadığımı unudanlar –
biryolluq unutsun ölməyimi də...

Nəsr guşəsi



Nəriman ƏBDÜLRƏHMANLI

Yazıçı, tərcüməçi, publisist, ssenarist Nəriman Hacı oğlu Əbdülrəhmanlı 1958-ci ildə Gürcüstan Respublikasının Qaraçöp mahalının Düzəyrəm kəndində anadan olub. Bakı Dövlət Universitetinin Filologiya fakültəsini bitirib. Moskvada Ümumittifaq Kinematoqrafiya İnstitutunun nəzdində kinossenari kursunda təhsil alıb. Roman, povest, hekayələr və sənədli nəsrdən ibarət 11 kitabın, o cümlədən "Yalqız", "Könül elçisi", "Yolsuz", "Yolçu", "Qurban", "Taclı" romanlarının, eləcə də 50-dən çox tərcümə kitabının müəllifidir. Ədəbiyyat naminə göstərdiyi xidmətlərə görə bir sıra mükafatlara, o cümlədən 60 illik yubileyi ərəfəsində Azərbaycan Yaradıcılıq Fondunun "Ədəbiyyat adamı" mükafatına layiq görülüb. Nazirlər Kabineti yanında Tərcümə Mərkəzində çalışır.

LƏLƏ

(hekayə)

…Güman ki, məhəllənin it-pişiyindən, toyuq-cücəsindən qabaq oyanırdı. Göyün yaxası yırtılmamış qurd ulartısına oxşar harayını eşidirdim: səs iynə kimi pəncərədən keçib qulağımı deşirdi və nə qədər ağır yatsam da, oyanıb dinşək kəsilirdim; ulartıdan sonra nə baş verəcəyini dübbədüz bilsəm də, qulağımı tıxamırdım. Bilirdim ki, ulartısı qurtarınca içiboş yağ qutusunu qoltuğuna basacaq, yumurta boyda daşla qutunun arxasına döyəcləyə-döyəcləyə tanış mahnısını oxuyacaq:

–Ay lələ, e-e-e-y-y-y!

Bilirdim ki, mahnının sözləri elə burdaca qurtaracaq, qalanı onun öz aləmində nəqaratıydı və vur-tut «niy-ni-ni» sözündən ibarətiydi. Bu bircə kəlmə söz nə haqdaydı, nələri ifadə eləyirdi, bunu özündən başqa bilən yoxudu. Amma mahnının sözündə və nəqaratında nəsə adamı tərpədən, köyrəldən bir duyğu varıdı; bunu da, yəqin təkcə özü, bir də mən duyurdum.

Bilirdim ki, mahnısını oxuya-oxuya gəlib pəncərəmizin altından keçəcək, dikə qalxıb yolun qırağındakı iri göyəm kolunun dibində oturacaq, "toyunu" çala-çala mahnısını oxuyacaq. Belə vaxtlarda məhəllənin evlərinin yataq otaqları zərrə qədər də vecinə deyildi: bu otaqlarda deyinən, donquldanan, söyüb-

söylənən adamların hədə-qorxusunun bir samatdan üstünə yağacağını eyninə almırdı.

Onu da bilirdim ki, bu həkətin başlanmasından yarımca saat sonra Kərəm avtobusunu xodduyub məhəllədən çıxacaq; avtobusun səsi göyəm kolunu keçməmiş Məsmə arvad bərkdən söylənə-söylənə süpürgəçiliyini eləməyə yollanacaq; sonra dərsə gedən Səriyyənin dikdabanlarının taqqıltısı küçəni başına götürəcək, taqqıltı dikə qalxanda "toy" səsi qəfildən kəsiləcək, təzədən başlayanda daha əvvəlki şuxluğundan əsər-əlamət qalmayacaq; bundan beş-on dəqiqə keçmiş Qədiməli müəllimin öskürəyi məhləsindən çıxıb məktəbə sarı uzaqlaşacaq və oyanmış məhəllənin səsləri bir-birinə qarışıb göyəm kolunun dibindəki "toyu" batıracaq.

Gündə gözümüzün qabağındaydı, amma nə adını bilən varıdı, nə yaşını. Güman ki, qoyduqları ad əkib-doğanının, qardaş-bacısının da yadına düşmürdü, ən azı on il qabaq çaldırdıqları sünnət toyuyla birgə unutmuşdular: onda əkəni əhd elədiyi kimi, kiçik toya aşıq gətirmişdi, əməlli-başlı dəsgah düzəltmişdi. Aşıq da çalıb-çağırmışdı, köyrək-köyrək oxumuşdu: "Dedim, lələ, gəl bu yoldan qayıdaq…" Ağlayıb yorulmuş kiçik bəy göz yaşı içində qonşu qızın verdiyi konfeti sora-sora paçasının arasındakı qırmızı lentə uzun-uzadı baxmışdı və qəfildən aşığın ağzını əymişdi: "Ay lələ, e-e-ey-y-y!" Elə o vaxtdan bu hava dəşünə nə təhər yatmışdısa, dilindən düşmürdü, axırı da belə olmuşdu ki, fərqinə varmadan adını Lələ qoymuşdular; bu ayama ilk dəfə kimin ağzından çıxmışdı, xatırlayan yoxudu.

Onda üç-dörd yaşı olardı, indi bu hesabnan on üç-on dörd yaşı varıdı. Allah da ki görkəm verəndə xəsislik eləmişdi: pərtdə gözləri, palaz qulaqları, cırım ağzı – hamısı, deyilənə görə, əkəninin kefqomluğunun sonucuydu; üstəlik də, dili pəltək, beyni mafrağıydı: öz-özünə gülürdü, ağlayırdı, atılıb-düşürdü; səhərdən axşamacan ya göyəm kolunun dibində, ya da elə küçənin ortasında, torpağın içindəcə otururdu, hardansa tapdığı sınıq-salxıq oyuncaqlarını tozuntorpağın üstünə düzüb, öz aləminə qapılırdı. Allahın bu yarımamış bəndəsinə səxavətlə verdiyi bircə dözümüydü; yay-qış kir-pasaqdan rəngi bilinməyən tiyə şalvar-köynəkdə, corabsız ayağında sürütlədiyi cırıq çəkələkdə gəzirdi, bir dəfə xəstələndiyini eşidən olmamışdı; bu sarıdan onu görənlər adının yanına "bəxtəvər" sözünü də qoşurdular. "Canı elə bil komsomolun canıdı, – bunu Qədiməli müəllim deyirdi. – Allah bir yannan alanda, bir yannan da verir. Yoxsa bizimkilər kimi, üstlərindən yel əsəndə sətəlcəm olurlar, qazandığımı da dava-dərmana tökürəm". Qışın soyuq günlərində Lələnin torpaq rəngli üzü göyə çalırdı, yayın qorabişirən ayında sir-sifətində bir damcı tər də olmurdu. "Bu gədə Yer adamı döyül, – bu da Qədiməli müəllimin fərziyyəsiydi, – kosmosdan gələnlərə oxşuyur, yəqin, ona görə danışığını başa düşmürük". Televizorda Amerikanın fantastik filmlərini görənlər az qala onun sözünə inanırdılar, Lələyə ayrı gözlə baxırdılar. Məhəllənin uşaqları hərdən Lələnin başına yığışıb onu cırnadırdılar. "Lələ, orda nə var, nə yox, – dükançı Səttarın çoxbilmiş oğlu barmağını göyə uzadırdı, – bə gəmin hanı, qarajdadı?" Lələ də iri pərtdə gözlərini qaldırıb göyə baxır, öz dilində nəsə deyib gülürdü…

Kərəm hər gün yanından keçəndə yekə başını avtobusun pəncərəsindən çıxarıb "Ay Lələ, gəlsənə xalamı sana verəm!" – qışqırırdı, o da gülüb üz-gözünü əyişdirir, dilini çıxarıb acıq verirdi. "Ay lotu, dəəsən, xoşuna gəldi," – Kərəm şaqqıldayıb öz işinin dalınca gedirdi. Məsmə arvad: "Binəvanın balası elə bil küllükdən tapılıb, – deyirdi, – belə günə canmı dözər, – sonra üzünü ona tuturdu, – a qarayığvallı, əyninə bir şey geyinsənə!" Məktəbə tələsən Qədiməli müəllim başını yelləyirdi: "Allah adamın ağlını əlindən almasın, aparıb invalidlər evinəsə vermirlər, uşağı göz qabağındaca məhv eləyirlər, gənc nəslin tərbiyəsinə ziddi bu", – öz-özünə söylənirdi; onu görəndə Lələ bic-bic qırışırdı, əllərini kitab kimi gözlərinin qabağına tuturdu, guya ki, dərs oxuyur; Qədiməli müəllim də hirslə qoltuğundakı qovluğu düzəldib addımlarını yeyinlədirdi.

Məhəllənin it-pişiyi də Lələnin dostuydu, tapdığını onlarla yarı bölürdü. Amma dünyanın işlərinə qarışmasa da, düşmənsiz də deyildi, düşmənlərinin siyahısında da dükançı Səttar birinci yerdəydi. Lələnin piştaxtaya düzülmüş şirniyyata dikilən gözlərini görəndə kişinin cızdağı çıxırdı: "Əstəğfürullah, lənət sənə, kor şeytan! Belə də iş olarmı, bunun yiyəsi yoxdumu, nədi? Adam gündə neçə dəfə gələr qapıya? Köpəyoğlunun əlinnən dükanı açа bilmirəm. Ə, rədd ol burdan, gözüm səni görməsin!" Səttardan aralarındakı acıbağırsaq kimi uzanan küsünün acığını çıxmağa fürsət axtaran arvadı həmin dəqiqə qapıda peyda olur, üstünə mürəbbə çəkilmiş çörəyi göstərib gülə-gülə Lələni çağırırdı: "Ay Lələ, bir bəri dur, görüm!" Lələ də elə bil doğma anasını görürdü, irişib kirli əllərini şalvar-köynəyinə çəkir, Səttarın adam qarsalayan baxışlarına məhəl qoymadan "Ay mama!" qışqırıb irəli cumurdu. Onda Səttarın arvadı mürəbbəli çörəyi yuxarı qaldırıb şərt qoyurdu: "Ay Lələ, bir kişilən görüm..." Lələ də əlacsız qalıb, bir gözü acığından xoruz pipiyi kimi qızarmış Səttarda, o biri gözü mürəbbəli çörəkdə sinəsini qabardır, üz-gözünə hökmlü ifadə verməyə çalışırdı, çörəyi alandan sonra Səttara sarı dilini çıxardıb, göyəm kolunun dibinə çəkilirdi. Lələyə əli, arvadına hökmü çatmayan Səttar hirsini oğrun-oğrun içəri girməyə fürsət gəzən pişiyin üstünə tökürdü…

Lələnin ən intizarlı anları Səriyyənin dərsdən qayıtmağıyla üst-üstə düşürdü. Dikdabanların taqqıltısını qulağı alanda bir göz qırpımında dəyişirdi: əl saxlayıb yağ qutusunu, daşını kolun dibinə qoyurdu, şalvar-köynəyini çırpır, yalın ayaqlarını çəkələyinin içinə soxur, qədd-qamətini, sifətini düzəltməyə çalışırdı. Lələni beşikdən tanısa da, Səriyyə üzünə dikilmiş pərtdə gözlərlə rastlaşanda yerişini itirirdi, canında duyduğu gizliltini ört-basdır eləməkdən ötrü "Necəsən, Lələ? – soruşurdu, sonra sumkasını açıb, – Al sənə konfet verim, ağzını şirinlə", – deyirdi. Bu anlarda Lələnin gözlərində qəribə istək və nisgil bir-birinə qarışırdı. Səriyyənin də gözlərinin qabağına çarpayıda uzanmış, paçasının arasındakı qırmızı lentə baxa-baxa konfet soran üç-dörd yaşlı Lələ gəlir, içində qaynayan gülüşü boğub cəld aralanırdı, Lələsə konfeti ovcunda sıxıb Səriyyənin dalınca baxırdı. Qız döngədə itənəcən beləcə dururdu. Bu görüşdən bir az sonra Lələ öz "qərargahını" tərk eləyir, bir müddət küçədə görünmürdü; toyunun səsi bir də şər qarışana yaxın eşidilirdi, amma budəfəki çalmağı səhərkinə oxşamırdı, nəsə ayrı ovqatdan xəbər verirdi…

…Orta hesabla məhəllədə Lələdən məşhur bir kimsə yoxudu, xeyirdə də, şərdə də onun öz yeri, öz payı varıdı; uşağı xəstələnənlər Lələnin canının sağlamlığına həsəd aparırdılar; uşağı ağıllı olanların Lələyə ürəyi yanırdı. Elə mən özüm də hər şeydən bezəndə Lələnin xoşbəxtliyinə paxıllıq eləyirdim: "Nə vecinə, üçdə alacağı yox, beşdə verəcəyi, - deyirdim, ya da – Ağıllı olub dərd çəkincə dəli ol, dərdini çəksinlər, odey, Lələ kimi", – qənaətinə gəlirdim; amma bilirdim ki, belələri uzun yaşamır, Allahın bu günahsız bəndəsinin cəmi-cümlətanı üç-beş il ömrü qalıb…

…Neçə iliydi günlər beləcə keçirdi, payızın son ayının son bazar günüsə qəfildən hər şeyi dəyişdirdi. Həmin günün axşamı dedilər ki, Səriyyəyə elçi gəlib, onu özüynən oxuyan oğlana veriblər, yaxşı ailədəndi, özləri də şəhərin mərkəzində yaşayırlar. O günün səhəri Lələnin toyunun səsi, "Ay lələ, e-e-e-y-y-y!" mahnısı eşidilmədi, gün qalxanda da məlum oldu ki, Kərəm işə, Qədiməli müəllim dərsə gecikib. Bircə Səttarın kefi köküydü, əl-ayağı yerə dəymirdi; ola bilsin, onun bu halətinin Lələyə dəxli yoxudu, lap elə arvadıynan qısamüddətli barışmağın əlamətiydi. Günortaya yaxın dedilər, yazıq Lələ möhkəm xəstələnib, özünüsözünü bilmir. Bu xəbəri gətirən Məsmə arvad söylənə-söylənə üzü o tərəfə gedirdi: "Gədənin axırına çıxdılar, – deyirdi, – nə qarnı xörək gördü, nə əyni paltar. Yığvalı qara gəlmiş, can daşdan, dəmirdən ha döyül!.." Səttarın arvadı qoltuğunda bağlama qapıda göründü, ərinə ağızucu: "Gedim, yazığa baş çəkim", - deyib Məsmə arvadın dalınca yelləndi. Məktəbdən qayıdan Qədiməli müəllim elə bil xəbəri havadan almışdı, göyəm kolunun tuşunda addımlarını yavaşıtdı, Lələnin köhnəköşkül oyuncaqlarına baxıb başını buladı. Sanki məhəllənin havası da qəfildən dəyişmişdi, dünənkinə, srağagünkünə oxşamırdı…

Lələ o yıxılan yıxıldı. Əvvəl feldşer Məsini çağırdılar, xəstəni "müayinədən keçirib" adəti üzrə "sətəlcəmdi", – dedi, ev yiyəsiynən "bir balaca oturub" dübbədüz çıxıb getdi. Sonrakı gün uşağın düzəlmədiyini görüb həkim çağırdılar, o da xəstəyə baxıb: "Deyəsən, ciyərləri sıradan çıxıb, – dedi, – xəstəxanaya aparmaq lazımdı, amma… çətin köməyi olsun", – açıq danışdı, pulunu da alıb aralandı. Lələnin on üç-on dörd illik ağrıdan, əziyyətdən bezmiş əkib-doğanı nəsə bir yüngüllük ərəfəsindəydilər, gəlib-gedənin yanında üzə vurmasalar da, qismətləriylə barışmışdılar, oturub Allahın əmrini gözləyirdilər.

...O bazar günündən üç həftə sonra Səriyyənin toyu oldu. Lələnin əkib-doğanı da toydaydılar, xəstənin yanında Məsmə arvadı qoyub getmişdilər. Daha Lələnin səsi çıxmırdı, ağır-ağır nəfəs alırdı, sinəsindən qopan xırıltı get-gedə artırdı. Məsmə arvadın əli öz canından savayı heç yana çatmırdı. Toydakılar qayıdanda Lələni hərəkətsiz görüb yüngülləşdilər, rahatlandılar, elə bil çiyinlərindən dağ götürüldü...

Lələnin cəsədini yumaq üçün qaldıranda yastığının yaman ağır olduğunun fərqinə təkcə Məsmə arvad vardı; əlində sanballayıb üzlüyünü çıxardı və… döşəməyə səpələnən konfetləri görəndə əməlli-başlı çaşdı...

Nəsr guşəsi



Ариф ГУЛИЕВ

Ариф Зульфигар оглы Гулиев родился 3 февраля 1934-го года в городе Ашгабад. Доктор технических наук, профессор, лауреат Государственной премии Азербайджана, член Международной инженерной академии. Является главным ученым секретарем ВАК при Президенте Азербайджанской Республики.

Стакан воды

(этюд)

Недавно я побывал в Минске. Это чудесный чистый город с широкими проспектами, необыкновенно красивыми зданиями, утопающими в зелени, множеством ухоженных скверов, красивых озер с местами для отдыха и яркими детскими площадками.

Исключительная доброжелательность, внимание и приветливая улыбка сопровождают вас везде и всюду – в метро, на улице, в магазине, о чем могу без устали говорить, писать и восхищаться чудесами, встречающимися на каждом шагу.

Я хочу рассказать о маленьком эпизоде, связанном с моим пребыванием в этом чудо-городе.

Выйдя из гостиничного номера и подойдя к лифту, я вдруг вспомнил, что забыл принять таблетку. Мне не хотелось возвращаться, и я решил, что в кафе или ресторане на первом этаже отеля смогу найти стакан воды, чтобы запить лекарство.

Потому, как в кафе было много посетителей, я вошел в почти пустой уютный ресторан, где ослепительной улыбкой меня встретила девушка и предложила столик.

Я сказал, что мне только нужен стакан воды, чтобы запить лекарство. Она тут же охотно и почему-то откровенно радостно пошла за водой, обернувшись по пути с той же приятной улыбкой.

В это же время ко мне подошла администратор ресторана и не менее приветливой улыбкой также предложила столик. Когда я изложил цель моего прихода, она тут же открыла бутылку минеральной воды и протянула мне стакан с водой.

Я с благодарностью принял любезно предложенный ею стакан, объяснив при этом, что я уже попросил девушку принести мне воды, и, обращаясь к администратору, с лица которой по-прежнему не сходила приветливая улыбка, стал размеренно-доверительно рассуждать:

– Знаете, – сказал я, опять же благодарив ее за любезность, – сейчас мне принесет воды та девушка и, если я воспользуюсь вашей добротой, запью таблетку и уйду, она, мне думается, может расстроиться, поскольку уж очень охотно она хотела сделать мне добро. Я уверен, что она еще больше огорчится, когда узнает, что причиной всему вы, и замкнется в себе, так как не посмеет внешне выразить вам свое удивление.

Я сказал, что все-таки дождусь ту девушку, дабы не игнорировать ее добрые намерения.

Администратор несколько растерянно удивилась, но продолжала молча стоять рядом со стаканом воды, который я медленно и бережно осторожно вернул ей на стойку, изо всех сил стараясь не показать, что я игнорирую или, ещё хуже, отвергаю ее доброту.

Смолил Бога, чтобы та девушка скорее вернулась и разрядила создавшуюся ситуацию. На радость мне она уже подошла и с той же ослепительной улыбкой поднесла мне стакан со спасительной водой.

Я тут же запил таблетку и очень ласково и тепло поблагодарил юное создание за любезность. Затем осторожно повернувшись к администратору, виновато поблагодарил и ее. В напряженно-молчаливом ожидании чего-то непонятного ни я, ни администратор, ни добрая девушка не спешили расходиться.

Точку поставила администратор.

Прицелившись в меня двуствольным взором умных глаз, она сразила меня оглушительной фантазией таких слов: «Да... я никогда не видела такой преданности МГНОВЕНИЮ. Спасибо вам...»

«Снайпер» медленно повернулась и также медленно ушла, как мне показалось, не зная куда. Меня взволновала и заворожила тонкая философия этой женщины, от которой я стоял в оцепенении и не мог сдвинуться с места. Девушка спросила, подать ли мне еще что-нибудь?..

Не понимая ее слов, в тумане душевного волнения я протянул дрожащую руку к полному стакану, оставленному этой мудрой женщиной, и залпом выпил ее последние слова до дна.

Добрая девушка стояла в изумлении, глядя на меня благодарными, восторженно влажными глазами в знак признателъности мне и админи-

стратору за такую трогательно-душевную оценку нашего мимолетного знакомства.

Девушка подошла ко мне очень близко – так, что я почувствовал тепло аромата ее свежего дыхания.

Мягко заглянув мне в глаза невидящим взором, она слегка поцеловала меня и задумчиво, медленно ушла, не оборачиваясь. Оставшись один и не наглядевшись ей вслед, я тоже ушел в смятении, оставив два пустых стакана, мысленно наполнив до краев моим штормящим душевным волнением, от которого стаканы, как почудилось, одобрительно обнявшись, дружно зазвонили мне вдогонку в колокола общей добродетели.

Nəsr guşəsi



Xuan RULFO

Dünya şöhrətli Meksika yazıçısı Xuan Rulfo (1917-1986) yeni Latın Amerikası nəsrinin atalarından sayılır. Bədii əsərləri həcminə görə çox deyil – bir hekayə toplusu və "Pedro Paramo" adlı bir romanı var. Borxes bu əsər haqqında belə deyib: "Rulfonun romanı fantastik kitabdır, onun cazibəsindən qopmaq mümkün deyil. Bu əsər istər ispandilli ədəbiyyatların tarixində, istərsə də ümumən ədəbiyyat tarixində yazılmış ən yaxşı romanlardan biridir". Buna bənzər bir fikri Markes də deyib: "Bu roman ispan dilində yazılmış ən gözəl kitablardan biridir". Təqdim etdiyimiz "Luvina" yazıçının ən güclü hekayələrindən sayılır.

LUVİNA

(hekayə)

"Cənubda başı göyə dirənən dağlar arasında ən hündür dağ Luvinadır. Luvina həm də o dağların ən daş-kəsəklisidir. Həmin bu dağ sanki bütünlüklə əhəngdaşından hörülüb. Ancaq indiyəcən Luvinada heç kim bu daşı əzib əhəng eləmək haqda fikirləşməyib. Burada əhəngdaşına həmişə əl-ayağa dolaşan lazımsız bir şey kimi baxıblar. Yerli camaat bu daşa "vəhşi" daş deyir. Yəqin, elə buna görədir ki, Luvinanın zirvəsinə aparan yamacın adı "Vəhşi daşlar" adlanır. Günəş və külək buralarda daşın-torpağın qənimidir. Buraların ağappaq torpağı sanki işıq saçır. Elə bil bu torpaq səhər şehini canına çəkib, amma əridə bilmir. Əslində isə belə deyil. Burada səhər şehi deyilən şeyin nə olduğundan heç kimin xəbəri yoxdur. Çünki Luvinada gecə də, səhər də hava soyuq olur. Rütubət şehə çevrilib torpağa qonmağa imkan tapmamış buluda dönür.

Düzünü desək, buralarda torpaq tapmaq da çətin məsələdir. Hər tərəf qayalıq, dərin dərələr, dibi görünməyən uçurumlardır. Luvina camaatının

dediyinə görə, gecələr bu uçurumlardan cürbəcür yuxular çıxır. Onlar da yatıb həmin bu yuxuları görürlər. Ola bilər. Amma mən o uçurumların dibindən küləkdən başqa nəyinsə çıxdığını hələ görməmişəm. Külək toz-torpaq qoparıb dalğa-dalğa uçurumun dibindən göyə qalxır. Elə bil uçurumun dibində, qaranlıq yerdə nəhəng təpəgözlər gizlənib və bu külək onların qamış çubuğunun içinə üfürdükləri nəfəsləridir. Uçurumun divarlarında hərəsi özünə bir ovuc torpaq tapıb kökünü bu torpağa sancan və öz qol-budaqları ilə bərk-bərk qayalığı qucaqlayan acı-şirin quşüzümü kolları gözə dəyir. Amma dinclik bilməyən külək bu fağır bitkiyə də boy atmağa imkan vermir. Daşların arasında kölgəlik olan yerdə tək-tük tikanlı Meksika laləsinin ağ güllərini də görmək olar. Ancaq bu gülün ləçəkləri tez qopub düşür və bu vaxt onun tikanlı budaqları ildırım sürətiylə yanından ötüb keçən küləyi cırmaqlamağa başlayır.

Yəqin, artıq özünüz də fikir verdiniz – Luvinada həmişə külək əsir. Özü də boz külək. Deyilənə görə, onun rənginin belə boz olmasına səbəb vulkanın ağzından qum və kül qamarlayıb özüylə gətirməsidir. Bilmirəm bu nə dərəcədə həqiqətə uyğundur, amma onu bilirəm ki, Luvinada hər tərəf boz dumanın içindədir. Siz özünüz də bunun şahidi olacaqsınız. Külək pələng kimi Luvinanın üstünə atılır. Bəli, bəli, məhz pələng kimi. Hətta adama elə gəlir, bu, külək yox, həqiqətən pələngdir və caynağına keçirdiyi ovunu didib-dağıdır. Güclü külək evlərin damını qoparır. Özü də buranın camaatını damsız qoyan belə küləklər Luvinada nadir hadisə hesab olunmur. Buraların küləyi üçün evin damını qoparmaq siz tərəflərin küləyi üçün başınıza qoyduğunuz həsir şlyapanı uçurmaq kimi bir şeydir. Damı qopan evlərin yetim daş-divarları başaçıq qalır. Luvinada külək heç vaxt ara vermir. Külək ya tozu torpağa qatır, ya da sakit-sakit əsir. Sakit əsdiyi vaxt sanki külək Luvinanı cırmaqlayır. Elə bil, doğrudan da buraların küləyinin caynaqları var. Cırmaq səslərini burada səhər də eşidə bilərsiniz axşam da. Luvinanın küləyi heç vaxt yoruldum demir. O bütün divarları cırmaqlayır, ağır daşları torpağın qucağından alıb götürür, özünü qapılara çırpır, dəlmə-deşik tapıb evlərə soxulur. Onun əlindən yaxa qurtarmaq mümkün olan iş deyil. Buralarda külək canınıza hopur, iliyinizə işləyir və siz hiss edirsiz ki, bir az da belə davam eləsə, bu külək ruhunuzu bədəninizdən alıb uçuracaq. Siz özünüz də bunun şahidi olacaqsınız".

Hekayətçi bu yerdə susub küçəyə boylandı.

Bayırdan içəriyə çay şırıltısı dolurdu. Çay öz sularını qamışlığa çırpıb üzüaşağı axırdı. Badam ağacının yarpaqları sakit-sakit xışıldayırdı. Uşaqlar qış-qırışa-qışqırışa meyxananın qapısından içəri düşən işıq zolağıyla oynayırdılar.

Uçan qarışqalar topayla otağa doluşub neft lampasının şüşəsinə hücum çəkirdilər. Şüşəyə dəyib qanadlarını yandırır, döşəmənin üstünə düşürdülər. Çöldə hava get-gedə qaralırdı.

– Bura bax, Kamilo, bizə iki şüşə də pivə gətir, – hekayətçi dilləndi. – Hə, yaxşı yadıma düşdü, – o, sözünə davam elədi, – siz Luvinada heç vaxt aydın səma görə bilməzsiniz. Luvinada səma sanki bozarıb, əhəng tozundan pərdəyə bürünüb. Bu toz heç vaxt çəkilib getmir. Dağların yamacları isə lümlütdür: nə bir ağaca, nə bir yaşıl ota rast gələ bilərsiz. Bir sözlə, adamın gözlərinin baxıb

dincəlməsi üçün heç nə yoxdur. Elə bil ətrafdakı hər şeyin canına kül, əhəng tozu hopub. Siz özünüz bunu gözlərinizlə görəcəksiz: qupquru ölü dağlar və onların arasında başı göyə dirənən Luvina. Luvinanın yamacına səpələnən və uzaqdan ağ xal kimi görünən komalar ölü adamın alnındakı ağ gül çələngini xatırladır.

Uşaqların hay-küyü lap yaxından eşidildi, az keçmiş onlar meyxanaya doluşdular. Hekayətçi ayağa qalxıb qapıya yaxınlaşdı.

– Basın bayıra! – uşaqların üstünə qışqırdı. – Qoyun camaat sakit oturub söhbət eləsin! Oynayın, amma hay-küysüz.

O qayıdıb yerində oturdu və yarımçıq qalmış söhbətinə davam elədi:

– Deməli belə, Luvinada yağış yağmağı hələm-hələm baş verən hadisə deyil. İlin tən ortasında yağış Luvinanı başdan-ayağa çimizdirir, qayaları oyur, daş-kəsəyin toz-torpağını yuyub aparır. Yağışdan sonra hara baxsan, ancaq daş-kəsək görərsən. Amma bu vaxt buludlara baxmaq adama ayrı ləzzət verir. Görürsən ki, iki ağır, köpmüş bulud o dağdan bu dağa tərəf sürünə-sürünə axırda bir-biriylə toqquşur, zərbdən hərəsi bir tərəfə atılır və bu vaxt qayaların ülgüc uclarına dəyib yırtılıbmış kimi ikisi də partlayır. Bu partlayışın səsi aləmi başına götürür. Təxminən on-on iki gün bu cür davam eləyir. Sonra gələn il bu vaxtlaracan yağışın ayağı buralardan kəsilir. Bəzən bir neçə il Luvinaya yağış yağmır.

…Belə-belə işlər, Luvinaya yağış gec-gec yağır. Hətta qıraq adama elə gəlir ki, buralara ömür-billah yağış yağmayıb. Buranın torpağı da yaşlı adamın dərisi kimi quruyub, yeyilib, qırışıb. Yağışdan sonra torpağın üstü "yağış tikanları" ilə örtülür. Luvinada yağışın bərkitdiyi, ayaqqabınızın altına iti daş kimi batan palçıq parçalarına "yağış tikanları" deyirlər. Adama elə gəlir ki, torpaq çevrilib tikana dönüb.

O, şüşəni başına çəkib pivəni axırıncı damcısına qədər içdi. Butulkanın dibində ancaq köpük qaldı.

– Nə deyirsən de, – sözünə davam elədi, – amma bu dünyada Luvinadan kədərli yer ola bilməz. Siz özünüz ora çatan kimi bunu hiss eləyəcəksiz. Hətta deyərdim, orada qəm-kədər özünə əbədi yuva qurub. Luvina camaatı təbəssüm nə olduğunu bilmir. Onların sifəti sanki taxtadandır.

Luvinada kədəri gözlə görmək olur. O, adamın yaxasından yapışıb nə səhər, nə axşam əl çəkir. Hətta külək də bu kədəri dağıtmaq gücündə deyil. Külək yalnız onun tozunu alır, onu təzələyir. Orada siz bu yerlərin kədərin vətəni olduğunu, dünya yarananda onun burada yaşadığını anlayırsız. Luvinada siz kədərin əlindən heç yana qaça bilmirsiz. Siz bu kədərin dadına baxmağa, əlini sıxmağa məhkumsuz. Kədər hər tərəfdən sizin üstünüzə gəlir, sizi sıxır, əzir, sanki böyük yapışqan kimi ürəyinizə yapışır, ürəyinizi boğmayınca sizdən əl çəkmir.

…Oranın yerli camaatının dediyinə görə, guya ay bədirlənən vaxt Luvina küçələrində küləyi gözlə görmək olur. Guya külək insan cildinə girib evlərin arasıyla gəzişir, çiyinlərinə atdığı qara plaşın ətəyi yerlə sürünür. Amma mənim Luvinada aylı gecələrdə gördüyüm tək şey ümidsizlik idi… Ancaq ümidsizlik.

Pivənizi niyə içmirsiz? Heç əlinizi də vurmamısız ki. Siz bir dadına baxın. Bəlkə ilıqdır, ona görə xoşunuza gəlmir? Bizdə burada ayrı cür pivə olmur. Bilirəm, ilıq pivə eşşək sidiyinin dadını verir. Amma burada əvvəl-axır hər şeyə öyrəşirsən. Orada, dağın başında heç bunu da tapa bilməyəcəksiz. Əmin ola bilərsiz. Bu pivəyçün orada burnunuzun ucu göynəyəcək. Luvinada siz oranın arağından başqa heç nə tapa bilməzsiz. Onlar orada həmin arağı adına oha-se dedikləri otdan çəkirlər. Amma zəhrimarı çox içmək olmur: bir-iki qurtum içəndən sonra adamın başı hərlənir. Elə bil səni fırfıra kimi fırladırlar. Yaxşısı budur pivənizi için. Mən bilirəm nə deyirəm.



Çay hələ də qamış kollarıyla vuruşmağındaydı. Ağacların yarpaqları xışıldayırdı. Uşaqlar oynayırdılar. Hava qaralmışdı, ancaq hələ axşam deyildi.

Hekayətçi yenə qapıya yaxınlaşıb çölə boylandı.

– Adətən keçmişi yada salanda, – o, yerinə qayıdıb sözünə davam elədi, – hər şey adama asan gəlir. Yaşananlar xatirələrdə öz kəsərini itirir, tamam dəyişir. Amma Luvinanı yada saldıqca mən orada başıma gələnləri sanki bir də yaşayıram və hər şeyi olduğu kimi danışıram. Mən orada yaşamışam. Yox, yaşamamışam, bütün ömrümü çürütmüşəm. Luvinaya gələndə mən cavan bir oğlan idim. Ümidimi itirməmişdim. Luvinadan qayıdanda mən artıq bütün ümidlərini dəfn eləmiş qocaya dönmüşdüm. İndi də siz ora yollanırsız… Sizə baxıram və sanki Luvinaya gəldiyim gün özümü görürəm. Elə bil siz yox, mən ora yollanıram. Orada bütün gördüklərim bir-bir gözümün qabağında canlanır… Etiraz etməsəydiz, sizin pivənizi içərdim. Görürəm heç pivəyə tərəf baxmırsız. Mən isə artıq pivəsiz yaşaya bilmirəm. Pivə içəndə bir az yüngülləşirəm. Pivəni içirəm – elə bil başımı soyuq suya salıb çıxarıram. Hə, deməli, biz ilk dəfə Luvinaya gələndə bizi gətirən arabaçı atlara dincəlmək imkanı verməyib arabanı geri döndərdi. Biz arabadan düşən kimi birnəfəsə bizə:

– Əlvida, – dedi.

– Hara? – mən təəccübləndim, – belə istidə niyə atları ləhlədirsən? Görmürsən, onsuz da taqətdən düşüblər.

– Bir az da burda qalsaq, atların işi doğrudan bitəcək, – arabaçı cavab verdi. – Mən getdim, əlvida.

O, atları geri döndərib yamacla üzüaşağı enməyə başladı. Atları elə qovurdu, sanki arxasınca bir sürü cin-şəyatin düşmüşdü.

Mən arvadım və üç uşağımla orda qaldım. Meydanın ortasında durmuşduq – əllərimizdə çamadanlar, bağlamalar. Kəndə gəlib çatmışdıq, amma insan deyilən bəndə gözə dəymirdi. Təkcə külək evlərin arasıyla aşağı-yuxarı dolaşırdı.

Meydan da lümlüt idi. O boyda meydanda nə bir kol, nə bir ot gördüm. Külək sağdan vurub, soldan çıxırdı. Biz də elə bil yanğından çıxmış çılpaq meydanın düz ortasında dayanmışdıq.

– Biz hara gəlmişik, Aqrippina? – arvadımdan soruşdum.

O ancaq çiyinlərini çəkdi.

– Yaxşı, onda get axtar gör buralarda nahar eləməyə, gecələməyə yer tapa bilərsən?! Biz səni burda gözləyirik, – dedim.

O, balaca oğlumuzu da özüylə götürüb getdi. Getdi və qayıtmadı.

Günəş dağların arxasına çəkiləndən sonra onu axtarmağa yollandıq. Boş küçələrlə bir xeyli gəzib dolaşdıq. Axır ki, onu tapdıq. O, kilsənin düz ortasında oturmuşdu. Uşaq onun dizləri üstə yatmışdı.

– Aqrippina, neyləyirsən burda?

– Dua eləməyə gəlmişəm.

– Dua vaxtıdı? – mən təəccübləndim. O, yenidən çiyinlərini çəkdi.

Yırtıq damından küləyin vıyıltıyla içəri dolduğu anbara oxşar boş daş kilsədə də dua eləmək olar?

– Mehmanxana tapdın?

– Burda mehmanxana yoxdur.

– Bəs karvansara?

– Karvansara da yoxdur.

– Heç olmasa bir adamla rastlaşdın? Yəni bu boyda kənddə bir adam yoxdur? – mən soruşdum.

– Var. Üzbəüz evdə… Qadınlardı… Elə indi də orda, qapının arxasında dayanıblar. Bax, qapının çatlarından gözləri parıldayır. Görürsən? Onlardır… Bizə baxırlar… Biri özündə cürət tapıb başını çölə çıxardı… Par-par parıldayan iri gözləri vardı, nimçə boyda… Amma yemək üçün bizə heç nə verə bilməyəcəklər. Heç qapını da üzümə açmadılar. Bircə onu dedilər ki, kənddə yeməyə heç nə yoxdur… Mən də bu kilsəyə gəlib Tanrıya dua eləməyə başladım.

– Bəs niyə meydana qayıtmadın? Biz axı səhərdən səni orda gözləyirik.

– Mən bura dua eləməkçün gəlmişəm. Hələ duamı bitirməmişəm.

– Biz hara gəlib çıxmışıq, Aqrippina?

Arvadım yenə çiyinlərini çəkdi.

Kilsədəki səcdəgahın arxasında özümüzə yer düzəldib gecələmək üçün orda qaldıq. Düzdür, külək ora da soxulurdu, amma kilsədə ən az yel çəkən yer məhz səcdəgahın arxasıydı. Bütün gecəni külək dayanmadan uğuldayırdı, kilsənin dəlmə-deşiklərindən içəri soxulub üstümüzdən vıyıltıyla o yan-bu yana

keçirdi, görünməz əlləriylə ağır xaçları silkələyirdi. Küləyin hər yeni dalğasıyla bu nəhəng, yoğun xaçların bağlandığı məftil cırıldayırdı. Sanki kimsə kilsədə dişlərini bərk-bərk bir-birinə sürtürdü.

Uşaqlar ağlaşırdı. Qorxudan onların gözünə yuxu getmirdi. Arvadım üç uşağımızın üçünü də qucaqlamışdı, sinəsinə sıxıb oturmuşdu. Mən – mən bilmirdim heç neyləyim.

Səhərə yaxın külək səngidi. Amma az keçmiş yenidən gücləndi. Gecə boyu cəmi bir dəqiqə ətrafa tam sakitlik çökdü. Sanki bu bir dəqiqənin içində göy yerə enib ağırlığı ilə yer üzünün bütün səslərini əzib boğdu… Axır ki, uşaqlar yuxuya getdilər. Arvadım da yanımda uzanıb sakit-sakit nəfəs alırdı.

– Bu nədir? – arvadım qəfil məndən soruşdu.

– Nəyi deyirsən? – mən suala sualla cavab verdim.

– Bunu… xışıltını. Eşidirsən?

– Yox. Yat. Heç olmasa azca dincimizi alaq. Bir azdan səhər açılacaq.

Az keçmiş mən də qəribə şıppıltı səsi eşitdim. Elə bil qaranlıqda düz başımızın üstündə yarasalar uçuşurdu. Bu yarasaların qanadları o qədər böyük idi ki, qanad çaldıqları vaxt kilsənin döşəməsinə dəyirdilər. Mən cəld ayağa qalxdım. Qanadlar bir az da sürətlə tərpənməyə başladı, sanki yarasalar məndən qorxub kilsə qapısının sınıq pəncərə yerlərindən özlərini çölə atırdılar. Asta-asta qapıya sarı addımladım; hardansa qəribə xışıltı səsi gəlirdi. Alaqapıya çatıb dayandım – dayandım və onları – Luvinanın qadınlarını gördüm. Hamısının başında tünd rəngli örpək, çiynində su səhəngi varıydı. Gecənin qara fonunda qara kölgələr.

– Sizə nə lazımdır? Səhərin gözü açılmamış hara belə gedirsiz? – onlardan soruşdum.

– Su gətirməyə, – hansısa cavab verdi.

Onlar lal-dinməz dayanıb mənə baxırdılar. Sonra üzlərini çevirib qara səhənglərini çiyinlərinə aldılar və küçəylə üzüaşağı addımlamağa başladılar. Az sonra hamısı gecənin alaqaranlığına qarışıb qeyb oldu.

Yox, mən heç vax Luvinada keçirdiyim o ilk gecəni unuda bilmərəm.

Həmin gecəni yada salıb sonra da pivə içməmək mümkün deyil. Siz mənimlə razısız? Pivə ən azından o gecəylə bağlı xatirələrin acısını götürür.

Deyəsən, siz mənim Luvinada neçə il yaşadığımı soruşdunuz?.. Sözün düzü, heç özüm də bilmirəm. Orda məni qara qızdırma tutmuşdu. Sağalandan sonra Luvinada keçirdiyim günlərin hesabını itirmişdim. Məncə, orda bir ömür yaşamışam. Luvinaya çatan kimi vaxt sənin üçün dayanır. O kənddə heç kim saata baxmır, heç kim ötüb keçən illərin xiffətini çəkmir. Səhər günəş doğur, axşam batır. Vəssalam: əvvəlcə gündüz gəlir, sonra gecə, gündüz-gecə, gündüz-gecə – ta ölüm saatı yetişənəcən. Luvinada yaşayanlar üçün isə ölüm ümid işığıdır.

Siz, yəqin, fikirləşirsiz ki, mənim söhbət eləmək üçün elə cəmi bir mövzum var. Bəli, cənab, elədir… Əgər sən hər gün evin kandarında oturub günəşin necə qalxdığına və endiyinə əvvəlcə yavaş-yavaş başını yuxarı qaldırıb, sonra isə yavaş-yavaş aşağı salıb tamaşa edirsənsə, günlərin bir günü sənin içində nəsə

dəyişir, hansısa yay boşalır və sən zaman duyğusunu itirirsən, diri-diri ölüyə çevrilirsən. Luvinanın qocaları məhz bu cür ömür sürürlər.

Məsələ burasındadır ki, Luvina qocaların, qarıların, bir də, belə demək mümkünsə, dünyaya gəlməyə fürsət tapmamış körpələrin kəndidir… Düzdür, zəiflikdən ayaq üstə güclə duran heysiz qadınlara da hərdən rast gəlmək olar. Oğlan uşaqları Luvinadan tez əkilirlər… Heç bığ yerləri tərləməmiş uşaqlığa əlvida deyirlər. Dünən anasının döşünü əmən bu gün əlinə toxa alıb çölə çıxır. Bu, birinci addım. İkinci addım kənd hasarının üstündən tullanmaqdır. Tullandın və əlvida Luvina! Bax, Luvinada işlər bu cürdür.

Dediyim kimi, Luvinada ancaq əldən-ayaqdan düşmüş qocalar, ərsiz arvadlar və ərləri qazanc dalınca yollanıb geri qayıtmayan – Allah bilir harda itib-batan ərli arvadlar yaşayır… Hərdənbir kişilər kəndə qayıdırlar, onların dönüşü neçə ildən bir Luvinaya yağan yay yağışına bənzəyir. Mən sizə Luvinaya yağan yağış haqda artıq danışmışam. Geri qayıdan olanda bütün kənddə razılıq dolu pıçıltılar eşidilir, həmin adam bir müddət sonra yenidən kənddən çıxıb gedəndə razılıq dolu pıçıltıları narazı uğultular əvəz edir… Oğullar kənddən çıxanda qoca ata-analarına bir kisə yeməli nemət qoyub gedirlər. Ərlər kənddən çıxanda öz arvadlarına yadigar kimi bir uşaq da bağışlayırlar. Gedənlərin uzun müddət səs-sorağı eşidilmir; bəziləri bir ilə yenidən qayıdıb gəlir, bəziləri həmişəlik yoxa çıxır… Oğullar qazanc dalınca yollanır. Buna kənddə hamı təbii baxır. Luvinalılar özləri demişkən: "Adət-ənənə belədir – oğul qazanc dalınca yollanmalıdır". Bir sözlə, necə ki vaxtilə onların ataları nənə-babalarını ac qoymamaq üçün işləyib tər töküblər, oğullar da eynən o cür, bütün ömürləri boyu valideynlərinə bir qarın çörəkpulu qazanmaqdan ötrü işləyirlər. İllərdir luvinalılar bu "adət-ənənəyə" sadiqdirlər…

Oğullar yad diyarlarda süləndikləri vaxt qocalar evin kandarında oturub, taqətdən düşmüş qollarını yanlarına sallayıb gözləyirlər. Öz oğullarını və öz ölümlərini gözləyirlər. Əgər bugünəcən Allahın unutduğu Luvinada hələ sağ qoca varsa, o qoca yaşadığına görə yalnız oğluna minnətdar olmalıdır.

Bir dəfə mən onlara bərəkətli torpağı olan yerlərə köçməyi məsləhət gördüm. Dedim: "Gəlin burdan çıxıb gedək. Hara köçsək, burdakından yaxşı yaşayacağıq. Konqresə müraciət eləyək, bizə yardım göstərsin".


Hamısı ölü gözlərini zilləyib mənə qulaq asırdı. Bu ölü gözlərin lap dərinliyində hələ də həyat qığılcımı parıldayırdı.

– Konqres yardım göstərsin, deyirsən? Sən bu Konqres haqda nəsə bilirsən, müəllim?

– Əlbəttə, – mən cavab verdim.

– Elə biz də bilirik o Konqres nə yuvanın quşudur. Yaxşı bilirik. Amma onun anası haqda heç nə eşitməmişik.

Mən Konqresin anasının Vətən olduğunu onlara başa salmağa çalışırdım. Amma onlar başlarını yırğalayıb: "Yox, müəllim, bu məsələ nəsə dolaşıq məsələdir", – deyib gülüşdülər. Ömrümdə birinci və axırıncı dəfə Luvina camaatının gülməyini onda gördüm. Qocalar mırıq dişlərini ağarda-ağarda mənə Konqres kimi yaramazların həmişə analarından bixəbər olduqlarını dedilər.



Bilirsiz, onlar tamamilə haqlı idilər. Bu Konqresin, sən demə, başı yaman qarışığıymış. Yer üzündə Luvina adlı bir kəndin olduğu onun doğma dağları tərk edib hardasa cinayət törədən oğullarını tapmaq lazım gələndə Konqresin yadına düşür. Onda cinayətkarı yaxalamaq üçün onun dalınca hətta Luvinaya da silahlı adamlar göndərirlər. Ələ keçirib güllələyirlər. Əgər bu cür hadisələr baş verməsəydi, yer üzündə Luvina adlı bir kənd olduğundan orada – yuxarılarda heç kim xəbər tutmazdı.

– Deyirsən, burdan çıxıb gedək, – onlar məndən soruşdular, – deyirsən, bəsdir aclıq çəkdik, aclığın hələ heç kimə xeyri dəyməyib. Yaxşı, tutaq ki, biz burdan getməyə razı olduq. Bəs onda ölənlərimizi özümüzlə necə aparaq? Onların son məskəni buralardır. Biz onları atıb gedə bilmərik.

Belə deyə-deyə onlar indiyəcən orda yaşayırlar. Tezliklə özünüz bu dediklərimin doğru olduğunu görəcəksiz. Acından ölməmək üçün həmin kənddə meskit qabığı çeynəyirlər. Susuzluğu yatırmaq üçün tüpürcəklərini udurlar. Oranın adamları titrək kölgə kimi evlərin divarlarından tuta-tuta küçələrdə gəzişir. Adama elə gəlir külək onları itələməsə, özlərinin addım atmağa gücləri çatmaz.

– Bəs külək? – bir gün özümü saxlaya bilməyib soruşdum. – Bu küləyə necə öyrəşmək olar? Axı bu külək sizin axırınıza çıxacaq.

– Əgər külək əsirsə, demək, belə məsləhətdir, – cavab verdilər. – Allah özü belə məsləhət bilib. Külək səngiyəndə biz özümüzü pis hiss eləyirik. Küləksiz gündə günəş elə bil yerə bir az da yaxınlaşır, düz başımızın üstə durur, canımızdakı suyu axır damlasınacan buxara çevirir, bütün qanımızı sorur. Külək qopan kimi isə günəşi göyə qaldırıb onu lap yuxarıda saxlayır, aşağı düşməyə qoymur. Küləksiz bizim işimiz çətin olar.

O vaxtdan mən onlarla kənddən köçmək barədə bir də söhbət eləmədim. Özüm Luvinadan çıxıb uzaqlaşdım. Yəqin, daha heç vaxt ora qayıtmaram.

…Həyat doğrudan da təsadüflə doludur. Mənə demişdilər: "Biz sizi San-Xuan-Luvinaya göndəririk". İşə bir bax, indi mən on beş il bundan qabaq mənim keçdiyim yolları keçməyə hazırlaşan, Luvinaya işləməyə yollanan adamla söhbət edirəm. O vaxt mənim gücüm-qüvvəm aşıb-aşırdı, başım ideallarla doluydu… Özünüz də bilirsiz ki, bizim hamımıza xeyirxah ideallar aşılayırlar. Sonra da biz həmin idealları hamının beyninə yeritməyə çalışırıq, onları bütün dərdlərin dərmanı sayırıq. Amma Luvinada mənim bu xoşməramlı cəhdim boşa çıxdı. Mən eksperiment apardım və uğursuzluğa düçar oldum.

San-Xuan-Luvina! Bu ad mənim qulağımda cənnət nəğməsi kimi səslənirdi. Ancaq gözlərimi açanda özümü cəhənnəmdə gördüm. Ölüm ayağında olan bir kənd. Hətta kəndin itləri də acından qırılıb. Aya hürüb gecənin sakitliyini dağıtmağa kənddə bir it belə qalmayıb. Bəli, bəli, məhz gecənin sakitliyini. Çünki siz küləyin səsinə öyrəşən gün sizin üçün hər yerə, səhrada olduğu kimi, sakitlik çökəcək. Bu sakitlik axırınıza çıxacaq. Bir mənə baxın. Mən artıq məhv olmuş bir adamam. Eybi yox, özünüz ora çatanda mənim indi nə demək istədiyimi anlayacaqsız.

Necə fikirləşirsiz, bəlkə deyək hərəmizə bir qədəh meskal arağı gətirsinlər? Pivə adamı oturub rahat söhbət eləməyə qoymur. Adam tez-tez bayıra çıxmalı olur. Hey, Kamilo, bizə iki qədəh meskal arağı gətir! Hə, dediyim kimi…

O, sözünü yarımçıq qoydu, donuq baxışlarını üstündə qanadlarını neft lampasının şüşəsində yandırıb soxulcana oxşayan qarışqaların sürüdüyü stola zillədi.

Gecənin yaxınlaşdığı hiss olunurdu. Qamışların arasından keçən çay bayaqkından daha bərk səs-küy qoparırdı. Uşaqların hay-küyü kəsilmişdi. Açıq qapıdan görünən səmada gecənin ilk ulduzları gözə dəyirdi.

Bir dəqiqə əvvəl qanadsız qarışqalara diqqətlə baxan hekayətçi başını stolun üstünə qoyub yuxuya getmişdi.

Tərcümə etdi: Rövşən Ramizoğlu



Büllurə ASLANQIZI
Filologiya üzrə fəlsəfə doktoru

Yəhudi balalarını ölümdən qurtarmış qəhrəman: Həmzə Cümşüd oğlu Sadıqov

İslam dininin müqəddəs kitabı "Qurani-Kərim"də deyilir: "...Kim bir adamı öldürməyən və ya yer üzündə fəsad törətməyən bir şəxsi öldürərsə, bütün insanları öldürmüş sayılar. Kim də onu ölümdən xilas edərsə, bütün insanları xilas etmiş hesab olunar" (Maidə surəsi, 32).

Beləliklə, dinimizə görə, günahsız bir insanı qətlə yetirmək bütün insanlığı – bəşəriyyəti məhv etməyə, onu ölümdən qurtarmaq isə cəmi bəşəri ölümdən qorumağa bərabərdir.

Təkcə son yüz ildə baş vermiş müharibələrdə on milyonlarla insan həlak olub; bir atəşlə bir nəsil başsız, neçə körpə yetim qalıb; bir bombanın partlayışı yüzlərlə evin bünövrəsini sarsıdıb. Ömürlər qırılıb, nəsillər kəsilib.

Yerlər qalxır göylərə, matəm havası çalır,
Ətəyini qaldırıb, göy də yerə alçalır.
Göylər enərkən yerə, yerlər də qalxır göyə,
Alt-üst olur kainat, tamam dönür heçliyə.
İnsan adlı bəladan xilas olur göylə yer,
Hər ikisi insanın tozundan təmizlənir.

Dahi Nizami Gəncəvi hələ XII əsrdə savaş toxumu əkən fitnəkar insanlara qəzəbini belə ifadə etmişdi. Tarixin ən qanlı savaşı kimi tanınan İkinci Dünya müharibəsi qurbanlarının dəqiq sayı bilinməsə də, 70-ə yaxın dövlətin qoşulduğu və altı il davam edən bu savaşda ölənlərin sayı, bir çox mənbələrə görə, 50 milyondan artıq olub. Ön və arxa cəbhədə, əsir düşərgələrində insanlar kütləvi şəkildə məhv edilib. Bu müharibədə Azərbaycan oğulları, qızları da bö-

yük şücaət göstərib, şərəfli tarix yazıblar. Belə qəhrəmanlardan biri də uzun müddət igidlər sırasında adı çəkilməyən Həmzə Sadıqov olub.



Bu adı uzun illər müharibə tarixinin səhifələrindən silməyə çalışıblar. Bəs səbəb nə idi: müharibənin törətdiyi xaosdan doğan yanlışlıqmı, yoxsa bilərəkdən yürüdülən siyasətmi? Bəlkə daha bir erməni xəyanəti? Bu suala hələlik dəqiq cavabımız olmasa da, fakt öz sözünü deyir: Həmzə Sadıqov İkinci Dünya müharibəsində böyük igidlik göstərmiş, onlarla günahsız insanın həyatını xilas etmiş bir qəhrəmandır.

Əslən Şuşadan olan Həmzə Cümşüd oğlu Sadıqov 1915-ci ildə Ağdamda doğulub. Öz əliylə yazdığı tərcümeyi-halından bəlli olur ki, o, 7 illik təhsili başa vurduqdan sonra sovxozda tütünçü işləyib, sonralar Bakı Maliyyə-İqtisad Texnikumunda oxuyub. Müharibədən öncə Ağdam şəhər Maliyyə şöbəsində təlimatçı işləyən Həmzə Sadıqov 1939-cu ildə orduya çağırılıb, oradan da artilleriya məktəbinə göndərilib. Müharibənin ilk günlərindən ön cəbhədə vuruşan Həmzə xüsusi hazırlıq keçərək, kəşfiyyat qrupunun faşistlərə qarşı apardığı əməliyyatlarda fəal iştirak edib. 1941-ci ilin payızında ayağından yaralanıb, bir müddət hospitalda müalicə olunandan sonra Stalinqrad cəbhəsinə göndərilib. 27 fevral 1943-cü il tarixli 12 saylı əmrə əsasən "Qırmızı Ulduz" ordeni ilə təltif edilən Həmzə Sadıqov Kursk, Belqorod istiqamətlərində gedən döyüşlərdə, Xarkovun azad olunmasında iştirak edib. Yaralandığından hospitalda yenidən müalicə alandan sonra Birinci Ukrayna cəbhəsinə artilleriya hissə komandiri göndərilib və bu qoşunun tərkibində Berlinə qədər gedib. Bütün bunlar Sadıqovun keçdiyi döyüş yolunun qısa xülasəsidir.

Onun hərbi bioqrafiyasında ən mühüm hadisə Stalinqrad ətrafında gedən döyüşlər zamanı baş vermişdir. Kəşfiyyat heyətində fəaliyyət göstərən Həmzə Sadıqov Hitlerin "bioloji bomba"sının atası adlandırılan, xüsusi qəddarlığı ilə seçilən, yəhudiləri şəxsən qətlə yetirən, fürerin ən yaxın silahdaşlarından olan general İohann fon Rodenburqu əsir götürmüşdü. Rodenburq həmin bombanı yəhudi uşaqları üzərində sınaqdan keçirirdi. Məhz Həmzə Sadıqovun igidliyi sayəsində onlarca yəhudi ailəsi, çoxlu sayda yəhudi balası ölümün pəncəsindən qurtulmuşdu.

Hələ 1949-cu ilin oktyabr ayının 2-də İsrailin "Maariv" qəzetində dərc olunmuş "Borc" adlı məqaləsində jurnalist Yosef Feldman yazırdı ki, Stalinqrad uğrunda döyüşlərdə azərbaycanlı Həmzə Sadıqov yəhudi uşaqları labüd ölümdən xilas edib: "1942-ci il İsrailin yeni tarixinin əsas səhifələrindən biri olacaq... Biz tarixçilərimizdən xahiş edirik ki, onlar rəşadətli döyüşçü Həmzə Cümşüd oğlu Sadıqov barəsində yazsınlar. Qoy onlar Həmzə Sadıqovun qəhrəmanlığını,

onun bizim ailələrimizə, övladlarımıza göstərdiyi təmənnasız köməyi işıqlandırsınlar. Biz bu tarixi hadisəni unutmamalıyıq".


Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert Arye Qut yazır: "Ən çox təəssüf doğuran məqam budur ki, yəhudiləri soyuqqanlı şəkildə məhv edən bədnam və qəddar alman generalını bir azərbaycanlının əsir götürdüyünə heç kim inanmaq istəmirdi. Əfsus ki, sovet rəhbərliyi də buna inanmadı, Stalin özü isə məlumatlara tamamilə laqeyd münasibət göstərdi..."

Arye Qut vurğulayır ki, Sadıqovun adı uzun illər xatırlanmayıb: "Tarix dərsliklərində onun adına rast gəlinmirdi, memuar ədəbiyyatında bu ad nadir hallarda anılırdı. Bu gün arxivlərin çoxunun açıldığı bir şəraitdə Həmzə Cümşüd oğlu Sadıqovun az qala unudulmuş adı yenə bizimlədir. Cəbhə yoldaşları arasında daha çox "Sadiqaşvili" ləqəbi ilə tanınan Həmzə Sadıqovun rəşadətləri barədə əlimizdə kifayət qədər sənəd var. O, doğma Azərbaycana, doğma Ağdama qəhrəman kimi qayıdıb. Bu igid döyüşçünün məzarı da hazırda işğal altındadır".

Öz həyatını başqaları üçün riskə atan, fəqət buna görə qiymətini almayan, əksinə, haqsız təzyiqlərə məruz qalan, həbsə düşən Həmzə Sadıqov yəhudi uşaqlarını ölümdən qurtaranda onların hansı millətə mənsub olduğunu düşünmürdü, hər bir vicdan sahibi kimi bu addımı insanlıq üçün, bəşəriyyət üçün atırdı. Sağlığında ona layiq olduğu dəyər verilmədi. Bəzi məlumatlara görə, Sadıqova hətta Sovet İttifaqı Qəhrəmanı adının verilməsi də nəzərdə tutulubmuş, ancaq bunun əvəzində onu hansısa qaranlıq səbəbdən həbsə göndərirlər, işgəncəyə məruz qoyurlar. Stalinqradda göstərdiyi şücaətlərə baxmayaraq, bu şəhərdəki memorialda kiçik bir büstə də layiq görülməyən Həmzə Sadıqovun ruhu göylərdə hələ də haqqın, ədalətin təntənəsini gözləyir. Mərdliyinə, igidliyinə görə onu minnətdarlıqla xatırlayan nəsillərin qəlbində isə Həmzə Sadıqovun abidəsi çoxdan ucalıb.

Onun qəhrəmanlığı bəşər tarixində layiqli yerini mütləq tutacaq. Ölkəsinin, xalqının adət-ənənəsinə uyğun olaraq multikultural dəyərlərə müharibənin odu-alovu içində də sadiq qalmış igid Azərbaycan oğlu Həmzə Sadıqovun adı tarixə bəşəriyyətin xilaskarlarından biri kimi düşəcək.

Aprel



Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Hacı Cavad məscidinin açılışında

Aprelin 12-də Bakının Yasamal rayonunda Hacı Cavad məscidinin yeni binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva açılış mərasimində iştirak ediblər.

Prezident İlham Əliyevin maddi-mədəniyyət abidələrimizin, müqəddəs ocaqlarımızın bərpası ilə bağlı imzaladığı fərman və sərəncamlar, verdiyi tapşırıqlar sırasında Hacı Cavad məscidinin yeni binasının inşası da əksini tapıb. Son illərdə bütün dini ocaqlarda həyata keçirilən bərpa və yenidənqurma işləri, yeni dini ocaqların inşası dövlət başçısının xalqımızın milli-mənəvi dəyərlərinə, mədəni və tarixi zənginliyinə verdiyi qiymətin gözəl nümunəsidir.

Ölkəmizin rəhbəri Hacı Cavad dini icmasının üzvləri ilə görüşüb.

* * *

Aprelin 21-də Kamera və Musiqi orqan zalında "Vineyard Azərbaycan" xristian dini icmasının rəsmi fəaliyyətə başlaması münasibətilə tədbir keçirilib. Tədbirdə ölkəmizdəki diplomatik qurumların, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK), Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin (BBMM) və bir sıra icmaların nümayəndələri iştirak edib. BBMM-in Analitika şöbəsinin müdiri, fəlsəfə doktoru Rəşad İlyasov Mərkəzin Himayəçilik Şurasının sədri akademik Kamal Abdullayev və icraçı direktor əvəzi Rəvan Həsənov adından icma rəhbərliyinə fəaliyyətində uğurlar diləyib, "Vineyard Azərbaycan" icmasıyla BBMM arasında qarşılıqlı əlaqələrin davamlı olacağına inandığını bildirib.

İcmanın rəhbəri Emil Pənahov tədbirdə iştirak edən hər kəsə öz təşəkkürünü bildirib.

Qeyd edək ki, "Vineyard Azərbaycan" mərkəzi qərargahı Londonda yerləşən Beynəlxalq Vineyard Kilsələri Assosiasiyasının üzvü və qurumun Azərbaycanda rəsmi nümayəndəliyidir. 2018-ci il aprelin 9-da DQİDK tərəfindən rəsmi qeydiyyata alınıb.



"Vineyard Azərbaycan" xrisitian dini icmasının keçirdiyi tədbirdən görüntü

* * *

Ukraynalıların Dünya Konqresinin (UDK) prezidenti Yevgeni Czolijin rəhbərlik etdiyi nümayəndə heyəti BBMM-in qonağı olub.

Mərkəzin icraçı direktor əvəzi Rəvan Həsənov qonaqları qəbul edərək onlara BBMM-in fəaliyyəti, ölkəmizdə uğurla qorunan multikultural mühit haqqında ətraflı məlumat verib. O bildirib ki, Prezident İlham Əliyev multikulturalizmin qorunub saxlanmasına böyük önəm verir. Bu baxımdan tolerantlığı və mədəni, dini, linqvistik müxtəlifliyi mühafizə etmək, Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıtmaq və bu sahədə mövcud modelləri təşviq etmək Mərkəzin qarşısında duran əsas vəzifədir.



BBMM-də Ukrayna nümayəndə heyəti ilə görüş

UDK prezidenti Yevgeni Czolij öz ölkəsində BBMM-in filialının açılmasını, Ukraynanın ali təhsil ocaqlarında "Azərbaycan multikulturalizmi" fənninin tədris edilməsini məqsədəuyğun saydığını dilə gətirib.

Görüşdə UDK Brüssel Beynəlxalq Təşkilatı Missiyasının direktoru Marina Yaroşeviç, Ukraynanın Azərbaycandakı səfirliyinin nümayəndəsi Oleksandr Sençenko və Azərbaycanda Ukrayna Konqresinin rəhbəri Yuri Osadçenko iştirak edib.

* * *



Hindistanın Sri Sri Universitetində AXC-nin 100 illiyinə həsr edilən tədbirdən görüntü

"Azərbaycan multikulturalizmi" fənninin xarici ölkələrdə tədrisi layihəsi çərçivəsində BBMM Hindistanın Sri Sri Universitetində Azərbaycan Xalq Cümhuriyyətinin (AXC) 100 illiyinə həsr edilən tədbir keçirib.

Tədbirdə universitetin prezidenti Rajit Kulkarni, universitetin rektoru Nanda Lal, fənnin tədris olunduğu kafedranın müdiri Pratima Sarangi, "Azərbaycan multikulturalizmi" fənnini Sri Sri Universitetində tədris edən Kənan Məmmədov və tələbələr istirak ediblər.

Qeyd edək ki, BBMM-in "Azərbaycan multikulturalizmi" fənninin xarici və ölkə universitetlərində tədrisi layihəsi uğurla davam edir. Hazırda sözügedən layihə çərçivəsində respublikamızın 40, dünyanın 18 aparıcı universitetində "Azərbaycan multikulturalizmi" fənni tədris olunur.

* * *

Aprelin 30-da Lənkəran şəhərindəki Heydər Əliyev Mərkəzində "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının təqdimatı olub.

Təqdimat mərasimində Astara, Lənkəran və Lerik rayonlarının icra strukturlarının nümayəndələri, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri, təhsil, mədəniyyət və tibb işçiləri, tələbələr, din xadimləri iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad ediblər.



"Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabının təqdimat mərasimi. Çıxış edir Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov

Tədbirdə Lənkəran Şəhər İcra Hakimiyyətinin başçısı Taleh Qaraşov, BBMM-in şöbə müdiri Yadigar Məmmədli, DQİDK sədrinin müavini Gündüz İsmayılov təqdimatı keçirilən kitabın Azərbaycan Prezidentinin multikultural dəyərlərə nə qədər önəm verdiyinin bariz nümunəsi olduğunu vurğulayıblar.

Tədbirdə Lənkəran təhsil şöbəsi müdirinin müavini Güloğlan Bağırov, rayon Ağsaqqallar Şurasının sədr müavini Sərhad Məmmədov və başqaları çıxış ediblər.

May



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun Müqəddəs Məryəm Katolik Kilsəsinin Apostol Prefekturasının ordinarisi yepiskop Vladimir Fekete ilə görüşündən

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov mayın 3-də Bakıda yerləşən Müqəddəs Məryəm Katolik Kilsəsini ziyarət edib, kilsə binasındakı rəsm qalereyası, ibadət zalı ilə tanış olub. Daha sonra Azərbaycan Respublikasında Katolik kilsəsinin Apostol Prefekturasının ordinarisi yepiskop Vladimir Fekete ilə görüş keçirilib.

Etibar Nəcəfov Ümummilli Lider Heydər Əliyevin Katolik dini icmasına yüksək diqqət və qayğı ilə yanaşmasından, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən bəhs edib. Şöbə müdiri həmçinin Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın Katolik icmasına xüsusi diqqət yetirməsindən, Heydər Əliyev Fondunun Roma Katolik Kilsəsi ilə sıx əməkdaşlığından danışıb.

Yepiskop Vladimir Feketeyə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabı təqdim edilib.

Görüşdə Azərbaycan Respublikası ilə Vatikan dövləti arasında qurulan yüksək diplomatik əlaqələr fonunda Katolik icmasının hərtərəfli dövlət dəstəyi ilə əhatə olunduğu vurğulanıb.

* * *



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Bakı şəhəri Dağ yəhudiləri sinaqoqunu ziyarət edir

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Bakı şəhəri Dağ yəhudiləri sinaqoqunu ziyarət edərək, dini icmanın və sinaqoqun fəaliyyəti ilə tanış olub. Bakı şəhəri Dağ yəhudiləri dini icmasının rəhbərliyi ilə görüşdə icma sədri Milix Yevdayev şöbə müdirinə Azərbaycanda dağ yəhudilərinin tarixi haqqında geniş məlumat verib, dövlətin icmaya göstərdiyi qayğıya görə məmnunluğunu ifadə edib. Etibar Nəcəfov Ümummilli Lider Heydər Əliyevin Dağ yəhudiləri dini icmasına yüksək diqqət və qayğı ilə yanaşmasından, hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsindən danışıb və icma sədri Milix Yevdayevə "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabını təqdim edib.

* * *



Fransanın Kalmar şəhərinin meri Gilbert Meyer, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Mansel və Assosiasiyanın baş katibi, Paris Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində

Fransanın Kalmar şəhərinin meri Gilbert Meyer, Fransada Azərbaycanın Dostları Assosiasiyasının prezidenti Jan-Fransua Mansel və Assosiasiyanın baş katibi, Paris Azərbaycan Evinin rəhbəri Mirvari Fətəliyeva BBMM-də olublar.

Mərkəzin icraçı direktor əvəzi Rəvan Həsənov fransalı qonaqlarla görüşdə Azərbaycan multikulturalizmi modelindən, ölkəmizdə əsrlərdir mövcud olan multikultural dəyərlər və tolerantlıq ənənələrindən, Prezident İlham Əliyevin fərmanı ilə 2014-cü ildə yaradılmış BBMM-in fəaliyyətindən, həyata keçirdiyi layihələrdən söz açıb. O bildirib ki, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilir. Mövcud milli-mədəni müxtəliflik və dini-etnik dözümlülük mühiti çoxmillətli, çoxkonfessiyalı diyar kimi Azərbaycanı dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı edib.

Görüşdə BBMM-in Fransada həyata keçirə biləcəyi layihələr, eləcə də Azərbaycan multikulturalizmi modelinin Fransada təbliği və öyrənilməsi məsələləri müzakirə olunub.

Sonra BBMM-in tolerantlıq və multikulturalizm ideologiyasının dünyadakı təbliğinə görə icraçı direktor əvəzi Rəvan Həsənov Fransa Parlament medalı ilə təltif olunub. Fransadan gələn qonaqlar isə BBMM-in fəxri üzvləri seçiliblər. Onlara diplom və vəsiqələr təqdim olunub.

* * *

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov mayın 7-də Bakıda yerləşən "Müqəddəs Jen-Mironosets" rus pravoslav kafedral kilsəsini ziyarət edib, kilsənin həyətində yerləşən Pravoslav Dini Mədəniyyət Mərkəzinin fəaliyyəti ilə tanış olub.

Görüşdə arxiyepiskop Aleksandr ölkəmizdə rus pravoslavlığının tarixi və fəaliyyəti haqqında geniş məlumat verərək, dövlətin bu dini quruma göstərdiyi qayğıdan, ölkəmizdəki tolerantlıq mühitindən məmnunluğunu ifadə edib.

Sonda arxiyepiskop Aleksandra "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" kitabı təqdim edilib.



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov "Müqəddəs Jen-Mironosets" rus pravoslav kafedral kilsəsini ziyarət edir

* * *



Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Avropa və Gürcüstan yəhudilərinin sinaqoqunu ziyarət edib

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov Bakı şəhərində yerləşən Avropa və Gürcüstan yəhudilərinin sinaqoqunu ziyarət edərək dini icmaların fəaliyyəti, sinaqoqun inzibati binası, ibadət zalları, eləcə də iclas otaqları ilə tanış olub.

Avropa Yəhudilərinin Bakı dini icmasının sədri Aleksandr Şarovski və Gürcüstan Yəhudilərinin Bakı dini icmasının sədri Abik Çaruxçev ilə ayrı-ayrılıqda görüş keçirilib.

İcma sədrləri qeyd olunan yəhudi icmalarının tarixi haqqında geniş məlumat verərək, dövlətin onlara göstərdiyi qayğıdan, yaradılan yüksək şəraitdən məmnunluq ifadə ediblər.

Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov da görüşdə iştirak edib.

* * *



Azərbaycan Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfovun Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşü

Azərbaycan Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Etibar Nəcəfov may ayının 11-də Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Görüşdə Etibar Nəcəfov Azərbaycanda milli və dini icmalara dövlət tərəfindən göstərilən dəstək və qayğıdan, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsindən geniş danışıb. Bu sahədə mövcud qanunvericilik bazasından da söhbət açan E.Nəcəfov ölkəmizdə milli və dini icmaların bütün hüquqlarının qorunduğunu qeyd edərək, Azərbaycanda mövcud tolerantlıq ənənələri ilə yanaşı, özünəməxsus multikulturalizm modelindən də söz açıb, bu modelin fənn kimi həm Avropa, həm də digər ölkələrin universitetlərində tədris olunduğunu bildirib. Bu istiqamətdə BBMM-in fəaliyyəti və həyata keçirilən layihələr barədə qonaqlara məlumat verilib. E.Nəcəfov vurğulayıb ki, bu gün Azərbaycan dünyada multikulturalizmin mərkəzlərindən biri sayılır, multikulturalizmə müasir dünyada müxtəlif yanaşmalar olsa da, ölkəmiz bu sahədə siyasətini uğurla davam etdirir.

Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaski çıxışında ölkəmizə üçüncü dəfə gəldiyini bildirib, Azərbaycanın qısa müddətdə yüksək inkişaf dövrü keçdiyini qeyd edib. Dövlət katibi Ümummilli Lider Heydər Əliyevlə olan görüşündən, onun xarizmatik lider olmasından, ona bəslədiyi dərin hörmətdən və xoş xatirələrindən də bəhs edib.

Görüşdə Rumıniyanın Müsəlman İcmasının Ali müftisi Yusuf Murad çıxış edərək, ölkəsində müsəlman icmasının fəaliyyəti, gördüyü işlər barədə ətraflı məlumat verib.

Sonda qonaqlara "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev multikulturalizmin Azərbaycan modeli haqqında" və "Azərbaycanın seçilmiş İslam abidələri" kitabları

təqdim edilib. Qonaqlar da, öz növbəsində, Rumıniyanın tarixindən, dövlət-din münasibətləri modelindən bəhs edən ədəbiyyat nümunələrini hədiyyə ediblər.

Görüşdə Rumıniyanın Azərbaycandakı səfiri Dan İanku, Rumıniyanın dini məsələlər üzrə dövlət katibliyinin direktoru Sezar Pavalasku, dini məsələlər üzrə dövlət katibliyinin müşaviri Katalin Raiu, Rumıniyada Müsəlman İcmasının Ali müftisinin müşaviri Daniel İout Farkas, Rumıniyanın Azərbaycandakı səfirliyinin missiya rəhbəri Kristian Koroma, Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov, DQİDK-nın Xarici əlaqələr şöbəsinin müdiri Nicat Məmmədli iştirak edib.

* * *



Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti Bakı Beynəlxalq Multikulturalizm Mərkəzində

Mayın 12-də BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov ölkəmizdə səfərdə olan Rumıniyanın dini məsələlər üzrə dövlət katibi Viktor Opaskinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

R.Həsənov BBMM-in fəaliyyəti, həyata keçirdiyi layihələr barədə geniş məlumat verərək, Azərbaycandakı dini durum və dövlət-din münasibətləri, ölkəmizdə milli və dini icmalara göstərilən dəstək və qayğıdan, Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilməsindən geniş bəhs edib.

Görüşdə Azərbaycanda Sivilizasiyalararası Dialoq Mərkəzinin fəaliyyət göstərdiyi və bununla əlaqədar ölkəmizin bir çox beynəlxalq forumlara ev sahibliyi etdiyi, bu mərkəzin xətti ilə cari ildə də beynəlxalq konfransların keçirildiyi bildirilib.

Viktor Opaski Azərbaycanda mədəni müxtəliflik, tolerantlıq və multikulturalizm istiqamətində fəal iş aparıldığını qeyd edib.

Görüşdə Rumıniyanın Müsəlman İcmasının Ali müftisi Yusuf Murad çıxış edib.

Sonda qonaqlara BBMM-in nəşr etdirdiyi kitab və broşürlər hədiyyə verilib.

Görüşdə Rumıniyanın Azərbaycandakı səfiri Dan İanku iştirak edib.

* * *



DQİDK sədri Mübariz Qurbanlının rəhbərliyi ilə nümayəndə heyəti ABŞ-da səfərdə olub

DQİDK sədri Mübariz Qurbanlının rəhbərliyi ilə ABŞ-da səfərdə olan Azərbaycan nümayəndə heyəti mayın 14-də ABŞ Katolik Kilsəsinin rəhbərlərindən biri, ABŞ Yepiskoplar Konfransının vitse-prezidenti, Los-Anceles arxiyepiskopu Xose Horasio Qomezlə görüşüb. Los-Ancelesin ən böyük və müasir üslubda tikilmiş kafedral kilsəsində baş tutan görüş zamanı Mübariz Qurbanlı arxiyepiskopa Azərbaycandakı tolerant və multikultural mühit barədə məlumat verib. O bildirib ki, tolerantlığın ölkəmizdə çox möhkəm təməl sütunları, zəngin ənənələri, dərin tarixi-mədəni kökləri var. Daha sonra dini icmaların liderləri Azərbaycandakı dini tolerantlıq və dialoq mühiti barədə arxiyepiskopla fikir mübadiləsi aparıblar.

Nümayəndə heyəti Los-Ancelesdə nəşr edilən, böyük oxucu kütləsi olan "Jewish Journal" qəzetinin prezidenti Devid Suisa ilə də görüşüb. Görüş zamanı Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında ətraflı məlumat verilib.

Görüşlərdə nümayəndə heyətini Azərbaycan Respublikasının Los-Anceles şəhərindəki Baş konsulu Nəsimi Ağayev müşayiət edib.

* * *



BBMM-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinə həsr olunmuş konfrans

Mayın 24-də BBMM-də Azərbaycan Xalq Cümhuriyyətinin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.

Mərkəzin icraçı direktor əvəzi Rəvan Həsənov Prezident İlham Əliyevin AXC-nin 100 illiyinin qeyd olunması və 2018-ci ilin ölkəmizdə "Xalq Cümhuriyyəti İli" elan edilməsi haqqında sərəncamlarını xatırladıb. Bildirib ki, bu sərəncamlar ölkə başçısının Azərbaycan dövlətçiliyi ənənələrinə verdiyi qiymətdir.

Tədbirdə çıxış edən Prezident Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin böyük məsləhətçisi Ceyhun Məmmədov, Milli Məclisin deputatları Elmira Axundova və Mixail Zabelin, DQİDK sədrinin müavini Gündüz İsmayılov, Qafqaz Müsəlmanları İdarəsinin Aparat rəhbəri Simran Həsənov, BBMM-in müşaviri Aytən Qəhrəman, Prezidentin İşlər İdarəsinin Siyasi Sənədlər Arxivinin baş məsləhətçisi Həcər Verdiyeva, Prezident Kitabxanasının şöbə müdiri Nazim Mustafa, Roma Katolik Kilsəsinin Azərbaycandakı apostol prefekturasının yepiskopu Vladimir Fekete, AMEA-nın Tarix İnstitutunun aparıcı elmi işçisi Kamran İsmayılov, AMEA-nın Hüquq və İnsan Haqları İnstitutunun aparıcı elmi işçisi, Gürcü yəhudiləri icması sədrinin müavini Moisey Bekker və başqaları 1918-ci il mayın 28-də yaradılmış Azərbaycan Xalq Cümhuriyyətinin zəngin dövlət quruculuğu təcrübəsi ilə Azərbaycanın milli dövlətçilik tarixində silinməz izlər qoyduğunu söyləyiblər.

İyun



BBMM-də keçirilən "Qafqazın kilsələri" mövzusunda "Dəyirmi masa"dan görüntü. Çıxış edir BBMM-in icraçı direktor əvəzi Rəvan Həsənov

İyunun 13-də BBMM-də "Qafqazın kilsələri" mövzusunda "Dəyirmi masa" keçirilib.

Mərkəzin icraçı direktor əvəzi Rəvan Həsənov "Qafqaz Albaniyasını öyrənirik" layihəsi çərçivəsində keçirilən tədbirin mövzusu barədə məlumat verib. Bildirib ki, "Qafqaz Albaniyasını öyrənirik" layihəsi Azərbaycan tarixinin qədim və erkən orta əsrlər dövrünə aid olan Qafqaz Albaniyasının maddi-mədəni irsi, tarixi, coğrafiyası, əhalisi ilə bağlı ölkə alimlərinin əldə etdikləri araşdırmaların nəticələrini geniş auditoriyaya çatdırmaq məqsədilə həyata keçirilir. Bu layihə çərçivəsində mütəmadi olaraq müzakirələr, mühazirələr, təqdimatlar və görüşlər təşkil edilir. Bugünkü tədbir də həmin çərçivədə həyata keçirilir.

Sonra İlahiyyat Universitetinin rektoru Ceyhun Məmmədov tədbirin əhəmiyyətini, mövzunun günümüzün aktual məsələləri sırasında yer aldığını vurğulayıb. O, diqqətə çatdırıb ki, Azərbaycan hökuməti belə məsələlərə həssas yanaşır və buna xüsusi önəm verir.

Daha sonra AMEA-nın müxbir üzvü, tarix elmləri doktoru Fəridə Məmmədova "Alban Apostol kilsəsinin yeparxiyaları və erməni kilsəsinin yeparxiyaları", AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Etnoarxeologiya şöbəsinin böyük elmi işçisi Ülviyyə Hacıyeva "Святые реликвии и культы Албанской Апостольской церкви", AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Şəhərsalma, memarlıq tarixi və nəzəriyyəsi şöbəsinin aparıcı elmi işçisi, memarlıq üzrə fəlsəfə doktoru Rizvan Qarabağlı "Qafqaz Albaniyasının dairəvi məbədləri", AMEA-nın Arxeologiya və Etnoqrafiya İnstitutunun Etnoarxeologiya şöbəsinin aparıcı elmi işçisi, tarix elmləri doktoru Məhəbbət Paşayeva "İlk xristian missionerlərinin Albaniyada fəaliyyəti", Alban Udi Xristian dini icmasının sədri Robert Mobili "Alban Apostol kilsəsi: tarix və müasirlik" mövzusunda məruzə ilə çıxış ediblər.

Çıxışlarda bildirilib ki, Qafqaz Albaniyası tarixinin araşdırılmasına xüsusi diqqət yetirilməli, bu işə məsuliyyətlə yanaşılmalıdır. Qeyd olunub ki, xalqımızın mədəni irsi bəşər mədəniyyətinin ayrılmaz tərkib hissəsidir, Azərbaycan ərazisində xalqımızın çoxəsrlik tarixi keçmişindən yadigar qalmış abidələrin mühafizəsi beynəlxalq əhəmiyyət kəsb edən məsələdir.

* * *



BBMM-də Milli Qurtuluş Günü münasibətilə keçirilən tədbirdən görüntü. Çıxış edir Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri professor Etibar Nəcəfov

BBMM-də 15 İyun – Milli Qurtuluş Günü münasibətilə tədbir keçirilib.


Tədbiri açan Mərkəzin icraçı direktor əvəzi Rəvan Həsənov Milli Qurtuluş Gününün böyük ictimai-siyasi və tarixi əhəmiyyəti olduğunu deyib. Bildirib ki, vətənini, xalqını sevən, həmin çətin, ağrılı günlərin dəhşətlərini yaşayan, hadisələri gözləri ilə görən insanlar üçün 15 iyun əsl qurtuluş tarixidir. Bu tarixi yaradan isə Azərbaycanın inkişafında, müstəqilliyində, gələcəyində müstəsna rol oynayan, daim xalqına arxalanan Ulu Öndər Heydər Əliyevdir. Natiq qeyd edib ki, bu gün Azərbaycan xalqı unudulmaz rəhbərin xoşbəxt gələcəyimiz üçün açdığı yolla qətiyyətlə addımlayır.

Sonra Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Millətlərarası münasibətlər, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri professor Etibar Nəcəfov

dövlətçilik tariximizə şərəfli və qürurverici səhifə kimi daxil olmuş 15 İyun – Milli Qurtuluş Gününün əhəmiyyətindən danışıb. O bildirib ki, Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıtması ilə Azərbaycan yeni mərhələyə qədəm qoydu. Ulu Öndərin müdrik, uzaqgörən siyasəti nəticəsində ölkəmizdə gərgin ictimai-siyasi böhran aradan qaldırıldı, sabitlik və iqtisadi inkişaf təmin edildi.

Sonra Avropa Yəhudilərinin Bakı Dini İcmasının rəhbəri Aleksandr Şarovski, Qafqaz Müsəlmanları İdarəsinin sədr müavini Fuad Nurullayev, Bakı şəhəri Dağ Yəhudiləri Dini İcmasının rəhbəri Milix Yevdayev, DQİDK sədrinin müavini Gündüz İsmayılov, Rus Pravoslav Kilsəsinin Bakı və Xəzəryanı Yeparxiyası pravoslav dini təşkilatının nümayəndəsi Elnur Əfəndiyev, Avar Azərbaycan İctimai Birliyinin təmsilçisi Məhəmməd Nooyev, Gürcü Yəhudiləri İcmasının nümayəndəsi Moisey Bekker zəmanəmizin görkəmli dövlət xadimi Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərindən danışıblar. Bildirilib ki, milli qurtuluş ideologiyasının təntənəsi bu gün müstəqil respublikamızın davamlı inkişafında özünü büruzə verir, dünyada Azərbaycanın nüfuzu getdikcə artır. Ulu Öndərin hakimiyyətə qayıdışı ölkədə sosial-iqtisadi və siyasi inkişafın möhkəmlənməsində, dünyaya sıx inteqrasiya olunan modern cəmiyyətin qurulmasında həlledici rol oynadı.

Azərbaycanın multikultural mənzərəsi
Мультикультуральный портрет Азербайджана
The multicultural view of Azerbaijan



Şamaxı cümə məscidi, 743-744-ci illər (2010-2013-cü illərdə restavrasiya edilib)



İsmayıllı rayonu, Lahıc qəsəbəsi, Dulusçular küçəsi

REGİON

"Multikulturalizm" təqdim edir:
ŞİRVAN BÖLGƏSİNİN RƏNGİ

Qürbət ƏZİZ

Baharda 99
Külək 100
"Yavaş dara saçlarını, şaxı sınar" 100

Fəxrəddin ORXAN

Tanrıya məktub yazacam 101
Əqrəblər qaçır... 102
Sonuncu qar 102
"Yüngüldü, deyirlər, əlin quş kimi" 103

Zahid SARITORPAQ

"Qapandı gözlərim. Ölməmişəm. Yox" 104
"Görən hardan gəlir bu Dəniz Səsi?!" 104
"bu qış göylərinin qar uçqunları" 105
"yüyürə-yüyürə gecə uzunu" 105
"divarın üzündə soyuq bir işıq" 105
"bir əlçim dumandı, ya son nəfəsdi" 106
"yolsuz-yolağasız Çöldü – durmuşuq" 106
"köhnə qəbirlərdi kol-kos içində" 106

Fazil AYDIN

Çıxaq dağlara-dağlara 107
Elin içindən gəlmişəm 107
Muradıma yetir məni 108
Ömrümü yazıb gedirəm 109

Əbülfət NOVRUZ

Hacıleylək 110
"Niyə pərişansan, ay Dədə, boş ver" 111

Sabir SARVAN

Özümü sözə çevirdim 112
Yaşıdım bina 112
Payızda getmişdin 114

Sara SELCAN
Şükür, İlahi! 115
"Duyduğum bu kədərin" 116
"Gəmisiz limanlarda" 116
Ədalət ƏSGƏROĞLU
"Deyilənlər gerçəkdimi" 117
"Gün-güzarım pozuq düşüb" 117
"Tərsə düşən yazıların" 118
"Sığınıb Tanrı eşqinə" 118
Hikmət MƏLİKZADƏ
"Yenə də əl sürtürəm, otaqlar bumbuz, soyuq" 119
"Ağ kölgə kimiyəm gör neçə vaxtdır" 120
Çingiz ƏLƏSGƏR
Vətən – bizik 121
Bir yol çəkmək istəyirəm 122
Mən bir söyüd budağıyam 123
Qurban YAQUBOĞLU
Sakitlik 124
Birinci şeir 124
İkinci şeir 125
Suya girən kimi 125
Bütün gün 126
Elsevər QƏNİ
Məni 127
Mənə bəsdi 127
Heydər ƏLƏDDİNOĞLU
"Hələ dərdlərimçin körpə uşağam" 128
"Məni qoyub hara getdi" 128
"Günəşlə bir yerdə qar ola bilməz" 129
Səməd AYXAN
"Özünü bir kəndin dəlisi kimi" 130
"Bir daxma nə darısqal" 130
"Allahın yoxluğu qəzəb oyadır" 131
İbrahim İSRAFİL
Gecələr 132
Dünyada 133
Seymur SU
Bir əsrlik şeir yaz 134
Bir fotosu qalmış adam 135

Alik DƏNİZSEVƏR
Solan çiçək....137
Gözüntək qoru....138
Qorxmaz ŞIXALIOĞLU
Yə kumığənəd kum halo! 139
Bizim kənd kimi kənd hanı!....139
Ləhəd riş 139
Qara qız 139
Zov Qoquce, Kım yəəce 140
Göy Allahın, Yer bizimdi. 140
Şahməmməd DAĞLAROĞLU
Vətən....141
Vətən....141
Fikir soz 142
Fikirləş 143
Tı ki rafdi....144
Səni görməyə 144
Ösızə çişmeyum, simsızə sozum....145
Bir susan bulağam....145
Ömər XƏYYAM
Çinar at 147



Qürbət Əziz
(1941-2012)
(Şamaxı)

Baharda

Çaylar daşır, sular yenə lillənir,
Üfüqlərin yanaqları tüllənir.
Ana torpaq pardaqlanır, küllənir
Qönçələri kül eləyə-eləyə.

Lalələrin yanağına xal düşür,
Bənövşənin yuxusuna bal düşür.
Düzənlərdən zirvələrə yol düşür –
Hamı gedir yol eləyə-eləyə.

Nəğmə tutub şəlalə də, bulaq da,
Qış azıbdır o dərədə, bu dağda...
Şeyda bulbul yorğun düşüb budaqda
Nəğməsini zil eləyə-eləyə.

İstərəm ki, ayrılıqlar üzündən
Xatirələr dənizində üzüm mən.
Uşaqlığım itib gedib gözümdən,
Mən qalmışam əl eləyə-eləyə.

Külək

Nədir bu dağlara hücum çəkmisən,
Ay inciyən külək, küsəyən külək!
Yoxsa bu yerləri vətən seçmisən,
Ay vətənsiz külək, gəzəyən külək?

Yenə şıltaqlığın tutub ucunu,
Qapdın qocaların əl ağacını.
Gəlin çinarların yolub saçını
Yolları, izləri bəzəyən külək.

Budaqlar əlindən dad-aman etdi,
Xəzəl cığırları bağrı qan etdi.
Nə qədər telləri pərişan etdi
Bu Məcnun eşqinə bənzəyən külək.

* * *

Yavaş dara saçlarını,
şaxı sınar,
Saçlarına tapşırmışam öpüşümü,
Gözlərinə tapşırmışam gülüşümü.
Bir dastan var ürəyimdə
məhəbbətdən,
Bu dastanım bir kəlmənin həsrətində.
Xəyalınla yaşayıram
hər anı mən,
Ayım, günüm hər anının möhnətində.
Yaman əsdi bu gün külək –
axı deyən
Saçlarını daramağa tələsir o.
Yanındadır fikrim, huşum,
a sevgilim,
Surətini aramağa tələsir o.



Fəxrəddin Orxan
(1956-2018)
(Şamaxı)

Tanrıya məktub yazacam

Cismimi məzara aram qoyarsız,
İllərcə içində saf ruh döyünmüş.
Yanıma yarımçıq bir şam qoyarsız –
Elə özüm kimi yanmış və sönmüş.

Məzara kağız da, qələm də qoyun,
Ən gözəl şeirimi orda yazacam.
Barı məni azad öləndə qoyun,
Tanrıma məktubu orda yazacam.

Yazacam: "Hüsnünə susuzam, acam,
Candan çox istədim xətrini, Tanrım.
Alın yazısını cəhd etdim açam,
Oxuya bilmədim xəttini, Tanrım.

Alnımı köçürtdüm suya, torpağa,
Sözlər tul elədi gün işığında.
Alnımı köçürtdüm ota, yarpağa,
Hərf cücərmədi qırışığında.

Mənə bəllənmədi ömrün mənası,
Oxuya bilmədim sənin xəttini.
Bir ömür güdaza verdim mən azı,
Bağışla, bağışla bu Fəxrəddini!.."

Hansısa mələyin yumşaq əlində
Haçansa Tanrıdan cavab gələcək.
Tanrı xətti ilə Tanrı dilində
Nə yazsa, Tanrımın Özü biləcək.

Əqrəblər qaçır...

İndi saatla da tutmur söhbətim,
Üzümə baxdımı – əl-ayaq açır.
Bilməzmi dünyada bitir möhlətim,
Bəlkə də kövrəlib o məndən qaçır.

Qaçır göz yaşını görməyim deyə,
Uzaqdan yaylığı sındırır məni.
Fələyin Əqrəbi yol açır göyə,
Yerdəki əqrəblər yandırır məni.

Biri yol dəyişir, biri göz yumur,
Guya ürəyində iş ölçüb-biçir.
Biri günahını sözlə də yumur,
Sanki köhnə qəbrin yanından keçir.

Bu qədər qorxulu azar nə pismiş?
Saniyəölçən də dözmür, tablamır.
Yaxşı ki, əhdini zəhərlə kəsmiş
Əqrəblər dünyada vaxt hesablamır.

Sonuncu qar

Gəldinmi, ömrümün sonuncu qarı?
Bir az da asta uç, doyunca baxım.
Dönür süd çayına ömür yollarım,
Qarışıb anamın döşünə axım.

Həmişə üzünə soyuq baxmışam,
Unut! İsti-isti gəl vidalaşaq.

Bəlkə mən yanına qalxım bu axşam,
Bir işıq telindən tutub sallaşaq.

Uzansın həsrəti qara torpağın,
Ovunu gözləyən yalquzaq kimi.
Qaranlıq dünyaya aparan axın
Gizlənib səmada bir duzaq kimi.

Ümidlər cücərir yerdən yuxarı,
Ya quraqlıq düşür, ya şaxta düşür.
Gəldinmi, ömrümün sonuncu qarı?
Sinəmdə bir dəcəl nəfəs sürüşür.

***

Yüngüldü, deyirlər, əlin quş kimi,
Qəbrimin üstünə sən də torpaq at.
Uyuyum ölümlə bir bihuş kimi,
Gözümdən gəlməsin girdiyim həyat.

Qalsın damağında həyatın dadı,
Mələklər ömrünə həsəd aparsın,
O dünya mən deyən oldu-olmadı,
Bir müddət ruhunu xatirə sarsın.

Xatirə yazılı gündəlik deyil –
Varağı cırıla, hərfi pozula.
Görüb-götürdüyüm bəndəlik deyil,
Mənə çürüməyən yaddaş arzula.

Yaddaşım dil açıb çox şirin ötər
Köçdüyüm dünyadan tərif deyəndə.
Tanrının dostları dadıma yetər
Kəfəni soyunub torpaq geyəndə.



Zahid Sarıtorpaq
(Şamaxı)

***

Qapandı gözlərim. Ölməmişəm. Yox.
Kimdisə nahaqdan çırpır dizinə.
Yox… ağlayan yoxdu. Yağışdı yağır,
açın pəncərəmi yağış səsinə.

Yox… yağış da deyil. Quşlardı
göydən
tənəkə damlara tökülür… qonur…
Quşlar da deyil heç…
açdım gözümü…
Söndürün şamları… Şeir oxunur…

***

Görən hardan gəlir bu Dəniz Səsi?!
qalxmışıq yuxudan Dəniz Səsinə.
Yelkənlər tikmişik kəfənimizdən,
çıxmışıq eləcə Çölün düzünə.

Yovşan iyi gələr Çöl gecəsindən,
burdasa hər tərəf yosun qoxuyur.
Çöl nədi?
Dəniz nə?
...bəlkə Rəbbimiz
alın yazımızı geri oxuyur?

***

qaranlıq düşsə də, açılır gülü,
ağac da eşqini sübhə saxlamır.
buludlar içində ağlaya bilmir,
sevənlər, sən demiş, bərkdən ağlamır.

hönkürtü səsləri Haqq yerdən gəlir,
belə qaranlıqdan xoşbəxtdi keçən.
palçıq daxmalarda, kasıb yurdlarda
bəxtsiz çırağından his çəkir gecə.

***

bu qış göylərinin qar uçqunları
dünyanı dar görüb nə deyir axı,
kimə başa salır, kimə öyrədir
hardan qayıtmağı, hara yağmağı?

o yuxusuz işıq neyləyir məni,
ona ki nə bir ah, nə bir əl yetir.
içindən buz tutmuş bir pəncərəni
çöldən niyə döyüm, xeyiri nədir?!

***

yüyürə-yüyürə gecə uzunu
ulduz axan səmtə hürüşür itlər.
bir qoca alının qırışlarından
sonuncu yazını yuyur soyuq tər.

batan hıçqırtı da qurtulur dardan,
sakit bir ağıdan tutub dikəlir.
hər şeydən xəbərsiz, qaranlıqlardan
it hürən tərəfə bir yolçu gəlir.

***

divarın üzündə soyuq bir işıq,
işığın üzündə kölgə qırışı.
bir qoca söykənib o boz divara –
üzündə taleylə qəmli barışıq.

gözləri bulanıq sular içindən
baxır son qapıya, baxır yuxarı.
özü də bilmir ki, dünyada nəylə
gəlir barışığa ömrün axırı.

***

bir əlçim dumandı, ya son nəfəsdi,
qalxır sinəsindən bu yorğun Çölün.
bir çobanaldadan yağışı kimi
gah Sevgi aldadır burda, gah Ölüm.

Tanrı ucalarda, dostlar uzaqda,
bu batil ömürdən nə gözləyirəm?
düşmən həniri də gəlmir arxadan
biləm ki, bu Yolda yalqız deyiləm.

***

yolsuz-yolağasız Çöldü – durmuşuq,
dolaşıbdı burda zamanın çarxı.
görən hansı vaxtdı Ölüm Vaxtıyla,
ömrün gecəsidi, yoxsa sabahı?

adamlar çaş-başdı bu biyabanda,
əlacsız-əlacsız dolaşır hamı.
əqrəbləri düşmüş saat kimiyəm –
üzümə baxanlar bir şey anlamır.

***

köhnə qəbirlərdi kol-kos içində,
qonub başdaşına şanapipiklər.
əlacsız adamın burda nə işi,
Tanrı bəndəsini hara sürüklər?!

ölümlə nə durur aramızda ki –
bir uçuq divardı, bir sınıq qapı.
bir addım bəridə sevda ələmi,
bir addım o yanda Haqqın girdabı.



Fazil Aydın
(Şamaxı)

Çıxaq dağlara-dağlara

Sərin bulaq göz suyudu,
Damcısı ulduz sayıdı.
Təbiətin qız toyudu,
Çıxaq dağlara-dağlara.

Gəldik Muğan çöllərindən,
Məst olmağa güllərindən.
Tutub göyün əllərindən
Baxaq dağlara-dağlara.

Duman hələ yolda qalıb,
Gözü kordu, dalda qalıb.
Dərdimizin döşü dolub –
Sağaq dağlara-dağlara.

İz saldıqca dar yoxuşa
Ürək istəmir yığışaq.
Dönüb çıskinə, yağışa
Axaq dağlara-dağlara.

Elin içindən gəlmişəm

Sözlə hörülübdür yuvam,
Od-ocağım, elim-obam.
Ustadımız Sabir babam –
Onun gücündən gəlmişəm.

Bir az məni közə tutun,
Əllər üstə təzə tutun.
Gecə-gündüz sözə tutun –
Vallah, acından gəlmişəm.

Ömür gedir qazılmağa,
Günün varmı yaz olmağa?
Şair kimi yazılmağa
Dərviş köçündən gəlmişəm.

Bu dünyanın qəmi mənim,
Hicran üstə dəmi mənim.
Dərddən bitən zəmi mənim –
Əkin-biçindən gəlmişəm.

Uca göyə çatıb qolum,
Heç bilmirəm ölüm, qalım?
Neçə sərhəd aşıb yolum,
Elin içindən gəlmişəm.

Muradıma yetir məni

Sevgi adlı bir kitabam,
Oxu, gülüm, bitir məni.
İsti nəfəsə möhtacam,
Biganəlik didir məni.

Qurd ulayır, çomağım yox,
Sığınmağa ocağım yox,
Papaqçıyam – papağım yox,
Qışdan yaza ötür məni.

Şirin-şəkər bal xəyallar
Dilim üstə söz sağırlar.
Yorar səni uzun yollar,
Qəlbini aç, götür məni.

Bu dərdimin çox yaşı var,
Qəlbim kimi sirdaşı var.
Quzeylərin buz daşı var –
Güneylərdə bitir məni.

Başım edam kötüyündə,
Tanrım, baxıb durma gendə,
İki əlim ətəyində –
Muradıma yetir məni.

Ömrümü yazıb gedirəm

Hər tərəfim qalın meşə,
Günü, ayı çəkdim şişə.
Ağlama, balam bənövşə,
Dərdimi asıb gedirəm.

Arı çəkər bal dadımdan,
Yolçu, isin gəl odumdan.
Damla-damla buludumdan
Varağa sızıb gedirəm.

Gün çox düşər bir budağa,
Necə sığım bu otağa?
Gah arana, gah da dağa
Ömrümü yazıb gedirəm.

Xoşbəxt olar qəfəsdə kim?
Fərman verib bu qəsdə kim?
Doğma səsdən səs istədim –
Gəlmədi, azıb gedirəm.

Bu dünyada qalmaq üçün,
Neçə körpü salmaq üçün,
Öz notumda çalmaq üçün
Qəbrimi qazıb gedirəm.



Əbülfət Novruz
(Şamaxı)

Hacıleylək

Hacıleylək, gözüm səni itirməz daha,
Uçuşundan səadət də qoxuyur hərdən.
Bu çöllüklər məcnunluğu götürməz daha,
Ürəyimiz başqa dildə oxuyur hərdən.

Hacıleylək, hacılığın yaxşıdı elə,
Çox ötmüsən bu zamandan, bu axan vaxtdan.
Sənin üçün tale verən naxışdı elə,
Çabalayan balıqları dənlə bu arxdan.

Çox sınadım "şər deməsən, xeyir gəlməz"i,
Hacıleylək, bu yolları bürkümü tutub?
Müvəqqəti gələsilər getsin, gəlməsin,
Müvəqqəti gedəsilər yükünü tutub.

Sənin üçün yer də vətən, göy də vətəndi
Qışa düşdün, vətəndə də qəribsən, demək.
Qəfilliklər birdən gəlib, birdən ötəndi,
Söküb-tökən leysanları görübsən, demək.

Bu göydəki sonsuzluğa aldanma çox da,
Yersiz o öz məqamını saxlayan deyil.
Boynundakı ucalıqda daldanma çox da,
Bəlaların qapısını bağlayan deyil.

Hacıleylək, itib-batıb zümrüd quşları,
Eh, nə bilim, bəlkə elə mənimçün yoxdu.
Qanadların xatırladır ağappaq qarı,
Yorğanını çək üstümə, mənə soyuqdu.

Hacıleylək, sən də elə köçəri quşsan,
Mən də elə sənin kimi köçəri adam.
Uşaqların hay-küyündən perikib uçsan,
Böyüklərin qəzəbini çətin ovudam...

***

Niyə pərişansan, ay Dədə, boş ver,
Haqqın gərdişinə gorunu qoş, ver.
İmdad istəyənin əlinə daş ver,
Bir qaval daşıdır hər daş, bir Vətən –
Bir qopuz, bir qələm, bir sən, bir də mən...

Çəkdi qılıncını qardaş qardaşa,
Vaxta vaxt qalmadı, bəxtəbəxt yaşa...
Qazaq gorumuzu yanbayan, qoşa,
Gedək bu utancdan, ovunsun bədən –
Bir qopuz, bir qələm, bir sən, bir də mən...

Hopdumu torpağa Beyrək, Yalıncıq?
Sən də bu səfərə əliyalın çıx.
Yollarda izlərin gözləri açıq,
Anar sahibini, dolar qəhərdən –
Bir qopuz, bir qələm, bir sən, bir də mən...

Ay haydan hallanıb huya gedənlər,
Guya yaşayanlar, guya gedənlər,
Soyunu soyunub "boya" gedənlər,
Sizi də üyüdər bu fələk dən-dən –
Bir qopuz, bir qələm, bir sən, bir də mən...

Baş düşdü, ox yaydan çıxıbdır daha,
Başlar diyirləndi üzü Allaha...
Hər ev bir qaladır, hər otaq kaha –
Bir kimsə haraya yetişməz nədən?
Bir qopuz, bir qələm, bir sən, bir də mən...



Sabir Sarvan
(1956-2017)
(Ağsu)

Özümü sözə çevirdim

Yatmadım səhərə kimi,
Yaramı duza köçürdüm.
Aranı dağa daşıdım,
Payızı yaza köçürdüm.

Gördü ki, təzə cığaldı,
Qımışdı dünya bığaltı.
Ağlımı ağ buxaq aldı,
Ruhumu saza köçürdüm.

Fanidə ömür sürürdüm,
Altdan işimi görürdüm.
Özümü sözə çevirdim,
Sözü kağıza köçürdüm.

Yaşıdım bina

Sumqayıtda
yaşıdım olan bir bina var,
Binəsi mən doğulan ili
qazılıb,
Alnının ortasına
1956 yazılıb.
Dər-divarında rüzgarın izləri,
Gecələr par-par yanır
pəncərə gözləri.

Harda olsam,
Harda yaşasam da, yenə
O bina alın yazısından
bir köynək daha yaxındır mənə.
İki yol ayrıcında,
daş qüruruyla dayanıb
yaşıdım,
Elə bil arşın udub.
Bənnalar onun kərpiclərini
atıb-tutanda
Anam da məni qucağında atıb-tutub.
Sumqayıtda
yaşıdım olan bir bina var,
üst mərtəbələri insan yuvası,
altında mağazalar,
bir də bir ovçu dükanı,
balaca.
İntihar fikrinə düşsəm,
silahı o dükandan alacam.
Sumqayıtda
yaşıdım olan bir bina var,
Orta boylu,
qaraqabaq bir binadı.
Yer qaçmasa ayağının altından,
olmasa özgə bir qəza-filan,
bizdən tüstülü xatirələr
danışmaq sarıdan ümidim
təkcə onadı.

Payızda getmişdin

Canımdan aralı deyildin axı,
Niyə uzaq düşdün, indi hardasan?
Əl dəysə çağlayar, dil dəysə sızlar –
Ürəyim bir sarı simdi,
hardasan?

Həsrətin qırmızı yəhərdə gəldi,
Qoparır sinəmdən ah harda gəldi.
Payızda getmişdin, bahar da gəldi,
Yerinə durnalar döndü,
hardasan?

Başının üstündə ülkər mən idim,
Məhəbbət adlanan ölkən mən idim,
Həmdəmin, əzizin, kölgən mən idim,
Bəs indi yanında kimdi,
hardasan?

Dünənə ayna tut, bax orda mənə,
Gör nələr elədin axırda mənə...
Gözündən dünyalar baxardı mənə,
Gözümdə dünyalar söndü,
hardasan?



Sara Selcan
(Hacıqabul)

Şükür, İlahi!

Min sirrin var bilinməyən,
Dil-dodaqla deyilməyən.
Alnımızda görünməyən
Yazına şükür, İlahi!

Yaş var qısa, yarımçıq,
Yaş var qarğadan da çox,
Yaratdın körpəsindən qarıcıq,
Pozuna şükür, İlahi!

Şeytanın mələk dondakı,
Cənnət-Cəhənnəm sondakı.
Yaşılca yarpağındakı
Tozuna şükür, İlahi!

Cücərtmişəm qəm toxumu,
Kədər udub qorxumu.
Nə qəmli yozdun yuxumu,
Yozuna şükür, İlahi!

Bir sünbülə min dən verdin,
Min dərdə bir bədən verdin,
Verdiyini birdən verdin,
Azına şükür, İlahi!

* * *

Duyduğum bu kədərin
Qəribə qoxusu var,
Kim deyirsə yalandır –
Quşun da yuxusu var.

Qağayının yuxusu
Dənizdəki ləpədir.
Göyərçinin yuxusu
Körpədən də körpədir.

Qaranquşun yuxusu
Saman çöpündə itir.
Sığırçının yuxusu
Gömgöy yemlikdə bitir.

Uyğusu sığal çəkir
Çöllərə küləklərin,
Yuxusundan tanıdım
Ən gözəl mələkləri.

* * *

Gəmisiz limanlarda
Yola çıxıb yosunlar.
Dənizlərdə su hanı
Saçlarını yusunlar.

Yosunlar vəfalıdır
Vəfasız gəmilərə.
Çınqılsız sahillərdə
Kimə, kimə, kimlərə.

İtib-batır aylarla
Gəmilərin fit səsi,
O səsdə dincin alır
Yosunların nəfəsi.



Ədalət Əsgəroğlu
(1957-2013)
(Göyçay)

***
Deyilənlər gerçəkdimi
Könül onu göyçək saysın?
Yazılara qələm çalan
Gülün vursun, çiçək saysın…

Alqışam söz qarasında,
Haqq qaşla göz arasında.
Düz düzdümü sırasında
Sonrasını fələk saysın.

Əsgəroğlum halım duysun,
Boy verin boylanıb dursun.
Qanadlanan eşqim olsun,
O da özün mələk saysın.

***
Gün-güzarım pozuq düşüb,
Görün rüzgar nə istəyir?
Pərdə çəkib üz-gözünə
Özü aşkar nə istəyir?

Can istəyir, canım peşkəş,
Qəm istəyir, mənəm qəmkeş.
Versin üç-üç, alsın beş-beş,
Özgə nə var, nə istəyir?

Əsgəroğlum, ayrılıq var,
Yol bitirməz haça yollar.
Gedənə yar, gələnə yar,
Mənəm zəvvar, nə istəyir?

***

Tərsə düşən yazıların
Zavalı bir navaldı ki…
Surətin gör binəvanın,
Görsən demə xəyaldı ki…

Yar yaxasın çəkə yana,
Amansız qala divana.
Aşiq ki qıymasın cana –
Cavabı yox sualdı ki...

Şeh düşüb könül xalına,
Gəl indi döz məlalına.
Əsgəroğlum, xoş halına
Halın zurna-qavaldı ki...

***

Sığınıb Tanrı eşqinə,
Hürr olan, hürr olum necə?
Könül, odun bəs eyləmir,
Bu odnan kül olum necə?

Cana məlhəm sözü yoğur,
Ələ düşmür belə uğur.
Olumdan bir ölüm doğur,
Ölümdən bir olum necə?

Əsgəroğlum çox yanası…
Tikansızdı gülxanası.
Eşqin dəli-divanası
Deməz ki, pir olum necə?



Hikmət Məlikzadə
(Şamaxı)

***

Yenə də əl sürtürəm, otaqlar bumbuz, soyuq,
Divarlardan toz kimi qopur xatirələr də.
Çölümü gün ağardır, içim zülmət adası,
Arada gözlərimə hopur xatirələr də.

Könül evim boş qalıb, sən hardasan, əzizim?
Mən ki divar deyiləm, canım, mən də adamam.
Allah da üz çevirib; nə deyirəm, darılır,
Barı sən üz çevirmə, sanım mən də adamam.

Küçəmizdə nə vaxtdı donub ayaq səsləri,
Oğru pişiklər kimi yol güdürəm hələ də.
Mən indi anlayıram, axşamdan çırpınan qurd
Ovçunun gələn çağı nə düşünür tələdə...

Daha canda nə dözüm, nə tab yoxdu, qayıt gəl,
Yoxsa hicran canıma zəli olar, divanəm.
Məcnun olmaqla bitsə sevgi oyunları, eh,
Onda aləm büsbütün dəli olar, divanəm.

Baxışlarım heç kimə, şükür, bal dadmır artıq,
Arıya könül vermir bəlkə bar ağacları?!
İndi nə sən burdasan, nə mən sən olan yerdə,
İndi məni özünə çəkir dar ağacları...

Bir boz şeytan oturub Allahla qabaq-qənşər,
Nə vaxt sənə gəlirəm, topa tutur, daşlayır.
Beləmi bitsin indi bu nağılın sonu, qız?!
Bəlkə sənsiz sevgimin cəhənnəmi başlayır...


***

Ağ kölgə kimiyəm gör neçə vaxtdır,
Bəlkə hislərimə kəmər yollayım?
Neynim, üzüm gəlmir əl açım şərə,
Pul ver, öz yasıma nəmər yollayım.

Mən dünən ölmüşəm, indi bilirlər,
Ruhum ilmə tutub hanamdan betər.
Şəklimin yerindən kitab asıblar,
Şeytan ağı deyir anamdan betər.

Duyğumu bükməyə ağ axtarmayın,
Cana işıq verir cuna da, şükür!
Kimsə nalə çəkir bayatı üstə,
Mən "Segah" sevərdim, buna da şükür...

...Hey səni gözlədim ölü rəngində,
Qapımı döyən qız Yetər imiş ki...
Öldüm, elə bildim canım qurtardı –
Ölmək ölməməkdən betər imiş ki...



Çingiz Ələsgər
(1958-2016)
(İsmayıllı)

Vətən – bizik

Gördünmü, Vətən, sənin yolunda
Sənin türk oğlunla sənin kürd oğlun,
Sənin talış oğlun, sənin tat oğlun,
Sənin ləzgi oğlun, yəhudi oğlun,
Sənin avar oğlun, ingiloy oğlun,
Sənin lahıc, hapıt, neçə soy oğlun
Birləşib bir oldular
düşmənin qabağında?!
Şəhidliyə çatdılar
gözəl Qarabağında.
Gördünmü, Vətən,
oğullarının ataları nə dedi –
şəhid məzarlığında
bayrağını öpüb,
gözü üstə qoyanda?!
Eşitdinmi anaların, bacıların səsini
şəhid tabutu üstdə
neçə dildə ağı deyəndə?!
Gördünmü necə məğrur dayanmışdı
şəhid qardaşları?!
Əllərində bayrağın
insan selinə dönmüşdü vətəndaşların.
Gördünmü Təbriz necə hayqırdı,
Dərbənd sükutu necə qırdı?!
Tanıdınmı dostunu – Türkiyə, Pakistanı?
Ətrafına nəzər sal, düşməni yaxşı tanı.

Bildinmi ki, nə zaman
XALQ dönüb MİLLƏT olur?
Bildinmi ki, o zaman
Vətəndə qüdrət olur?
Bəs özümüz bildikmi:
Vətən – bizik, bir olanda
bu torpaq başımızda tac olur!
Vətənsizik təklənəndə,
bu torpaq özgəyə möhtac olur.

Bir yol çəkmək istəyirəm

Bir yol çəkmək istəyirəm
ürəklərdən ürəklərə.
Bir yol çəkmək istəyirəm
arzulara, diləklərə.
Bir yol çəkmək istəyirəm,
nə toz, nə də palçıq olsun.
Bir yol çəkmək istəyirəm,
hər yolçuya açıq olsun.
Mən bu yolla insanların
qüssə, kədər, naləsini
"dönməzliyə" aparım.
Mən bu yolla insanların
həya, arzu şöləsini
"sönməzliyə" aparım.
Könüllərdən iztirabı,
Yer üzündən min əzabı,
ürəklərdən xəbisliyi,
insanlardan hər pisliyi,
odlu, qanlı silahları,
cinayəti, günahları,
sərxoşluğu, əyyaşlığı,
qalaq-qalaq bu daşlığı
uzaqlara daşıyım.

Əvəzinə səadəti,
sevinc, gülüş, təravəti,
zirvələrə yüksəlişi,
aydın səma, al Günəşi
uşaqlara daşıyım.
İstəyirəm ömrüm boyu
mən bu yolda yaşayım.

Mən bir söyüd budağıyam

Mən bir söyüd budağıyam,
söyüd budağı,
elə sevirəm ki, mən bu dünyanı,
elə sevirəm ki, ana torpağı,
bu sevgi gücüylə, həyat eşqiylə
köksüz də göyərib bitə bilərəm.
Bir anın içində neçə illərin
mən söyüd boyuna yetə bilərəm.

Təki al Günəşdən nur payım olsun,
Torpaq şirəsini əsirgəməsin.
Təki insanlarda etibar olsun,
Məni sındırmasın, məni kəsməsin.

Göyərib boy atım məhəbbət ilə,
açım ürəyimi yaşıl yarpağa.
Mən bir söyüd budağıyam,
söyüd budağı.



Qurban Yaquboğlu
(Şamaxı)

Sakitlik

Sakitəm.
Günün nuru
Bayram fişəngi kimi səpilib havaya.
Qəzəbdən,
Ağrıdan,
Düşüncədən
ayrılmışam.
Yormur məni musiqi, heyrət…
Sakitəm.

Sakitəm –
Dörd tərəfim suyun altı kimi sakitdir.

Birinci şeir

…Getdin.
Dalınca baxışlarım
təyyarənin ardıyca pozulan xətt kimi
pozuldu.

İndi yoxsan,
divardan asılmış xalatın
necə cansızdı, kimsəsizdi;
çöldə də hava qaralır.

Ev yiyəsiz xarabadı sanki,
otaq da yarıqaranlıq;

təklik
gecələr su qırağı kimi qorxulu
görünür mənə.

Eşikdə nəsə tökülür,
nəsə səs eləyir.
Uzun sürən qış gecəsi
başlayır bax beləcə...

İkinci şeir

...Eşikdə yağış maşın kimi səs eləyir;
Elə bil avtobusda harayasa gedirəm.
Bir bax
divardakı şəklinə!
Yağışdan uzaqdı – qorxmuram,
soyuqdan uzaqdı.
Eşikdə
yağış səni də çağırır.
Divardasa
neçə il qabaq çəkdirdiyin kiçicik şəkil.

Olsun ki, illər ötəcək –
Sən qız vaxtı kimi gözəl görünəcəksən...

Suya girən kimi

Suya girən kimi
girdim aylı gecəyə.
Uzaq ulduzlardan uçub gələn
külək
uşaq kimi
qucaqladı boynumu.

Göy
qulun dərisi kimi hamar,
göy qız dodaqlarıtək dolu.

Suya girən kimi
girdim gecəyə;
Düzənlərə aylı gecə
dağılıb
yanaqlara dağılan qəm kimi.

Bütün gün...


Bütün günü
ov kimi həyəcanlı olmuşam.
Yorğunam, ağrıyıram.
Günlər elə getdi ki, qayıtmağına
ümid yox.
Ürəyim güllü yaza aldandı,
əlim, üzüm, gözüm peşman düşdü.

İnciməyin, siz Tanrı,
yorğunam.
Bir-iki kəlmə sözüm var.

Həm də heç nəyin ustadı deyiləm!
Əvvəllər ümid edərdim,
Sabahları bayram günləritək
gözlərdim.

Ayaqüstə olmuşam gün uzunu,
ayaqlarım
zirzəmi kimi sızıltılı.

Dünən gecədən hava da dəyişib,
Bu gün
bütün günü ov kimi həyəcanlı olmuşam.



Elsevər Qəni
(Şamaxı)

Məni
(Təcnis)

İstərsən qatlaşım hər zəhmətinə,
Yüz yol imtahan et, ya sına məni.
İstərəm dostları salamat görüm,
Çağırma heç kimin yasına məni.

Haqqı inkar etməm versələr ağı,
Qəbrimin üstündə desələr ağı,
Mələklər hopdurub ruhuma ağı,
Təmizlər Tur məni, ya Sina məni.

Elsevər düşündü, bir yazı yazdı,
Bir ömür yaşadı, hər yazı yazdı...
İlahi möminə bir yazı yazdı,
Deyildi tapşırın "Yasin"ə məni.

Mənə bəsdi

İlahi nə veribsə,
Deyirəm mənə bəsdi.
Qabarımla qazandım,
Yeyirəm, mənə bəsdi.

Mən boğuram tamahı,
Yaxına qoymam ahı,
Yaradanım Allahı,
Öyürəm, mənə bəsdi.

Könlümdən keçməyir tac,
Nə tox oldum, nə də ac,
Qalmamışam yalavac,
Geyirəm, mənə bəsdi.



Heydər Ələddinoğlu
(Şamaxı)

***

Hələ dərdlərimçin körpə uşağam,
Niyə acımırsan yaşıma, dünya?
Yazıma, yayıma bir pay vermədin,
Nə verəcəksən ki qışıma, dünya?

Bəxtin bu nahamar daşını durum
Göyəmi tullayım, yerəmi vurum?
Arzudan-diləkdən dedim ev qurum,
Bənna tapılmadı daşıma, dünya.

Günlərə yalançı ümid vermişəm,
Min kədər görmüşəm, min qəm görmüşəm,
Beşcə gün qoynunda ömür sürmüşəm,
Onu da qaxırsan başıma, dünya.

***

Məni qoyub hara getdi
İçində batdığım dostlar,
Üşüyəndə pencəyimi
Çiyninə atdığım dostlar?

Biri durub baxa yola,
Biri durub saçın yola,
Dərdlərini qızıl pula
İçimə satdığım dostlar.

Qışqırsam da, duymadılar,
Qəbrim üstə qoymadılar.
Bir çiçəyə qıymadılar
Qəbrində yatdığım dostlar.

***

Günəşlə bir yerdə qar ola bilməz,
Susuz səhralarda bar ola bilməz.
Vallah, məndən sənə yar ola bilməz,
Burax çıxım gedim, ay gül bənövşə.

Bu dağın çiskini, qarı deyiləm,
Bağının meyvəsi, barı deyiləm,
Nazını çəkəcək arı deyiləm –
Burax çıxım gedim, ay gül bənövşə.

Var-yoxdan bir qələm, bir varağım var,
Dərdi daramağa bir darağım var,
Üç balam, üç gülüm, üç çırağım var –
Burax çıxım gedim, ay gül bənövşə.

Mənim zatım insan, səninki güldür,
Sənin sevgin ətir, mənimki dildir.
Yarıtmaz bu eşqi duyanlar güldü –
Burax çıxım gedim, ay gül bənövşə.

Hələ ki həyatdan umacağım var,
Eşqi yaşatmağa bir bucağım var,
İsti bir yuvam var, bir ocağım var –
Burax çıxım gedim, ay gül bənövşə.

Günləri ömrünə cala, düz yaşa,
Əlini sevgindən götür, üz yaşa,
Mən necə dözmüşəm, sən də döz yaşa –
Burax çıxım gedim, ay gül bənövşə.



Səməd Ayxan
(Şamaxı)

***

Özünü bir kəndin dəlisi kimi
görürsən, bir anlıq dizin boşalır.
Görürsən hamının yazığı gəlir,
görürsən arvadın səndən boşanır.

Yaxın bir qohumun qəzaya düşüb,
oğlun yaralanıb, bir qızın ölüb.
Görürsən bir vaxtlar uşaq olanda
səmadan seçdiyin ulduzun ölüb.

Saata baxırsan, saat da yoxdur,
Axı kim götürüb saatı burdan?
Deyirsən qoy gedim evə baş çəkim,
Görürsən qaranlıq ələnib yurda.

Açırsan gözünü qan-tər içində,
Baxırsan otağa yarıyuxulu:
Saat rəfə düzür divarda vaxtı,
Sinəndə bir qadın qolu yıxılıb...

***

Bir daxma nə darısqal,
əşyaları üstbəüst,
adamları kədərli,
adamları ac və süst..
Sobada şaqqıldayan
yalançı bir qazança,
mürgüləyən ümidlə


gülümsəyən balaca…
Ananın gözlərində
ümid qapqara kömür,
atanın baxışları –
ifadəsiz bir ömür..
Pəncərədə ilişib
qalan Allah kölgəsi,
külək döyən qapının
hövsələsiz cır səsi.
Ananın güzgülərdə
gizlətdiyi göz yaşı,
Atanın xəyalında
bir kəndir, bir başdaşı.
Paltarının qolunu
didikləyən körpəyə
baxıb düşünür ata:
bəlkə də Allah olub
bizim evdə haçansa...
Külək döyür qapını,
körpə gedir yuxuya,
şaqqıldayır qazança…

***

Allahın yoxluğu qəzəb oyadır,
Sənin olmamağın kədər, əzizim.
İlahi ədalət istəməmişdim
Səni istədiyim qədər, əzizim.

Sən Tanrı rolunu oyna mənimçün,
Mən də pivə içim və şeir yazım.
Allahsız birtəhər keçinmək olar,
Sənsiz bu həyatda nə itim azıb?

Getmisən, mən indi başa düşmüşəm
Dörd divar, heç demə, otaq deməkmiş.
Sənsizlik şər vaxtı kilidli qapı,
Yuxu birnəfərlik yataq deməkmiş...



İbrahim İsrafil
(Şamaxı)

Gecələr

Məsum bir uşaqtək qoynunda məni
Sual girdabına salar gecələr.
Hər günəş batanda çatıb sonuna
Ömrümdən bir günü alar gecələr.

Səssizlik içində möcüzə səs var,
Bu sükut aləmdə hansısa kəs var...
Geniş xəyalımda bir dar qəfəs var –
Boşalar gecələr, dolar gecələr.

Yatar mışıl-mışıl körpə beşikdə,
Sükuta qərq olar ev də, eşik də.
Gecənin zülməti durub keşikdə
Həzin bir musiqi çalar gecələr.

Qeybdən könlümə bir soraq gələr,
Geniş səhra gələr, uca dağ gələr.
Elə ki önümə ağ varaq gələr,
Mənimlə həmsöhbət olar gecələr.

İbrahim, dərdinə hey yanıram mən,
Bəzən bu dünyadan usanıram mən.
Özümdən sonraya qısqanıram mən,
Görəsən, kimlərə qalar gecələr?

Dünyada

Bir qurğu mələyi, bir şeytan əli
Yıxmasın heç kəsi fani dünyada.
Boğazdan tutmasın qaniçən zəli,
Almasın əllərdən canı dünyada.

Hər kəs adil olsun öz nizamında,
Qəlblərə nur saçsın söz nizamında,
Atmasın həyanı üz nizamında –
Bir belə intizam hanı dünyada?..

Bir kəsin arxadan dağı uçmasın,
Solu dayaq olsun, sağı uçmasın.
Həyatın, ömürün tağı uçmasın,
Ucalsın hər kəsin şanı dünyada.

Kasıba varlısı etməsin lağı,
Qardaş qardaşına olmasın yağı.
Allah, nakamların yansın çırağı,
Artsın xoşbəxtlərin sanı dünyada.

İbrahim, baş qoşma yolu azana,
Götür qələmini yaz yana-yana.
Naşükür bəndələr yığsa da cana –
Tanı Allahını, tanı dünyada.



Seymur Su
(İsmayıllı)

Bir əsrlik şeir yaz

Bir əsrlik şeir yaz, bitsin bu səsləyişlər,
Vurub qırsın beynimin öləziyən lampasın.
Bitsin bu insan ömrü, başlasın başqa biri,
Tam başqa biri olsun, bizim kimi olmasın.

Bir gecə quraqlığın özü gəlsin, yox olsun
su pərisi axtaran yosunlar və balıqlar.
Sıfırlansın içimdən tütünsüz, alkoqolsuz,
məhəbbətsiz yaranmış bütün xarabalıqlar.

Bir əsrlik şeir yaz, bir əsrlik şeir yaz.
Küləklərin əlindən qılınc-qalxanın alaq.
Nəyə lazımdı ki o – kəsmirsə qarşısını
hardasa bir qadını edirlərsə daş-qalaq.

Bir əsrlik şeir yaz, bir sətir yaz gecədən,
Danış ayın özüylə, nədir bu səssizliyin?
Bu qədər gözləntini necə yığır səmaya –
necə dözür Zevs bəs, bükülmürmü o çiyin?

Bir əsrlik şeir yaz, ikini vur ikiyə,
Düşün bunun cavabın tapa bilməyənləri.
Bircə əsr qal, düşün, bir bəlğəmtək şəhərdən
yapışıb da heç cürə qopa bilməyənləri...

Bir əsrlik şeir yaz, tarixi düşünmə gəl,
sabahları düşünməz olduq bu cür gedişlə.
Bir əsrlik şeir yaz, Tanrıya döndər onu,
Qorxudan tir-tir əssin, bütün bütlər, fetişlər.

Bir əsrlik şeir yaz, bir əsrlik sev onu,
Amma bircə şeirə sığışdır artıq, yetər.
Qaçsın, gizlənsin səndən, açmasın telefonu,
Sadəcə sədaqətin olsun hər şeyə sipər.

Bir əsrlik şeir yaz, gözlərini qıymadan
Azadlığın özünü bir yurd kimi kəşf elə.
Uşaqlar üçün götür, yığ balaca portfelə,
Bir əsrlik şeir yaz, bəlkə də düzələcək.

Bir əsrlik şeir yaz, səmalara üfürək,
Ay kimi, günəş kimi qalım da təklikdə mən.
Bir əsrlik şeir yaz, düzənlərə tüpürək,
Gəlib də güllələsin 37 nöqtədən.

Bir fotosu qalmış adam

Yoxluğun bütün şəhəri ağuşuna alıb,
ey bircə fotosu qalmış adam.
Adamlar çoxdu, həddən çox;
qulaq pərdələrin yeyilib,
qalın divarlar nazilib.
Səslərdən hara qaçasan?
Dizlərin, biləyin, üzün-gözün çoxluqdan əzilib,
qaçış oxunu hara sancasan?
Qaldır dabanını, Axilles! – deyə çığırsan da,
ölsə qabırğalarından
həbsxana dəmirləritək yapışmış son insan da,
bu darmadağınlıqda, bu yerləyeksanda
səmanın hansı səmtini
Günəşin yatağı bilib uçasan?

Qapı arxasındakı xoxan da böyüyüb
uşaqlığından bu yana sənin qədər,
ey bircə fotosu qalmış adam.
Acmısan, bilirəm,
doyurmur qarnını, öldürür bu ucuz kafe yeməkləri
bütün iştahını.
Qoy kənara yemək menyusunu,
əlindəki bazarlıq siyahını.
Acmısan, bilirəm,
indi sən bütün uşaqlara həsədsən
ana döşlərindən doyan, gülümsəyən uşaqlara.
Bəlkə də ona görə devirmək istəyirsən
böyük adamların böyük qazanlarını
ocaq üstündən.

Bilirsənmi,
dünyanın hər yerində kağızdan ibarətik,
əslində,
heç kimik.
– diplomuq,
şəxsiyyət vəsiqəsiyik,
pul,
qatar bileti,
avtobus kartı...
Hətta sən özün də
ölümündən sonra sadəcə bir fotosan.

Bilirsənmi, ey bircə fotosu qalmış adam,
üzümüzdəki təbəssüm
daş kimi düşdü adamların başına.
Ağrı doğradı onları.
Onlarsa qarğış etdilər göylərə.
Günəş batdı.
Və bir daha gəlmədi.



Alik Dənizsevər
(İsmayıllı)

Solan çiçək

Solan çiçək,
qərib yerdə
ölən çiçək,
Çək qoxunu, içinə çək.
Elə şair doğulandan
tanıyıram qəribliyi.
Çəkdim dərdin hər rəngini,
hər rəngini çəkdim, inan.
Ömrümü min yerə böldüm,
paralandım, min yol öldüm,
qəm düzündə bitən çiçək,
qərib yerdə itən çiçək.
İtmək nədir,
getmək nədir,
ölmək nədir –
Kimsə bilməz, mən bilirəm...

A çiçəyim,
büküldüyün gün yadımda,
həkk olundu yaddaşıma.
Yox, nə olar solub getmə,
heçliklərə dalıb getmə,
Bu da keçər… keçməz amma
qəribliyin sis-dumanı.
Boy atdığın torpaq – canın,
həsrətin qalar canında.

Solan çiçək,
qərib yerdə
ölən çiçək.
İtmək nədir,
getmək nədir,
ölmək nədir –
Kimsə bilməz, mən bilirəm…

Gözüntək qoru

Bir ömür eşqimi
gözüntək qoru.
Qoy yad əl dəyməsin,
kirlənməsin heç.
Ağzından çıxmamış
sözüntək qoru.
Nə olsun, getdiyin
andan mən öldüm.
Qəlbim ürəyinə əsir düşəndən
canımdan oldum.
Nə olar, məni də
özüntək qoru...



Qorxmaz Şıxalıoğlu
(İsmayıllı)

Yə kumığənəd kum halo!
(hapıt dilində)

Halan yihrəmvın kum haço,
Yə kumığənəd kum halayo!
Kələr əsıkən səb çiço,
Yə kumığənəd kum halayo!

Icə hıykır heç halədəd,
Icə huykır heç halədəd,
Vınə kumukır məcə məd,
Yə kumığənəd kum halayo!

Sundurun lurdəd uc zəəce,
Ləc ənice, luc yəəce,
Şi yersə, zovəc hurəce,
Yə kumığənəd kum halayo!

Bizim kənd kimi kənd hanı!
(sətri tərcüməsi)

Hara getsən, kənd doludu,
Bizim kənd kimi kənd hanı!
Başdan ayağa çiçəkdi,
Bizim kənd kimi kənd hanı!

Suyundan heç yerdə yoxdu,
Çörəyindən heç harda yoxdu,
Öz kəndindən daha danışma,
Bizim kənd kimi kənd hanı!

Heç kim deməz bu mənimdi,
O onundu, bu bunundu,
Nə varsa, bir Allahındı,
Bizim kənd kimi kənd hanı!

Ləhəd riş
(hapıt dilində)

Şiz lurevın hələd dəbu?
Zəz lu ləhəd riş ükəco.
Ən hələd şiberə səbo,
Zəz lu ləhəd riş ükəco.

Qara qız
(sətri tərcüməsi)

Niyə deyirsən qəşəng deyil?
Mən bu qara qızı istəyirəm.
Ən gözəl qızlardan biridi,
Mən bu qara qızı istəyirəm.

Nəqarət
Şirevın ər,
Qet zın kerər,
Zəz lu ləhəd
Riş ükəco.

Və şi kareki həlmə yo,
Zəz əçəraki əm tiyo.
Luzudo, irudo, şiyo,
Zəz lu ləhəd riş ükəco.

Nəqarət
Şirevın ər,
Qet zın kerər,
Zəz lu ləhəd
Riş ükəco.

Nəqarət
Neynirsən elə,
Vur məni öldür.
Mən bu qara qızı
İstəyirəm.

Nə işinə qalıb necədi,
Özüm bilərəm nəçidi.
Ağdı, qırmızıdı, nədi,
Mən bu qara qızı istəyirəm.

Nəqarət
Neynirsən elə,
Vur məni öldür.
Mən bu qara qızı
İstəyirəm.

Zov Qoquce, Kım yəəce
(hapıt dilində)

Çə həycebin, həd həycebin,
Yinnə lu Kım səd həycebin,
Lu mizerın məd həycebin:
Zov Qoquce, Kım yəəce.

Nəqarət
Yə kusundər
Uc lıpıce:
Zov Qoquce,
Kım yəəce.

Şi əcənevın varan-kərən?
Şi ikrevvın hərən-qərən?
Vıç ikevəz vının kerər:
Zov Qoquce, Kım yəəce.

Nəqarət


Göy Allahın, Yer bizimdi.
(sətri tərcüməsi)

Su olmuşuq, od olmuşuq,
Bu torpaqla bir olmuşuq,
Deməkdən də yorulmuşuq:
Göy Allahın, Yer bizimdi.

Nəqarət
Bizim qocalar
Bunu deyiblər:
Göy Allahın,
Yer bizimdi.

Ağ-qara nə danışırsan?
İçəri-çölə nə baxırsan?
Ölülərimiz də deyir məzarda:
Göy Allahın, Yer bizimdi.

Nəqarət



Şahməmməd Dağlaroğlu
(İsmayıllı)

Vətən
(lahıc dilində)

Ve numtu vərmorum bı astarahon,
Tı mənə Aftoman, Mohməni, Vətən!
Ruztı xuş boşısə şömənіş ruzi
Dərd kəşi dərdhontı ohməni, Vətən!

Vaxt bire ufdorom diyorbədiyor,
Şinirom numtıra dılman bire şor.
Nummənə Şohməmməd hişde hişdəgor ,
Man ancaq Məmmədum, şohməni Vətən!

Vətən
(tərcüməsi)

Bu adla yetişdim mən ulduzlara,
Günəşim, həm də ki, Mahımdır Vətən!
Günün xoş keçərsə, gecəm nurludur,
Dərd çəksən, dərdlərin ahımdır, Vətən!

Vaxt olub yad eldə çəkmişəm fəryad,
Adını eşitcək könlüm olub şad.
Şahməmməd – bu olub mənə düşən ad,
Mən ancaq Məmmədəm, şahımdır Vətən!

Fikir soz
(lahıc dilində)

Ay ımırə vasolirə zisdəgor
Poriz bire, zumustuna fikir soz.
Imun quş nim, a quşhoniş bətərim,
Vəssi voxdim xuna-xuna fikir soz.

İn rahona oxiri ni, qe mə gərd,
Dərdsızhona dərdi beman kələ dərd.
Xuba bələ qe kəşire xuba mərd
Be qı doşde tı in cuna fikir soz.

Sılım vəre qəd san boşı zunitı,
Hamor nısti bın dəryohon duni tı.
Yeki nöşte, çətin dəhto xuni tı
Sıfır bı yek dora nuna fikir soz.

Şəftə raha şəft nare bəs çı sozi,
Dırıst ə şəft, şəft ə dırıst norozi.
Bə bun xuna sərtı qarış bı vozi,
Bun xori ni, kinor buna fikir soz.

Ru ki xandısd bırghon duri ə həmin,
Poy xandeman yofte mənə çı kəm in?
Düst ki ləmısd sanqa vəyifd ə zəmin,
Sərtı para, rıxda xuna fikir soz.

Ay ımırə vasolirə zisdəgor
Poriz bire, zumustuna fikir soz.
Imun quş nim, a quşhoniş bətərim,
Vəssi voxdim xuna-xuna fikir soz.

Fikirləş
(tərcüməsi)

Ay ömrünün gül fəslini yaşayan,
Payız gəldi, qış olmağı fikirləş.
Quş deyilik, biz quşlardan betərik,
Köçəriyik, quş olmağı fikirləş.

Yollar səni yorar harda "hə" desə,
Yadda saxla yollar sənə nə desə.
Zirvə görsən, düşmə yersiz həvəsə,
Öz başından baş olmağı fikirləş.

Pillə qalxıb, qatlanmamış diz olmaz,
Üzü düzən dəniz dibi düz olmaz.
Bir olmasa, iki sıfır yüz olmaz,
Dörd dalınca beş olmağı fikirləş.

Dolanmağa yol gərəkdi dolama,
Dolamada ömrü hədər dolanma.
Bulud olma, dolmağına dol, amma
Dolmamışdan boşalmağı fikirləş.

Gülən üzdə qara qaşlar çatılmaz,
Bəxtli bəxşiş ikinci yol satılmaz.
Tale daşı hara gəldi atılmaz,
Dost əlində daş olmağı fikirləş.

Ay ömrünün gül fəslini yaşayan,
Payız gəldi, qış olmağı fikirləş.
Quş deyilik, biz quşlardan betərik,
Köçəriyik, quş olmağı fikirləş.

Tı ki rafdi
(lahıc dilində)

Tı ki rafdi man mundum,
Tıra gəşdum vomundum.
Dərd zıhr ımo man xundum,
Xundum ki, tıra vinum.

Bustun mənə ə dəs dərd,
Ə dəs dərdhon birom zərd.
Rah həmmərə vəyıfd bərd
Mundum ki, tıra vinum.

Ba ruzman şö giresd mö,
Dıltı sanq bı, çımman ö.
Xışdanmənə bı ələ
Şundum ki, tıra vinum.

Səni görməyə
(tərcüməsi)

Qəlbimi saldın oda,
Bir qəribəm dünyada.
Ötən günləri yada
Saldım, səni görməyə.

Gəl qurtar məni dardan,
Üzüldüm intizardan.
Yol üstə son qatardan
Qaldım, səni görməyə.

Tutdum qəmin yasını,
Sildim könül pasını.
Tənhalar dünyasını
Aldım, səni görməyə.

Ösızə çişmeyum, simsızə sozum
(lahıc dilində)

Ə dılman qe girəşd, na ımo bı sər
Kələ dərdi, lolhon məğni na xunı.
Çımsıza a numi dinyoha diran,
Bə biyor çımlıhon hiç na mufdunı.

Mənə dəshonmənə çı dərdi hısdi,
Qələm, soz vəyıfdom, güliş vəçirom.
Ə dılman şorirə çətin bıdızdi,
Hər vaxt çımhonmənə man ərsın dirom.

Dılisanq xandara bə dıl mıdorı,
Kəm nısdi zisdəgor ba tuği əngıl.
Qanqal xordagorhon çətin gül korı,
A zuhun tij ımbı, ə sər tamom kıl.

Bı rah bufdunumsə, mənzıl nəzıki,
Hosund cürö minum şörə man a ruz.
Bıce in sıfrərə nuni, nımıki,
Be ançı in icoğ munde niməsuz?

Ösızə çişmeyum, simsızə sozum,
Na numman bikori, nə dəsman bı kor.
Fəryodum, giryeyum, xuşa avozum,
Mənə nə müşnösı səssız nişdəgor.

Bir susan bulağam
(tərcüməsi)

Bir lalın adından mahnı oxumaq
Çoxdankı arzumdur, bacarmıram da.
Bir gözsüz adından dünyaya baxmaq,
Hər gözlü yanında düşməz dünyada.

Mənim əllərimin nə dərdi var ki?
Saz da götürmüşəm, gül də dərmişəm.
Məndən gileylidir o arzular ki,
Ağrıdan, acıdan gülən görmüşəm.

Bir zərif gülüşə xəsislik edib,
Az deyil yaşayan alında düyün.
De, canım, kim sənə nə pislik edib?
Gör-götür dəmidir, nədir gördüyün?

Mənzil başındayam, düşərsəm yola,
Gecəni gündüzdən ayırar gözüm.
Başıma gəlməmiş bir qalmaqala
O dözüb, sən dözdün, qoy mən də dözüm.

Bir susan bulağam, bir qırıq sazam,
Axarım naməlum, səsim başqa səs.
Gah yersiz gileyəm, gah xoş avazam,
Məni çətin duysun susub duran kəs.



Ömər Xəyyam
(İsmayıllı)

Çinar at

(hekayə)

O palçıq evin pəncərəsi olmasa da, mən o palçıq evin pəncərəsindən anamın ağ-qara şəkillərdəki qara, qapqara qulac saçlarına, əllərinin ipək vaxtına, çiçək vaxtına boylanırdım.

Mən o palçıq küçələrdə küsdüm Rihabdan, onun ağ donundakı qırmızı güllərdən, qırmızı güllərin üstdəki kəpənəklərdən...

Onda ki onun ipək əlləri, çiçək əlləri palçıq oldu, onda ki onun qırmızı güllü ağ donu palçığa batdı, mən onda bildim ki, o palçıq evlərin sakinləri – biz torpaq ətirli uşaqlar – hamı Rihabı sevir.

O palçıq evin iri pəncərəli geniş otağında ağ donun dördgözlü qəhvəyi düymələri açıldıqca o ağ donun üstdəki qırmızı güllər palçıq döşəməyə tökülürdü, torpaqdan tutub dikəlirdi, o ağ donun üstdəki kəpənəklər də o güllərin üstdə çiçəklənirdi.

***

Bu, lap köhnə əhvalatdı. Əgər bu səhər Suriyadakı mərmi yağışından xəbər tutmasaydım, o palçıq evləri, Rihabı, Rihabın qırmızı güllü ağ donunu, o kəpənəkləri, çinar atımı, ağac atımı xatırlamazdım heç.

O gün ki Rihab öldü, o gün ki qırmızı güllər palçığın altda qaldı, o gün qırmızı güllü ağ donun üstdəki kəpənəklər də uçub getdi...

***

...kəpənəklər o qırmızı güllərin üstdə çiçəklənirdilər, birdən o yekəpər – Sadıq peyda oldu.

Elə bil bir-birindən fərqli üç irqin üç adamını doğrayıb-biçib, üçünün ətindən, sümüyündən düzəldiblər onu. Sifəti yastı, yanaqları qaramtıl, ərik tumuna bənzər gözləri ətli qapaqlarının altında sərxoş. O da istədi palçıqdan ev düzəldə. O da uşaqdı axı. Onun da malası vardı. O da xörək

qaşığından mala düzəltmişdi. Malası vardı, amma heç vaxt daşı daş üstə qoyub bir evcik düzəldə bilməzdi Sadıq. Ha çalışdı, divarı palçıq tutmadı, daşı daş üstdə qalmadı.

Torpağın da ürəyi var, dili var axı. Lap o da biz – torpaq ətirli uşaqlar kimi palçıqdan bir ev yapdı, Rihab gələrdimi o palçıq evə? O ağ donun qırmızı gülləri budaq-budaq dikələrdimi palçıqdan? O ağ donun üstdəki kəpənəklər o qırmızı güldən bu qırmızı gülə çiçəklənərdimi?

***

Zərrə kinim-küdurətim qalmamışdı. Düzü, qanım qaynamırdı, amma nifrətim də yoxdu. Necə oldu bilmirəm – səbəbini soruşanda susmuşdu o da – qapılarından keçəndə azğın qəzəblə qovmuşdu məni. Mən də dabanıma tüpürüb qayıtmışdım. Belə başlamışdı bizim qaç-qovdu... Məni gördümü, götürülürdü dalımca. Elə ki yoruldum, elə ki ayaqlarım məndən geridə qaldı – çatıb bir-iki təpik vururdu; kəlmə kəsməzdi, eləcə dönüb qaçardı. Bir qaydaya çevrilmişdi küçə davamız. Məndən ötrü də bir vərdiş idi. Olub ki, özüm qəsdən qapılarına tərəf getmişəm...

Yazın axırıydımı, yayın əvvəliydimi, küçə aşağı-küçə yuxarı gəzdim, görünmədi; qapılarına qədər getdim, fikirləşdim qapını döyüb qaçım, ürək eləmədim. Bir həftə görünmədi. Bir həftə kürəyimdə qapaz yeri, baldırımda təpik yeri qaşındı. Elə ki dabanıma tüpürüb qaçdığım yerdən əlim cibimdə qorxusuz-hürküsüz keçdim, mən onda bildim ki, təkəm, onda bildim darıxıram…

…Bir gün bir qəribə cəsarət gəlmişdi mənə, dayanmışdım:

– Nədi, nə qovursan məni it kimi?

Susub, başını sallayıb getmişdi. O gündən sonra bir də qovmadı məni.

***

O gün ki daşı daş üstə durmadı, evinin divarı palçıq tutmadı, necə ki mənim üstümə qaçırdı, eləcə qaçdı çaya, bir ətək daş yığıb gəldi. Qırıcı təyyarələrin səsini yamsılaya-yamsılaya daşa tutdu palçıq evləri. O çay daşları mərmitək töküldü evlərin üstə.

Bacası yıxıldı, divarı uçdu təkcənəliyimin.

Sadıq çinar atımı, ağac atımı da çapıb getdi... Yox, deyərdin mənim çinar atım, ağac atım dönüb oldu Qırat: indicə Sadığa bir qoşa təpik vurub qaçacaq... Olmadı, Sadıq çinar atımı barmaqlarının arasında fırlada-fırlada getdi...

***

O gecə Rihabı gördüm yuxuda: mənim çinar atım, ağac atım...

Nə oldusa at hürkdü, büdrədi qəfil. Rihab atdan, mən Rihabdan yıxıldım.

Sonra yuxularıma da gəlmədi. Mən hər gün yuxuda bir ağ atlı şahzadəyə dönüb o çinar çubuğunu Rihabın dalınca çapdım. Çapdım, çapdım, amma nə o kəpənəklərə, nə də Rihaba çata bildim. O çinar çubuğu ki mən onun bir ucuna ip bağlamışdım, nənəmin düymələrindən göz də qoymuşdum başına – hər gün ayaqlarımın arasında sürüyürdüm, tərləyirdi, yorulurdu; elə ki bir arx gördüm, başını salırdım suya, suvarırdım...

***

Bir gün sübhün gözü açılanda hamıdan xəbərsiz qapımızı qıfılladıq. Biz qapını bağlayanda hələ heç kəs yuxudan oyanmamışdı. Hələ ulduzların çoxu batmamışdı. Göyün ortasında dayanmış Ay da işığını söndürüb bir quruca qabıq kimi havanın üzündə qalmışdı. Ondan aşağıda – səhərin boz toranına bürünmüş qoz ağacının budaqlarındakı qarğalar da hələ yatırdı.

Hələ arx boş idi. Hələ Fərhad kişinin qəlyandan püflədiyi tütün qırıntıları arxın içində dururdu. Hələ küçədən mal-davar keçməmişdi. Bir azdan kimsə çaydan arxa su bağlayacaq, qıjıltı ilə axan su o tütün qırıntılarını yuyub aparacaqdı. Bir azdan qarğalar da oyanacaqdı. Oyanan kimi qoz ağacının başından da hündür telefon məftillərinin üstünə atılıb qarıldaşacaqdılar... Qarğalar da, arxdakı su da, o palçıq evlərin palçıq küçələri də, qaşıqdan düzəltdiyim mala da darıxacaqdı, məni çağıracaqdı.

...Və mən onda yolun yarısında olacaqdım. Mən sevinirdim. Dəniz eşqiylə alışıb yanırdı könlüm. Məni həm də ağlamaq tuturdu və nədənsə mənə elə gəlirdi ki, qapımızdakı qıfılı görəndə o yekəpər Sadıq də ağlayacaqdı...

***

Biz Bakıya çatanda, onda ki anamla Mərcan xala çörək dükanında təzəcə görüşüb öpüşmüşdü; onda ki biz – atam, mən, bir də əmim – böyük küçəylə yuxarı qalxırdıq, onda ki asfaltlı dar küçələrdə atamla əmim kənddən, ordakı keçmiş un dəyirmanından, ölənlərdən, olanlardan danışa-danışa tələsik yeriyirdilər və mən onların dalınca qaçırdım – onda bildim ki, bu şəhər, bu beton cəngəllik yaddı mənə.

Mən dənizi bir ayrı cür bilirdim. Burda Günəş də başqadı: o Günəş ki göydə – bizdən min il uzaqda – qızarır, adama dəyib yerə düşür, ayaq altda qaralır, o Günəş ki indi Rihabgilin qapısına sürünür – hələ tapdanmayıb, hələ bulaşmayıb – elə ki yorğun hava əsnədi, mürgülü küçələrdən çəkildi hamı, o da tapdanmış, bulaşmış əllərini yerdən çəkəcək, üst-başını çırpıb dənizə atılacaq üfüqdən – mən də o çinar çubuğunun tərkində Rihabı dalğaların belinə qaldıracam; o Günəş ki çimə-çimə bizə gülümsəyəcək, Rihab da başını çiynimə qoyub qımışacaq, o Günəşi ki mən görmüşdüm, o dəniz ki Günəşi yuyub təmizləyirdi hamıdan – bu, həmin Günəş deyil, bu dəniz o dəniz deyil.

Mənə elə gəldi ki, çöldəki uşaqlar da başqa yerin, başqa dünyanın uşaqlarıdı. Oyunları da, geyimləri də, gülüşləri də başqaydı.

Mən əmimgilin qapısında hamıdan gizlənməyə bir palçıq ev düzəltmək istədim... Olmadı. Daş üstə qalmadı daşı Bakının. Palçıq tutmadı, eləcə axıb töküldü. Mənə elə gəldi ki, şəhərin qumu da, suyu da ayrıdı. Ya da mən bu suyun, bu torpağın dilini bilmirəm. Ha çalışdım, olmadı, olmadı...

Mən şəhər uşaqlarına qarışanda, şəhər oyunlarını öyrənəndə Sadığın anası ölmüşdü...

***

O yay ki kəndə gəldim, deyərdin bu Sadıq o Sadıq deyil. Mən onda bildim ki, adam necə nazilir, büzülüb bir ovuc qalır.

Mən onda bildim ki, Sadığın anası xərçəng imiş. Mən onda bildim ki, Sadığın qaç-qovdusu da, palçıq evlərimizi yağmalaması da elə anasının ağrılarına, atasının yoxluğuna oxşayırmış.

Onda ki Sadıqla görüşdük, onda ki böyüklər kimi dərdləşdik, mən onda Sadığın o palçıq evləri daşlamağını da, məni qovub təpikləməyini də başa düşdüm.

Mən onda bildim ki, Sadıq niyə palçıqdan ev düzəldə bilmir.

Yuxumda Rihabı gördüm. Mənim çinar atım, ağac atım... Rihab məndən bərk yapışmışdı. Elə ki itlər oyandı, elə ki qoz ağacındakı qarğalar telefon məftillərinin üstünə atılıb qarıldamağa başladı, elə ki Günəş kirpiklərimdən boylandı, mən onda bildim ki, Rihab da, o çinar at da bir yuxu idi, çəkildi getdi.

Qapıdan çıxanda Sadığı gördüm. Düzü, qaçmaq istədim – mən daha qıvraq idim, həmişə özüm istəmişəm ki, Sadıq mənə çatsın, çatıb təpikləsin. Yoxsa min il qaça, çatammazdı mənə – amma bu dəfə qaçmağın adı yoxdu. Sadıqda ki mənim çinar atım var, ha qaç...

Özümü itirmədim, guya qorxmuram, guya Bakıya gedib böyümüşəm. Sadıq da üstümə qaçmadı. Mənim çinar atım, ağac atım... Necə ki Sadığın üzü bir qaşıq qalmışdı, mənim çinar atım da üzülmüş, nazilmiş...

O çinar çubuğu ki mən onun bir ucuna ip bağlamışdım, nənəmin düymələrindən göz də qoymuşdum başına; o çinar çubuğu ki hər gün ayaqlarımın arasında sürüyürdüm, tərləyirdi, yorulurdu – Sadığın əlində bir quruca çubuq olmuşdu.

Deyərdin bu atın üstündə Rihabla mən o palçıq küçələrdən keçməmişik, qırmızı güllü ağ donun üstə yuxudan-yuxuya qaçmamışıq...

Sadıq salamdan artıq kəlmə kəsmədi. Mənim çinar atım, ağac atım...

***

...ağacları oğlanlara, qızlara ayırmışdım. Məndən ötrü gilas, gilənar, nədənsə, qız idilər. Alma oğlan idi, armud oğlan idi.

Bir də çinar.

Bircə heyva haqda təsəvvürüm dəyişdi: bir yaz heyva çiçək açdı, bir yaz Rihab ağappaq kəlağayıda məktəbə gəldi. Bir gün məktəbdən qayıdıb, bizim həyətdən Qənirə xalagilin həyətinə əyilmiş heyva ağacının ağappaq çiçəklərini görəndə mən yəqin elədim ki, heyva da qız imiş, oğlan deyilmiş.

Bir də çinar ağacı... Onda ki Sadıq onu qaytardı mənə, mən onu yaxşıca sulayıb, yüyənini açıb Qənirə xalagilin həyətinə əyilmiş heyva ağacına söykədim...

***

Sadığın anası öləndən, atası bir az da yox olandan sonra özü xeyli böyümüşdü... Qənirə xalagilin həyətinə əyilmiş heyva ağacına söykədiyim çinar yarpaqlamışdı.

Atım ağac olmuşdu.

Baş redaktordan:

Təqdim etdiyimiz ədəbi nümunələrin bəyənildiyinə ümid edirik. "Region" əlavəsinin növbəti səfəri isə Azərbaycanın Borçalı bölgəsinə olacaq. Mətnlərinizi gözləyirik.

«RS Poliqraf» MMC-nin mətbəəsində çap olunmuşdur.

Çapa imzalanıb: 18.07.2018. Ofset çap. Ofset kağızı.
Format: 70x100 1/16. Həcmi 9,5 ş.ç.v. Tiraj: 1000 nüsxə.
Qiyməti razılaşma yolu ilə.

"RS Poliqraf" MMC
Bakı şəh., A.Məmmədov küç., 113
Tel./faks (+994 12) 437 08 20